Hüquq və İnsan Haqları İnstitutu
Azərbaycan Milli Elmlər Akademiyası

BEYNƏLXALQ TÜRK MƏDƏNİYYƏTİ VƏ İRSİ FONDU

BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası

FAİQ İSMAYILOV

AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏKİ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNƏ VURULAN ZƏRƏR



Azərbaycan Milli Elmlər Akademiyası
Hüquq və İnsan Haqları İnstitutu

AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏKİ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNƏ VURULAN ZƏRƏR

107428

Faiq İsmayılov

Azərbaycan Milli Kitabxanası

Bakı - 2016

T3(2A)7-563 + 45101 + T3(2A)7-7

İdeya müəllifi: Faiq İsmayılov
Məsləhətçilər: h.e.d. Aytən Mustafazadə, Günay Əfəndiyeva
Elmi redaktor: f.e.d. Lalə Əhmədova
Baş redaktor: t.e.d. Anar İsgəndərov
Redaktor: İqrar Məmmədli
Redaksiya heyəti: Səbinə Sadıxqızı, İqrar Məməmədli, Təranə Yaqubova, Nərgiz Yusifzadə
Dizayn: Anar Mustafayev

Kitabda Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı ictimai birliyinin arxiv materiallarından istifadə edilmişdir.

İSBN: 978-9952-8154-9-8

Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər: 2016

Sizə təqdim olunan bu kitab Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində, erməni işğalı altında qalan Azərbaycan ərazilərindəki tarix və mədəniyyət abidələrinin ermənilər tərəfindən vandalizmə uğradılmasının səbəblərinin indiyə qədər beynəlxalq elmi ictimaiyyətə məlum olmayan tərəflərini araşdırır.

ARXİV

MÜNDƏRİCAT

Giriş 10

Azərbaycanın erməni vandalizminə uğrayan tarix və mədəniyyət abidələri 13

Azərbaycanın işğal olunmuş ərazilərində bölgələr üzrə tarix və mədəniyyət abidələrinə ermənilər tərəfindən vurulan zərərlər barədə məlumat 25

Erməni xaçdaşları: mifologiya, yoxsa tarixi reallıq?! 62

Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində vandalizmə uğradılan islam dini abidələri 82

İşğal altındakı ərazilərdə monumental incəsənət nümunələrinin və islam dini abidələrinin ermənilər tərəfindən dağıdılmasının səbəbləri 98

Abidələrə dəymiş zərərin müəyyənləşdirilməsi qaydaları 104

Memarlıq abidələrinə dəyən zərərin bazar qiymətlərinə uyğun müəyyən edilməsi qaydaları 112

İşğal altında qalan Azərbaycanın dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin adlı siyahısı 117

Daşınmaz tarix və mədəniyyət abidələrinə vurulmuş zərərə görə Azərbaycanın Ermənistandan təzminat almaq hüququ təmin edilməlidir 164

İstifadə olunmuş ədəbiyyat 173

Tarixi-mədəni irsimizi qoruyaq!

Əziz oxucu!

Qarşınızdakı "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər" kitabı, sadəcə, Azərbaycan xalqının qədim tarixini və mədəniyyətini əks etdirmir, o həm də məhv edilmiş və hazırda məhv edilməkdə olan abidələrimizin həyəcan səsi, harayıdır.

Kitabı vərəqlədikcə Ermənistanın işğalı altında olan Qarabağda minlərlə abidələrimizin dağıdıldığını, bir çoxlarının ermənileşdirilərək mənimsənildiyini görmək, əlbəttə, bizim hər birimizin qəlbini ağrıdır. Buna görə də biz öz sözümüzü, ədalətli mövqeyimizi hər zaman dilə gətirməklə, erməni saxtakarlığını dünya miqyasında elmi əsaslar və əyani sübutlarla ifşa etməyə, onların iç üzünü açmağa çalışmalıyıq.

Bu baxımdan, "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər" kitabı çox əhəmiyyətli nəşrdir. Burada bizim milli abidələrimiz haqqında informasiya verilməklə yanaşı, həmçinin o abidələrin bugünkü taleyi göstərilir, onların məhv edilməsiylə dəymiş maddi və mənəvi zərərin həcmi barədə də məlumat verilir.

Kitabda ən diqqət çəkən məqamlardan biri, heç şübhəsiz, erməni vandalizminin bir qolu olan "erməni oğurluğu"nun ifşa olunmasıdır.

Ermənilər tərəfindən başqa xalqlara məxsus maddi və mənəvi dəyərlərin mənimsənilməsi, əslində, heç də yeni tendensiya deyil. Ancaq abidələr üzərindəki orijinal yazıların silinməsi, onun əvəzinə ermənicə yazıların əlavə olunması, torpağa basdırılan saxta erməni abidələri sadəcə mənimsəmə yox, həm də yalnız Azərbaycana deyil, bütün dünya mədəniyyətinə təcavüzdür.

Əlbəttə, ermənilərin mənəvi dəyərlərlə bağlı saxtakarlığı gec-tez ifşa olunacaq və haqq-ədalət öz yerini tutacaq, ancaq maddi abidələrimizə vurulan zərər qalıcıdır. Qədim Alban mədəniyyətinə məxsus abidələrimiz bu cür yollarla şikəst edilməkdədir, islam abidələrinin əksəriyyəti isə tamamən məhv edilmişdir. Kitabda bu məsələlər faktlarla geniş işıqlandırılmışdır.

Azərbaycan xalqının maddi-mədəni abidələri haqqında indiyədək müxtəlif əsərlər yazılsa, kitablar nəşr olunsa da, bu günə qədər işğal olunmuş torpaqlarımızdakı abidələri bu şəkildə əks etdirən araşdırma işıq üzü görməmişdir. Buna görə də, məncə, bu tədqiqat gələcək araşdırmaçılara bu sahədə daha geniş tədqiqatlar aparmaq üçün bir stimul ola bilər.

Türkdilli xalqların tarixi-mədəni irsinin qorunması, öyrənilməsi və təşviq edilməsi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun məqsədlərindən biridir. İşğal olunmuş ərazilərimizdəki mədəni miras barədə həqiqətləri ortaya çıxaran kitabın nəşri Fondun əsas fəaliyyət istiqamətləri üçün səciyyəvidir.

Eyni zamanda, Dağlıq Qarabağ və ətrafındakı yeddi rayona məxsus tarixi-mədəni irsin bütün Türk dünyası üçün ölçülməz xəzinə olduğunu qeyd etmək də vacibdir, çünki bu irsin hər bir parçası özündə türkdilli xalqlara xas xarakterik xüsusiyyətlər daşıyır. Müxtəlif abidələrin, incəsənət nümunələrinin, sənət əsərlərinin, əlyazmaların, bir sözlə bu zəngin xəzinənin məhvi və mənimsənilməsi Türk mədəniyyəti və irsinə, ümumiyyətlə, bəşəri mədəniyyətə vurulmuş ciddi zərərdir. Ona görə də bu kitab dünya mədəniyyətində xüsusi yerə malik Türk dünyası mədəni irsinin qorunması baxımından önəmli olduğu qədər, aktual əhəmiyyət də daşıyır.

Mən kitabın hazırlanmasında əməyi olan hər kəsə dərin təşəkkürümü bildirirəm. Həqiqətin bərqərar olunması naminə görülən hər bir iş yalnız dövlət və xalq tərəfindən qiymətləndirilmir, bu, tarix baxımından da böyük qiymətə malikdir. Milli mədəni dəyərlərə və irsə göstərilən diqqət, onların mühafizəsi istiqamətində görülən işlər bəşəri mahiyyət daşıyır və şərəf gətirir.

Günay ƏFƏNDİYEVA,
Beynəlxalq Türk Mədəniyyəti
və İrsi Fondunun Prezidenti

Hörmətli oxucu!

Sizə təqdim olunan bu kitab Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni işğalı altında qalan Azərbaycan ərazilərindəki tarix və mədəniyyət abidələrinin ermənilər tərəfindən vandalizmə uğradılmasının səbəblərinin indiyə qədər beynəlxalq elmi ictimaiyyətə məlum olmayan tərəflərini araşdırır. Kitabın əsas məqsədi erməni vandalizmi ilə bağlı beynəlxalq səviyyədə müzakirələr təşkil etməklə, dünya ictimaiyyətində bu problemlə bağlı real təsəvvür yaratmaqdan ibarətdir.

İndi heç kəsə sirr deyil ki, Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün həyati əhəmiyyət kəsb edir və bu gün onun həlli bütün regionun ictimai-siyasi inkişafında yeni mərhələnin əsasını qoya və Azərbaycanın daha sürətli inkişafına səbəb ola bilər. Lakin buna baxmayaraq, münaqişənin mövcud olduğu bu uzun illər ərzində hələ də dünyanın nüfuzlu beynəlxalq birlikləri bu məsələyə lazımi diqqət yetirməmişdir. İndiyədək Ermənistanla Azərbaycan arasında aparılan sülh danışıqları heç bir nəticə verməmişdir, bu isə Azərbaycanın siyasi həyatında və vətəndaş cəmiyyətlərində böyük narahatlıq doğurur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və mahiyyəti, onun ağır nəticələri dünya birliyinə yaxşı məlumdur. Bu problem Ermənistanın Azərbaycana ərazi iddiaları nəticəsində meydana gəlmişdir. Mahiyyət etibarı ilə münaqişənin nəticəsindən faydalanmaq istəyən Ermənistan Azərbaycanın 20% ərazisini, o cümlədən Dağlıq Qarabağı özünə birləşdirməyə nail olmağa çalışır.

1992-ci ilin fevral ayında erməni silahlı birləşmələri ən müasir silahlardan istifadə edərək Dağlıq Qarabağda 613 nəfər günahsız insanın vəhşicəsinə öldürülməsi, 487 nəfərin şikəst olması, 1275 nəfərin əsir götürülməsi və 150 nəfərin itkin düşməsi ilə nəticələnən Xocalı soyqırımını həyata keçirdi. 1992-ci ilin mayından etibarən isə bu hücumlar Şuşanın, sonra da Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işgalı ilə nəticələndi. Beləliklə, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağla bərabər, onun ətrafındakı rayonları da işğal etdi.

Erməni işğalını pisləyən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə BMT-nin səylərinə və çağırışlarına məhəl qoymayan Ermənistan silahlı birləşmələri Azərbaycan rayonlarını işğal altında saxlamaqda davam edir.

Ermənistanın Azərbaycana qarşı yürütdüyü bu terror və soyqırım siyasəti artıq ideoloji, elmi, mədəni, mənəvi, informasiya, eləcə də sosial sahələri əhatə edir. Ermənistanın Azərbaycana qarşı apardığı işğal siyasətinin fəsadları yalnız ərazilərin zəbt edilməsi ilə bitmir. Bu təcavüz genişmiqyaslı, çoxistiqamətli xarakter daşıyır. Təcavüz Ermənistanın işğalı altında qalan milli-mədəni dəyərlərimizin məhv edilməsi, ya da ermənilləşdirilməsi ilə müşayiət olunur. Belə ki, Füzuli şəhərinin yaxınlığında yerləşən, 700 min il əvvələ aid olan, Avropa insanının ilk yaşayış məskənlərindən sayılan Azıx mağarası dünyanın nadir mədəni sərvətlərindəndir. Erməni işğalçıları bir müddət bu mağaranı silah anbarına, müəyyən dövrdə isə əsgərlərin silahatma məşqlərinin keçirildiyi yerə çeviriblər. İndi isə Ermənistan xarici alimləri də cəlb etməklə burada qanunsuz arxeoloji qazıntılar aparır, Azərbaycana məxsus olan bu qədim sərvəti özününküləşdirmək, yalnız əraziləri deyil, tarixi də mənimsəmək üçün təxribatçı fəaliyyətlərlə məşğul olur.

Qeyd etmək yerinə düşər ki, hazırkı şəraitdə Azərbaycanın tarixi abidələrinə münasibətdə erməni vandalizmi özünü qabarıq şəkildə göstərir. Ermənilər işğal altında olan Azərbaycan ərazilərində yüzlərlə tarixi-dini və mədəni abidələri məhv ediblər.

Azərbaycanın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan ölkəmizin ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən bir problem olaraq qalır. Bu baxımdan Azərbaycanın işğal olunmuş ərazilərində tarix və mədəniyyət abidələrinin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

Müxtəlif dövrlərdə Azərbaycanda müxtəlif dinlərin mövcud olması Dağlıq Qarabağda da insan cəmiyyətinin ictimai həyatına böyük təsir göstərmişdir. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qarabağda da xristianlıq və müsəlmanlığın yanaşı inkişafı və eyni zamanda onların birinin digərini əvəz etməsi Azərbaycanın memarlıq abidələrinin tikintisində də özünü göstərmişdir. Bu isə Azərbaycanda multikulturalizm ənənələrinin necə dərin qatlara söykəndiyinin əyani göstəricisidir. Halhazırda bu mədəni irsin ermənilər tərəfindən vandalizmə uğradılması təəssüf doğurur.

Azərbaycanın işğal olunmuş ərazilərindəki memarlıq abidələrinin bir qisminin ermənilərdirilməsi, digər qisminin vandalizmə uğradılması ciddi təşviş doğurur. Ermənistanın bu hüquqazidd əməlləri nəticəsində işğal altındakı Azərbaycan ərazilərində qalan islam dini abidələri, bağ, park və memarlıq ansamblları ermənilər tərəfindən dağıdılaraq artıq çoxdan tarixə çevrilmişdir. Bu erməni vandalizm faktlarını ifşa etmək üçün Cənubi Qafqazda xristianlıq dövrü bazilika və monastırlarının tikinti quruluşunun öyrənilməsi böyük əhəmiyyətə malikdir. Hesab edirik ki, ermənilərin bu hüquqazidd əməlləri beynəlxalq təşkilatlar tərəfindən araşdırılıb öz hüquqi qiymətini almalıdır.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşü zamanı Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi, tanındı və müdafiə olundu.

Bu kitabda xalqımızın ümummilli probleminə çevrilmiş Ermənistan -Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan ərazilərindəki tarix və mədəniyyət abidələrinin ermənilər tərəfindən vandalizmə uğradılmasının tarixi, məsələnin həlli ilə bağlı danışıqlar prosesinin gedişi, beynəlxalq birliyin bu məsələdə tutduğu mövqeyin nə dərəcədə ədalətli olduğu araşdırılır. Müəllifin əsas məqsədi bu gün bütün Cənubi Qafqazda təhlükəsizliyə və sabitliyə mane olan çox mürəkkəb bir məsələnin həqiqi mahiyyətini oxuculara çatdırmaqdan və dünya birliyinin bu problemə münasibətdə ədalət meyarlarına əsaslanmasının zəruriliyini

sübut etməkdən ibarətdir. Kitab nəinki Azərbaycan, eləcə də bütün region xalqlarının həyatına mənfi təsir göstərən Dağlıq Qarabağ münaqişəsi zəminində yaranan vandalizm siyasətinin səbəblərini öyrənmək istəyənlər üçün qiymətli vəsaitdir.

Aytən MUSTAFAZADƏ,
AMEA Hüquq və İnsan Haqları İnstitutunun direktoru, hüquq elmləri doktoru

Giriş

10 aprel 1998-ci ildə Azərbaycan Milli Məclisi tərəfindən qəbul edilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu imkan verir ki, respublikanın bütün ərazisində abidələrin qeydiyyata alınması, öyrənilməsi, qorunması, bərpa edilməsi, yenidən qurulması, istifadə edilməsi və onlara dəyən zərərlər barədə tədbirlərin görülməsi dövlət orqanları və qeyri-hökumət təşkilatları tərəfindən müstəqil və ya mərkəzləşdirilmiş qaydada təşkil edilsin və həyata keçirilsin.

Abidələrin mühafizə edilməsinə nəzarət işləri daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması haqqında dövlət qanunvericiliyinin yaratdığı şərait çərçivəsində dövlət orqanlarının, hüquqi şəxslərin və vətəndaş cəmiyyəti üzvlərinin gündəlik vəzifələrinə çevrilmişdir. Mədəni irs nəinki daşınmaz tarix və mədəniyyət abidələrini, eyni zamanda, tarixə şahidlik edən bütün sənədlərə və milli-mənəvi dəyərlərə aid daşınan abidələri də əhatə edir. Mədəni irs xalqın milli mədəni və tarixi sərvətidir. Bir xalqın mədəni irsinin digər xalq, millət, yaxud xalqlar və ya millətlər tərəfindən dağıdılması, məhv edilməsi və ya vandalizmə uğradılması yolverilməzdir. Belə hərəkətlər beynəlxalq qanun və konvensiyalarla da yolverilməz hesab edilir. Bu barədə "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü ildə qəbul edilmiş Haaqa Konvensiyası öz üzvləri qarşısında vəzifələr qoyur. Məsələn, hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması memarlıq, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur. Konvensiyanın iştirakçısı olan bütün dövlətlər özlərinin qanunvericiliyində elə qanunlar qəbul etməlidir ki, bu konvensiya onun şərtlərin pozan və pozmağa göstəriş verənləri cəzalandıra bilsin.

Bundan başqa, Haaqa Konvensiyasında sənədin tətbiq edilməsi qaydalarını müəyyən edən icraedici reqlament və işğal edilmiş ərazilərdən mədəni dəyərlərin çıxarılmasını qadağan edən protokol da qəbul edilmişdir.



Kəlbəcər rayonunun Zar kəndi ərazisində xatirə kompleksi

2012-ci ildə Parisdə keçirilən YUNESKO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsinin 8-ci sessiyası çərçivəsində işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında daha bir sənəd qəbul edilib.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması məsələsinin Komitədə müzakirə edilməsinə Azərbaycan 2012-ci ildə təşəbbüs göstərib və 2012-ci il qərarına əsasən, Katiblik tərəfindən işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunmasına aid müvafiq sənədin hazırlanması tələb edilib.

Katiblik tərəfindən hazırlanan sənəddə Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası və onun iki protokolunda işğal edilmiş ərazilərə aid müddəaların hüquqi təhlili, həmin müddəaların həyata keçirilməsi mexanizmləri və digər aspektlər yer alıb.

Sənədin nəticələr hissəsində işğal edilmiş ərazilərdə mədəni abidələrin qorunması ilə bağlı vəziyyətin monitorinq edilməsi məqsədilə YUNESKO texniki missiyalarının göndərilməsinin mümkünlüyü qeyd

edilib. Sənəddə, həmçinin YUNESKO-nun baş direktoru tərəfindən BMT-nin Təhlükəsizlik Şurası (TŞ) və Baş Assambleyasında (BA) qəbul ediləcək qətnamələrdə işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması məsələsinin diqqətə çatdırılması əksini tapıb.

Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlər yalnız Azərbaycan tarix və mədəniyyət abidələrini əhatə etmir, eyni zamanda böyük insan itkiləri ilə müşayiət olunan humanitar fəlakət səviyyəsində ciddi problemlər yaradır. Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ münaqişəsi zamanı 20 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, 100 min nəfər yaralanmış, 50 mindən çox insan əlil olmuş, 5 minə yaxın insan isə əsir və itkin düşmüşdür. Azərbaycanlıların əsrlər boyu yaşadıqları Ermənistan ərazisindən və işğal edilmiş torpaqlardan 1 milyondan artıq insan qovulmuş, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edilmişdir.

Bütün bunlar Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində vurulan ziyanın və təhlükələrin miqyaslarının nə qədər böyük olduğunu əyani şəkildə nümayiş etdirir. İlkin hesablamalara görə, işğal nəticəsində Azərbaycan öz iqtisadi potensialının 20 faizini itirmiş və ölkəyə 818 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Ermənilər tərəfindən oğurlanmış və məhv edilmiş tarixi-mədəni sərvətlərimizin dəyərini isə pulla qiymətləndirmək mümkün deyildir. Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Azərbaycanın erməni vandalizminə uğrayan tarix və mədəniyyət abidələri

Mənbələrin yazdığına görə, hələ XVIII əsrin əvvəllərində, I Pyotr zamanında Rusiya isti dənizlərə yiyələnmək üçün planlar hazırlamağa başlamışdı. 1804-1812-ci illər Rusiya-İran müharibəsinin gedişində – 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim Xəlil xan Cavanşir və Rusiya imperatorluğunun nümayəndəsi P.D.Sisianovun imzaladıqları Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçdi. Müharibədə Rusiyanın qələbəsi nəticəsində Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan xanlıqları işğal edildi. İşğalın nəticələri 1813-cü il oktyabrın 12-də imzalanmış Gülüstan sülh müqaviləsi ilə təsdiq olundu. 1826-cı ildə yenidən başlanan müharibə nəticəsində Azərbaycanın Naxçıvan və İrəvan xanlıqları da işğal edildi. Bu, 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay sülh müqaviləsinə əsasən təsdiq edildi. 1828-ci ildən sonra söz sahibinə çevrilən Rusiya regionda ermənilərin məskunlaşdırılması siyasətini yeritməyə başladı.



Çar Rusiyası ermənilərin Osmanlı və İran ərazilərindən köçürülərək Cənubi Qafqaza yerləşdirilməsi məsələləri ilə məşğul olan xüsusi komissiya yaratdı. Köçürülmə nəticəsində Qarabağ əyalətində 1828-1829-cu illərdə ermənilərin sayı 18 min, 1843-cü ildə isə 34 min 606 nəfərə çatdı. Köçürülmə məsələləri ilə məşğul olan çar məmuru N.İ.Şavrov bununla bağlı olaraq yazırdı ki, 1828-1830-cu illərdə Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənisi erməni əhalisinin yox dərəcəsində olduğu Yelizavetpol və İrəvan quberniyalarında ən yaxşı torpaqlarda yerləşdirildilər, Yelizavetpol quberniyasının dağlıq hissəsi (indiki Dağlıq Qarabağ) və Göyçə gölünün sahilləri ermənilərlə məskunlaşdırıldı. O, daha sonra qeyd edirdi ki, Cənubi Qafqazda yaşayan 1 milyon 300 mindən artıq erməninin 1 milyondan çoxunun diyarın köklü sakinlərinə aidiyyatı yoxdur və onlar bizim tərəfimizdən köçürülərək yerləşdiriliblər (N.İ.Şavrov. "Güney Qafqazda rus işinin yeni təhlükəsi", səh. 59).

1836-cı ildə rusların köməyi ilə Azərbaycanda o zaman fəaliyyət göstərən Alban Patriarxal kilsəsinin ləğv olunaraq onun mülklərinin erməni Qriqoryan kilsəsinin tabeçiliyinə verilməsi üçün rus çarı I Nikolay xüsusi olaraq fərman da imzalamışdı. Bu hadisədən bir qədər sonra keçmiş Alban dövlətinin qərb əraziləri, daha dəqiq desək, Qarabağ regionunda ermənilərin XVIII əsrin sonlarından başlayaraq davam edən sıx məskunlaşmaları nəticəsində Alban dövlətçiliyi və dini Qarabağda müstəqilliyini itirdi və həmin yerlərin əhalisinin qriqoryanlaşdırılması, yəni ermənilərşdirilməsi prosesi başladı.

Bu hadisə Cənubi Qafqazda xristian dövrü mədəni dəyərlərinin məhv edilməsinə və ya ermənilərşdirilməsinə səbəb oldu. Belə ki, alban kilsələrindəki əlyazmaların erməni dilinə tərcümə edilərək orijinalları yandırıldı, kilsə və monastırların interyerindəki yazıların və bədii daş nümunələrinin formaları dəyişdirildi.

Bütün bu saxtakarlıqlara baxmayaraq Qafqaz Albaniyası dövrü abidələrinin əksəriyyəti Azərbaycanın bir cox ərazilərində oz ilkin formalarını qoruyaraq dövrümüzə qədər gəlib çatsa da, bu abidələr üzərində öz həqiqi tarixini əks etdirən heç bir yazı nümunəsi qalmamışdır. Buna misal olaraq Kəlbəcər rayonunda Xudavəng memarlıq kompleksi (XIII əsr),Talış kəndində Urek məbədi (1279-cu il), Vəng kəndində Gəncəsər məbədi (XIV əsr), Qozlu kəndində Xudavəng məbədi (1204-cu il), Lacın rayonunun Kosalar kəndindəki Ağoğlan məbədi (IV-IX əsrlər), Xocavənd rayonu Sos kəndindəki Amaras monastırı (IV əsr), Ağdərə ərazisindəki müqəddəs Yelisey məbədi, Ağdam rayonu Maqadiz kəndində Yegiş Arakel məbədi (XII əsr), Xocalı rayonunda Xansıx (1122), Xaçmaç (1100-cü il), Armudlu (1202-ci il) məbədləri, Xocavənd rayonu Tuğ kəndində Qırmızı məbəd (1000-ci il), Qərbi Azərbaycan ərazisində Haqapat məbədi, Qoşavəng məbədi, Dədəvəng məbədi, Ağtala məbədi, Ərcivəng məbədi, Tatev məbədi, Uzunlar məbədi, Yenivəng məbədi, Sənain məbədi alban memarlığının ermənilərşdirilən nümunələridir.

Albaniyada Şərq xristianlığına məxsus memarlığın bütün növləri mövcud olmuşdur. Qarabağdakı Alban xaç daşları bir sıra mühüm lokal cizgiləri bütün Alban yazılı daşlarının üzərində xristianlığa qədərki inanclar və kainat qüvvələrinin yerləşməsi ilə dini-bədii qanunlara tabe edilmiş özünəməxsus qrup təşkil edir. Alban xaçı xristianlığa qədərki inancların və kainatı dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrə malikdir. Onun bütün kompozisiyaları göylə yerin əlaqəsi, günəş, işıq və məhsuldarlıq simvolu kimi əks olunmuşdur (F.İsmayılov. Erməni xaçkarları: Mifologiya, yoxsa reallıq? http://news.milli.az/society/53714.html).

Alban dövrü memarlıq abidələrinin hətta xristianlığa qədərki dövrə aid daş və divar rəsmlərində və eləcə də süjet xarakterli oymalarda daha çox türkdilli xalqlara məxsus elementlərdən istifadə edilməsi hazırkı dövrdə bu abidələrin ermənilər tərəfindən daha çox zərər görməsinə səbəb olur. Birmənalı şəkildə ermənilər məskunlaşdıqları ərazilərdəki tarix və mədəniyyət abidələri üzərində türk ornamentlərinin və simvollarının olmasını qəbul etmirlər. Çünki onlar alban dövrü abidələrinin üzərindəki ornament və simvolları olduğu kimi qəbul etsələr, onda bu abidələrin ermənilərşdirilməsi mümkün olmazdı.

Azərbaycanın işğal altındakı ərazilərində xeyli sayda Alban dövrü sovməə və dairəvi məbədlər kimi memarlıq abidələri vardır ki, bu abidələr xristianlıq dövrünə qədər olan abidələr sayılır. Yəni bu abidələr xristian dinindən öncə inşa edildiyindən onların üzərində heç bir dini simvollar, dini inancları andıran atributlar yer almamışdır, çünki bu abidələr özlərinin nə memarlıq quruluşlarında, nə də tikinti üslublarında dini inancları əks etdirmir. Belə ki, dairəvi məbədlərin tikilməsi erkən xristianlıq dövrünə aiddir və tədqiqatçıların fikrincə, bu məbədlər günəşə ibadət edən albanlar tərəfindən, yəni hələ xristianlığın tam mənimsənilmədiyi

və səma cisimlərinə ibadətlə qarışdırıldığı dövrlərdə tikilib. Bu dövr memarlıq üslubunun bütün ornamentlərində atəşpərəstliyin təzahürləri, göy cisimlərinə ibadətin motivləri öz əksini tapır.

Xristianlığa qədərki alban dövrü memarlığının ən kütləvi formalarından biri də sovməələrdir. Sovməələr karvan yolları kənarında kicik ibadətgah rolunu oynasalar da, onlar əslində memorial tikililərdir. Bu ərazilərdə həm mehrabsız, həm də mehrablı sovməələrə təsadüf olunur. Bu sovməələrin divarları bir qayda olaraq, zəif naxışlara malik nişan daşlarıyla bəzədilir. Karvan yolları üzərində sovməələrin tikilməsində əsas məqsədlərdən biri də insanların səfər zamanı əziyyətli yolçuluqdan sonra dincəlib istirahət etmələrinə, soyuqdan və yağışdan qorunmalarına, axşama düşdükdə gecələmələrinə şərait yaratmaq idi. Bu tipli tikintilər ibadət üçün nəzərdə tutulmadığından, onların memarlıq quruluşlarında da müxtəliflik var idi.

Bu abidələrin ən möhtəşəm nümunələrindən biri, bəlkə də birincisi Laçın rayonunun Kosalar kəndi yaxınlığındakı IV əsrə aid edilən Ağoğlan məbədi hesab edilir. Alban dövrünün son dəbli tikintilərindən sayılan Ağoğlan qəsrinin IV əsrdə inşa edilməşi barədə xeyli tədqiqat materialları mövcud olsa da, bu abidə kompleksinin hələ xristianlığa qədərki dövrə aid olması barədə dəyərli sübutlar var. Məhz buna görə də mütəxəssislər bu abidə kompleksinin xristianlığa qədərki dövrə aid olan abidələr siyahısına daxil edilməsini vacib hesab edirlər. Abidə müxtəlif dövrlərdə uçqun və dağıntılara məruz qaldığından bu abidə yenidən inşa edilərək forma etibarı ilə monastır stilinə uyğunlaşdırılmışdır. Abidə təmir edilərkən özünün ilk bünövrələri olduğu kimi saxlanmış, hətta yan divarların da aşağıdan yuxarıya 1,5-2 metr hündürlükdə salamat və sağlam qalan hissəsinə toxunulmamış və bu köhnə divarlar üzərində yeni divarlar tikilmişdir. Bu Alban monastırının uzunluğu 25,6 metr, eni isə 12,5 metrdir.

Kompleksin ümumi daxili ərazisi isə iki hektara yaxın ərazini əhatə edir. Laçın rayonu ərazisində Ağoğlan qəsri Alban dövrü memarlığının ən möhtəşəm abidəsidir. Abidənin mərkəzi nefi qərbdən şərqə doğru şimal və cənub sütunlarla sıralandığından binaya böyük əzəmət və ecazkar gözəllik verir. Ermənilər 1992-ci ildə bu əraziləri işğal etdikdən sonra Ağoğlan qəsrini təmir etmək bəhanəsi ilə abidənin daxili interyerini ciddi dəyişikliyə uğratdılar. Belə ki, abidənin divarları üzərində

olan bir neçə daş yazını, eləcə də xeyli sayda alban dövrünə məxsus ornament və simvolları tamamilə məhv edib bir çoxunun isə formalarını dəyişdirdilər.

2006-cı ildə ABŞ-ın Kaliforniya ştatının kilsə xadimlərindən əldə edilmiş ianələr hesabına ermənilər bu abidəni bir daha təmir etmək bəhanəsi ilə abidənin divarlarının müxtəlif yerlərinə erməni qriqoryan dininə məxsusluğunu göstərən 26 daş yazı lövhəsi yerləşdirdilər. Kompleksin həyətinə sağ tərəfdən giriş qapısının yaxınlığında cərgə ilə 3 məzar daşı və kompleksin ümumi giriş qapısının önündə İrəvandan qırmızı bazalt daşdan yonulub gətirilmiş 2 ədəd xaçdaşı basdırdılar, binanın fasadını söküb dəyişərək, dəmir örtüklə əvəzlədilər. Beləliklə, bu abidə divarları üzərində göstərilən əvvəlki tarixindən və öz əzəli bənzərsiz daxili interyerindən və baxanları heyran qoyan gözəlliyindən də məhrum oldu. Ermənistan hökumətinin xüsusi tapşırığı ilə erməni yepiskopları 2007-ci ildə İrəvan şəhərində Ağoğlan qəsrini erməni kilsəsi elan etdilər.

107728

Hal-hazırda ermənilər işğal etdikləri Azərbaycan ərazilərində bütün alban dövrü abidələrinin hamısını erməni kilsələri kimi təqdim edirlər. Alban dövrünün bütün növdən olan tikintilərini "erməni kilsəsi" adlandıran ermənilər Dağlıq Qarabağda bunların sayının 175 olduğunu iddia edirlər. Halbuki 2 milyon əhalisi olan Sovet Ermənistanının bütün ərazilərində cəmi 2 erməni kilsəsi mövcud idi. Onda belə bir sual yaranır - necə ola bilər ki, cəmi 40 min erməni əhalisi olan Dağlıq Qarabağ ərazisində ibadət üçün bu qədər kilsə tikilsin?

31.05.2015-ci il tarixdə Ermənistanın "NovostiNK.ru" saytında Aşot Beqlaryan adlı birisinin "Мусульманские памятники в Нагорном Карабахе охраняются государством" adlı yazısında Qarabağda tətbiq olunan erməni vandallığı bütün çılpaqlığı ilə özünü göstərir. Yazıda 167 erməni kilsəsi, 8 monastır kompleksi, 2500 yüksək keyfiyyətli xaç daşı (bu daşlar son 20 ildə ermənilər tərəfindən inşa edilmişdir - F.İ), 10 min qəbirüstü epiqrafik yazılı daş və 33 min qədim qəbir daşının erməni mənşəli olduğu göstərilir. Halbuki, o dövrdə bu ərazilərdə bir nəfər də olsun erməni yaşamamışdır. Ermənilər son 20 ildə bu on min epiqrafik yazı nümunəsinin məzmununda dəyişiklik ediblər, onların bir çoxunu İrəvan şəhərinin Matenadaran meydanına aparıblar. Orada Ermənistanın qədim əlyazmalar saxlanan Matenadaran muzeyində 3437 nömrə ilə nömrələnmişdir. 33

Azərbaycan Milli Kitabxanası

min qədim qəbir daşının 1300-nün üzərində bu qəbirlərin ermənilərə məxsus olduğu barədə ifadələr yazıblar. Bütün bu vandallıqları ifşa etmək üçün Cənubi Qafqazda xristianlıq dövrü bazilika və monastırlarının tikinti quruluşunun öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Alban dövrünün ən mürəkkəb tikililəri bir qayda olaraq bazilikalar və monastırlar hesab olunur. Monastır və bazilikalar kilsə və sovməələrdən fərqli olaraq iki, üç və hətta dördnefli əzəmətli tikinti quruluşuna malik olur. Bu abidələr kütləvi tədbirlər və dini ibadətlər üçün nəzərdə tutulur. Bu abidələrin də tikinti üslubu və özünəməxsus xususiyyətləri şərq xristianlığı memarlığından kəskin şəkildə fərqlənirdi.

Qeyd etdiyimiz kimi, qədim Albaniyada şərq xristianlığına məxsus memarlığın bütün növləri inkişaf etmişdi. Lakin şərq memarlığına məxsus tikintilər sırasında Alban memarlığı özünəməxsusluğu ilə digərlərindən kəskin şəkildə fərqlənirdi. Alban xristianlığının ilk dövrü üçün kilsə tikintiləri xarakterik idi. Bu kilsələr uzunsov ibadət zalı olan birnefli məbədlərdən ibarət olmuşdur. Bu növ məbədlərin üstü ikiqatlı sadə daşlarla örtülürdü. Bu tipli tikintilər, adətən, inzibati yaşayış mərkəzlərində əhalinin ibadət etmələri üçün inşa edilirdi.

Albaniyada xristianlıq memarlığı üslubunda dairəvi məbədlər deyilən xüsusi memarlıq da yayılmışdı və bu memarlıq üslubu yalnız albanlara aiddir. Bunu bir çox tədqiqatçılar da təsdiq edirlər ki, bu üslub Cənubi Qafqazda yalnız albanlara məxsusdur. Çünki xristianlığa qədərki dövr Alban memarlıq abidələrinin daş və divarları üzərindəki elementlərə başqa millət və xalqların daş kitabələrində rast gəlinmir. İndiki dövrdə ermənilər bu abidələrin ermənilərə məxsus olduğunu iddia etsələr də, abidələrin memarlıq quruluşu, forma və ornamentlərinin düzülüşü ermənilərin yalan danışdıqlarını üzə çıxarır. Belə abidələrdən biri də Gəncəsər məbədidir.

Gəncəsər məbədi Kəlbəcər rayonunun Vəngli kəndində, Xaçınçayın sol sahilində yerləşən XIII əsr xristian alban monastırıdır. XIII əsrdən başlayaraq XIX əsrə qədər Gəncəsər monastırı Qafqaz Albaniyasının dini və mədəni mərkəzi olub. Hal - hazırda ermənilər bu abidənin ermənilərə məxsusluğu barədə çox ciddi işlər aparır, abidəni həm daxildən və həm də xaricdən çox ciddi dəyişikliyə məruz qoyurlar.

Hələ Sovet dövründə aparılan tədqiqatlar zamanı məbədin divarında daş üzərindəki epiqrafik yazıdan məlum olmuşdu ki, bu abidə "yüksək və böyük Arsax ölkəsinin hökmdarı, Alban geniş vilayətinin çarı, Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu Həsən Cəlal Dövlə və anası Xorişə Xatun tərəfindən 1216-1238-ci illərdə inşa edilmişdir". 1261-ci ildə monqol-tatar işğalçıları tərəfindən İranın Qəzvin şəhərində qətlə yetirilmiş Həsən Cəlal Dövləni oğlu knyaz Atabəy gətirib Gəncəsər məbədində dəfn etmişdir. Eyni zamanda Həsən Cəlalın nəslindən olan bir çox alban din xadimləri bu məbəd kompleksinin ərazisində dəfn olunmuşlar. Ermənilər tərəfindən Gəncəsər monastırının nəinki hasarlarında, eyni zamanda monastırın daxili interyerində də böyük sayda forma dəyişikliyi aparılıb. Belə ki, monastırın içərisindəki qəbir daşları sındırılaraq üzərindəki yazılar oxunmaz hala gətirilib. Divarlar daxildə yağlı boyalarla rənglənib və erməni dilində müxtəlif yazılarla "bəzənib" və s. Monastırın xarici divarları tamamilə mərmər pilitələrlə örtülüb. Bu hadisə hətta erməni ziyalılarının da ciddi narazılığına səbəb olub (https://az.wikipedia.org/wiki/Gəncəsər_monastırı).

Ermənistan Respublikasının 168 HOURS Analitik İnformasiya Agentliyinin verdiyi məlumata görə, 24 iyun 2013-cü il tarixində Ermənistanın 350 nəfər tanınmış ziyalısı və görkəmli adamları tərəfindən Azərbaycanın Kəlbəcər rayonunun Vəngli kəndindəki Gəncəsər monastır kompleksinin formasının dəyişdirilməsinə etiraz olaraq Ermənistan prezidenti Serj Sərkisyana, Qarabağdakı erməni icmasının rəhbəri, separatçı Bako Saakyana və Ümumerməni katalikosuna açıq məktub ünvanlayaraq hadisəni vandalizm aktı adlandırıblar.

Məktubda bildirilir ki, 2011-ci ilin yayında Rusiya vətəndaşı olan iş adamı Levon Hayrapetyan Dağlıq Qarabağa gələrək, Gəncəsər monastır kompleksinin hasarlarının üzərini mərmər daşlarla üzlənməsi işlərinə başlayıb. Burada erməni iş adamının məqsədi bu əraziyə daha çox turist cəlb etməklə gəlir götürmək olub. Bu özbaşınalıq bir çox mütərəqqi fikirli erməni ziyalılarının və ictimaiyyət nümayəndələrinin hiddətinə səbəb olaraq Ermənistanda böyük etiraz dalğası yaradıb. Bu etirazlar və müzakirələr nəticə etibarı ilə bir müddət monastırın hasarlanması işlərinin dayandırılmasına səbəb olsa da, tikinti işləri sonralar yenidən davam edib. Etirazçılar öz müraciətlərində yazırdılar:

"Bundan sonra Qarabağa gələn fiziki şəxslər, turistlər, tarixçilər, tədqiqatçı alimlər, yerli və beynəlxalq təşkilatların nümayəndələri və başqaları bu hasarlara daha XIII əsrin möhtəşəm abidəsi kimi yox, XXI əsrdə Levon Hayrapetyan tərəfindən "tikilmiş" çəpər kimi baxacaqlar. Cənab pre-

zident, niyə Gəncəsər monastır kompleksinin divarlarının üzlənmə işləri beynəlxalq hüquqla və müvafiq qanunlarla təmin edilmiş qaydada qadağan edilmir?... Niyə Gəncəsər monastır kompleksinin tarixini məhv edən təşəbbüslərə qarşı tədbirlər görülmür? Öz vandallıq hərəkətlərinə bəraət qazandırmaq üçün abidənin formasını dəyişənlərin heç bir tutarlı arqumenti yoxdur və ola da bilməz... Bu "xeyriyyəçiliyin" həyata keçirilməsinə kömək edən və ona dəstək olan Ermənistan hökumətinin rəhbər şəxsləri və dini liderləri doğrudanmı bilmirlər ki, Gəncəsər monastır kompleksi öz tarixi hasarının hər bir daşının mənası və dəyəri ilə bütov bir abidədir? Çünki burada söhbət YUNESKO-nun siyahısında olan tarixi-memarlıq abidəsindən gedir" - deyə, məktub müəllifləri bildiriblər.

Bu məktubu imzalayan Ermənistan ziyalılarının etirazı onların Azərbaycana olan sevgisindən deyil, tarixi bir memarlıq kompleksinin məhv edilməsindən qaynaqlanır. Hansı ki, bu tarixi abidəni onlar "erməni mədəniyyəti" nin bir nümunəsi hesab edirlər. Bu erməni düşüncəsinin fərqinə varmadan, demək olar ki, bu məktub işğal olunmuş Azərbaycan ərazilərindəki tarix və mədəniyyət abidələrinin ermənilər tərəfindən düşünülmüş şəkildə vandalizmə uğradılmasını sübut edən yüzlərlə faktlardan biridir.

İş icraçıları Gəncəsər monastırının ətrafındakı hasarların guya 1980-ci illərdə tikildiyini iddia edərək, bu divarları "bərpa" etdiklərini bildirirlər. Məktubda erməni millətçi və separatçılarının bu iddialarını etirazçılar rədd edərək yazırlar: "Bəyan edirik ki, Gəncəsər məbəd kompleksinin ətraf hasarının 1980-ci illərdə tikilmiş olması ilə bağlı bütün söhbətlər və iddialar abidənin formasını dəyişənlər tərəfindən uydurulmuşdur və həqiqətə uyğun deyildir. Çünki çoxsaylı fotoarxiv materialları, XIII-XX əsrlərdə yaşayan memarlar və mütəxəssislərin hamısı belə hesab edirlər ki, monastırın hasarları abidə inşa edildiyi dövrdə tikilib. Bu məlumatlara görə, ətraf hasarın cəmi üç girişi olub, onun şimal və şimal- şərq divarı isə indiyə qədər tarixdə məşhur səkkiz otağın arxa divarıdır".

Müxtəlif erməni saytlarında və mətbuat səhifələrində 1995-2010-cu illər ərzində monastırın ətraf hasarlarında və əsas binanın divarlarında aparılmış təmir işləri aydın olmayan və məntiqsiz məlumatlarla təhrif olunmuş halda təqdim olunur. Hətta fikir bildirilir ki, son 15 il ərzində hasar bir neçə dəfə, keyfiyyətsiz, qeyri-professional təmir olunub. Bu cür qeyri-peşəkar yanaşmalar isə göstərir ki, Gəncəsər monastırının taleyi

təhlükə altındadır və abidəni şübhəli məqsədlər izləyir. Kompleksdə kilsə memarlığının ideya və normalarını inkar edən, kompleksin görkəminə və təyinatına ciddi xətər yetirən yeni fəaliyyətlər və tikililər həyata keçirilir.

Bütün bunlardan əlavə, Gəncəsər monastırının ətrafındakı qəbiristanlıqlar sökülərək yerində şübhəli məqsəd güdən bina tikilib. O binanı hələlik "düşərgə" adlandırırlar, hansı ki, bu da müqəddəs yer üçün arzuolunmazdır. Bu fəaliyyət Gəncəsər monastırının əsrlər boyu müqəddəs yer olmasının və qorunmasının məna və ideyasına hörmət olunmaması, üstəlik təhqir olunması deməkdir.

"Daşınmaz tarixi və mədəniyyət abidələrinin qorunması və istifadəsi haqqında" 1953-cü il Haaqa Konvensiyasının tələbi Gəncəsərin ətraf hasarının üzlənməsinə və ya abidənin ilkin tarixi strukturunda və tarixən formalaşmış görünüşündə hansısa dəyişikliyə icazə vermir. Dünyada heç bir yer, heç bir tarixi abidə mərmərlə üzlənmir. Gəncəsər məbədinin hasarının və digər binaların mərmər daşlarla üzlənməsi ümumiyyətlə icazəverilməzdir və üzlənmə divarı möhkəmlətmir, əksinə, üzlənmə ilə divar daha da ağırlaşır və zədələnir. Monastırın hasarının şimal-qərb divarının bir hissəsi hamar yonulmuş daş üzlüklərlə üzlənib. Bu isə orta əsr memarlığına uyğun gəlmir və bununla da kompleksin tarixi-mədəni dəyərinə və əhəmiyyətinə xələl gəlir, abidənin çoxəsrlik görünüşü pozulur. Bu abidənin təmiri beynəlxalq qaydalara ziddiyyət təşkil edir.

Məktub müəllifləri daha sonra prezident və katolikosa yazırlar: "Yuxarıda qeyd olunanları milli-dövlət problemi hesab edirik, başqa çıxış yolu olmadığından bu məsələnin yalnız sizin müdaxiləniz şəraitində həll ediləcəyini gözləyirik. Hər birimiz bir erməni kimi ölkənin daxili və xarici siyasəti və milli təhlükəsizlik problemi ilə birbaşa bağlı olan dünya əhəmiyyətli erməni milli dəyərlərini və dini ibadətgahlarımızı fədakarlıqla müdafiə etməyə borcluyuq".

Lakin burada erməni ziyalılar "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının norma və prinsiplərinin pozulmasını, "Bir dövlət digər bir dövlətin ərazisini işğal edərkən münaqişə zonasında olan tarix və mədəniyyət abidələrinin mühafizə edilməsini" qulaqardına vururlar. Bu məktubla onlar bilərəkdənmi, ya bilməyərəkdənmi, işğal altında saxladıqları Azərbaycana

məxsus Gəncəsər monastır kompleksinin ermənilərdirildiyini və Azərbaycan ərazilərinin həqiqətən də işğal altında olduğunu bəyan edirlər. Beynəlxalq hüquqi sənədlərdə qəbul olunan qaydalara uyğun olaraq mühafizə edilməli bütün tarixi - mədəniyyət abidələri bizə gəlib çatdığı kimi qorunmalıdır, bizim hər birimizin borcudur ki, abidəni gələcək nəsillərimizə öz əzəli forma və görünüşü ilə çatdıraq.

Erməni etirazçılar məktubu bu sətirlərlə bitirirlər: "Sizdən xahiş edirik ki, Gəncəsər monastır kompleksinin hasarlarının zaman-zaman hissə-hissə üzlənməsi işlərini qəti şəkildə qadağan edəsiniz. Xahiş edirik ki, mütəxəssis arxeoloqları, geofizikləri, seysmoloqları, bərpaçı memarları və inşaatçıları, tarixçiləri, abidəşünasları dəvət edərək onlara monastırın ətraf divarının üzlənmiş hissəsinin ləğv edilməsini-sökülməsini təhkim edəsiniz ki, abidə bir erməni milli tarixi dəyəri kimi öz əvvəlki tarixi görkəminə və təyinatına qaytarılsın". Bu məktubun cavabını gözləyirik - deyə, qeyd edən müəlliflərin siyahısında

1. Mkrtıç Minasyan - Ermənistan Respublikasının əməkdar memarı
2. Aleksandr Badalyan -memar, Prezident mükafatçısı
3. Saşur Kalaşyan - Ermənistan Respublikasının əməkdar memarı
4. Sarkis Qurzadyan - Ermənistan Respublikasının əməkdar memarı
5. Boris Koçaryan - memar
6. Ruzanna Mamyan- memar
7. Qurgen Muşeqyan - memar, professor
8. Robert Aydınyan- memar
9. Aşot Kanayan - memar, professor
10. Artyom Qrikoryan- memar, professordan başqa, daha 340 nəfərin imzası var.

Azərbaycanın işğal altındakı ərazilərində Ermənistan hökuməti müxtəlif bəhanələrlə məqsədli şəkildə xristianlıq dövrü abidələrinin üzərindəki ornamentləri, elementləri və digər yazı nümunələrini dəyişərək saxtalaşdırır ki, bu da kütləvi şəkildə Alban dövrü abidələrinin ilkin görkəminin itirilməsinə və Alban mədəniyyətinin tədricən məhv edilərək tarixdən silinməsinə səbəb olur. Cənubi Qafqazda, xüsusən də işğal altındakı Azərbaycan torpaqlarında tarixi kökə və mədəniyyətə malik olmayan ermənilər süni şəkildə belə iyrənc yollarla özlərinə tarix yaradıb dünyanı inandırmağa çalışırlar ki, onlar bu torpaqların əzəli və əbədi sakinləridirlər.



Ermənilər Qarabağın bütün ərazilərinə xaçdaşları düzürlər



Ermənilər tərəfindən Agdamın Şahbulaq Qalası üzərinə xaç işarəsi qoyulub

Kəlbəcər rayonu. Gəncəsər məbədi qanunsuz üzləmə işləri aparılır

Azərbaycanın işğal olunmuş ərazilərində tarix və mədəniyyət abidələrinə ermənilər tərəfindən vurulan zərər barədə məlumat

Laçın



Laçın rayonu, Fərəcan kəndindəki sınıqkörpünün sxem planı

Laçın rayonu ərazisində dünya memarlığının nadir inciləri olan tarixi abidələr xüsusi yer tutur. İşğal zamanı Cicimli, Güləbird, Zeyvə, Malıbəy, Bülövlük, Araflı, Alqulu, Malxələf, Soltanlar, Hüsüllü, Kosalar, Seyidlər, Pircahan, Minkənd, Kürdhacı kəndlərində və Laçın şəhərində daşdan

yonulmuş 12 qoç fiquru, 28 at fiquru, 36 müxtəlif süjetli yazı və rəsmlər olan sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən fiqurlar, sənət rəmzləri həkk olunmuş qəbirüstü daşlar və Yaxşı ananın (Azərbaycanın bayatı janrının banisi Sarı Aşığın sevgilisi) məzarı orada qalmışdır.

Cicimlidə məbəd, qədim anbar, Güləbirtdə Sarı Aşığın qəbirüstü ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, Soltanbaba, Minkənddə XV əsr məbədi, Kosalarda IX əsrin Ağoğlan məbədi və qəsri, Qanqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalında yerləşən qədim Fətəlipəyədə alban məbədi, Picənisdə Alban məbədi, Hüsülü kəndindəki Xan qəbiristanlığında Zəngəzurun sultanları Qara Murtuza bəyin, 1-ci Almənmədin, 2-ci Almənmədin türbələri, Şeyx Şamillə dostluq etmiş, ona köməklik göstərmiş Cəbrayıl bəyin türbəsi, Bülövlükdə Qaratel Paşabəy qızının mərmər türbəsi, Laçın şəhərində N.Nərimanovun heykəli, ana və uşaq heykəli, adsız heykəl, çoban heykəli, II Dünya müharibəsində həlak olanlar üçün kompleks abidə, şəhər qəbiristanlığında xeyli qəbirüstü bütlər, Araflıda Murtuza Sultanın anasının türbəsi, Pircahan çayında Məşədi Mehralın körpüsü və xeyli bulaqüstü abidələrin bugünkü aqibəti sual altındadır.

Bütün qeydə alınmış və alınmamış tarixi memarlıq inciləri ermənilər tərəfindən dağıdılır və yaxud özününküləşdirilərək dünyaya erməni abidəsi kimi təqdim edilir.

Memarlıq abidələrindən Hoçaz kəndində mağara-məbəd (V əsr), Cicimli kəndində Məlik Əjdər türbəsi (XIV əsr), adsız türbə (XVII-XVIII əsrlər), Zeyvə kəndində Kafir qalası (XVII əsr), Sultanbaba türbəsi, Şeyx Əhməd türbəsi, adsız türbə (XIX əsr), Qanqışlaq kəndində məscid (1718-ci il), Hüsülü kəndində Həmzə Sultan sarayı (1761-ci il), Həkəri çayı üzərində körpü (XVIII əsr), Kosalar kəndindəki Ağoğlan məbədi (XIX əsr), Güləbird kəndində türbə işğal ərazisində qalmışdır.



Laçın rayonu Hoçaz kəndi. İlk insan məskəni, I - II əsr

Laçln rayonu Quşçu kəndi,Bulaq 1895-ci il, erməni işğalından sonra

S/S	Abidələrin adları	Sayı
1.	Qədim körpülər	10
2.	Qəsrlər	2
3.	Saraylar	2
4.	Türbələr	10
5.	Məscid	5
6.	Sovməə	10
7.	Bulaq	6
8.	Qədim qəbiristanlıq	7
9.	Kurqan	6
10.	Daş qutu	1
11.	Daş at və qoç fiqurları	10
12.	İkinci Dünya müharibəsində həlak	1
13.	Sovet İttifaqı qəhrəmanı Əvəz	1
14.	Sarı Aşığın xatirə muzeyi	1
15.	Laçın Tarix-Diyarşünaslıq Muzeyi	1
16.	Şəki qalereyası	1
Cəmi		**73**

Laçın rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 10 752 000 000

Kəlbəcər



Kəlbəcər rayonu Tərtər çayı üzərindəki körpü

Kəlbəcər rayonunun Vəngli kəndində məşhur Gəncəsər alban məbədi, Xanbert qalası, Hermuk qalası, kilsə, Kolatağ kəndində tikilmə tarixi 635-ci ilə aid edilən memarlıq abidələri yerləşir.

Talış kəndi yaxınlığında, Urek məbədi (XII əsr), Tərtər çayının yuxarı axınında məbəd (XIII əsr), Qasapert kəndində Hatəm Məlik qalası, Madagiz kəndində Yegiş Arakel məbədi (XII əsr), körpü və s. qalmışdır. Oradakı Qafqaz alban sülalələrini və katolikoslarının son iqamətgahı olan məşhur Qanzasar məbədinin əsası 1240-cı ildə Həsən Cəlal tərəfindən qoyulmuşdur. Sonuncu Gəncəsər alban məbədi 1837-ci ildən etibarən erməni katolikosluğuna tabe edilmişdir.

Kəlbəcər rayonunun memarlıq abidələrindən Tərtər çayının başlanğıcındakı Xudabənt məbədi (XIII-XV əsrlər) qalmışdır.

S/S	Abidələrin adları	Sayı
1.	Alban məbədləri	11
2.	Yerli əhəmiyyətli körpülər	5
3.	Qala	2
4.	Məscid	3
5.	Pir, ziyarətgah, ocaqlar	5
6.	Daşdan yonulmuş qoyun və at təsvirli başdaşları	6

7.	Daş at və qoç heykəlləri	10
8.	Məbədlər	17
9.	Qalalar	3
10.	İkinci Dünya müharibəsinə aid abidə	1
11.	Mağara düşərgəsi	1
12.	Tarix-diyarşünaslıq muzeyi	1
13.	Monumental xatirə abidəsi	1
14.	Qayaüstü təsvirlər	17
15.	Yaşayış yeri	1
16.	Nekropol	2
17.	Qəbiristanlıq	4
18.	Şəhərgah	1
Cəmi		**70**

Kəlbəcər rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 14 382 960 000 $

Kəlbəcər rayonu, Xudavəng monastır kompleksi.VI-VII əsr



Kəlbəcər rayonu. Tərtər çayı üzərində körpü

Kəbəcər rayonu Tərtər çayı

Qubadlı



Qubadlı rayonundakı Lalazar körpüsünün baş planı



Qubadlı rayonu Muradxanlı kəndində "Qalalı mağarası" və Əliquluuşağı kəndində bulaq-abidə kompleksi də ən qədim təbiət abidələrindən hesab olunurdu. Qubadlı şəhərində Mahmudlu, Qayalı, Məlik Əhmədli, Ləpəxeyranlı, Avdalanlı, Xıdırlı, Balahəsənli, Armudluq və Qədili kəndləri ətrafındakı təbii qayalar heykəlləşmiş məğrur cəngavərlərə bənzəyirdi.



Poladlı kəndinin qarşısındakı Kəmərə qaya, Alaqaya və onların ətrafındakı nəhəng daşlardan düzülmüş sədd "Pir-Şirin" bulaq-qaya kompleksi, Avdalanlı dərəsindəki "Damcı bulaq" ən gözəl təbiət guşələri idi. Başarat kəndi ərazisindəki "Topağac" mənzərəsi əfsanəvi cənnəti xatırladırdı.

S/S	Abidələrin adları	Sayı
1.	Mağara məbədi	2
2.	Məbəd	1
3.	Məscid	8
4.	Mağara-ibadətgah	1
5.	Alban məbədi	1
6.	Türbə	7
7.	Ocaqlar və pirlər	10
8.	İmamzadə	2
9.	Sığınacaq	4
10.	Qalalar	6
11.	Bulaqlar	9
12.	Qədim qəbiristanlıq	2
13.	Abidə	1
14.	At və qoç heykəlləri	10
15.	Daş sandıq və daş sənduqə	5
16.	Yaşayış yeri	2
Cəmi		**67**

Qubadlı rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 7 980 000 000 $

Cəbrayıl



Cəbrayıl rayondakı 2-ci Xudafərin körpüsünün baş planı



Cəbrayıl rayonunun memarlıq abidələrindən Cəbrayıl şəhərində Sultan Allahverdi hamamı, Xudayarlı kəndində dairəvi və səkkizguşəli türbələr (hər ikisi XIX əsr), Şıxlar kəndində dairəvi türbə (XIV əsr), Araz çayı üzərində məşhur Xudafərin körpüləri və s. mühafizə olunurdu.

Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli qədim tariximizi özündə əks etdirən tarixi memarlıq abidələri, geniş sahələri əhatə edən qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, əhalinin uzun illər faydalandığı yerli tikinti materialları, özünün qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus ekosisteminin işğaladək qoruyub saxladığı əsrarəngiz təbiət guşələri, mineral maddələrlə zəngin əvəzedilməz içməli su mənbələri erməni işğalçıları tərəfindən dağıdılmış və məhv edilmişdir.

Cəbrayıl şəhərinin şimalında Alpaşa dağında yeləşən "Cəbrayıl ata" türbəsi keçmiş Cəbrayıl kəndinin təməlini qoymuş Cəbrayıl atanın qəbri üzərində tikilmişdir. Bu, VIII-IX əsrə aid uzunluğu 4,5 m, eni 2,4 m, hündürlüyü 1,8 m, üzərində heç bir epiqrafik yazı olmayan alman türbəsidir. İşğala qədər tikildiyi formada qalmışdı. İşğaldan sonra isə dağıdılması haqqında məlumatlar alınmışdır.

Müşahidə və düşmən hücumundan uzun müddət müdafiə olunmaq məqsədilə Araz çayının sol sahilində Diridağın üzərində XII-XIII əsrlərdə "Qız qalası" və IV-VI əsrə aid edilən, 500 kv.m. ərazini əhatə edən Şirik qalası mənfur erməni siyasətinin qurbanı olmuşdur. Şahidlərin və əsirlikdən qayıtmış girovların söylədiklərinə görə, hər iki qala tamamilə dağıdılmışdır. Araz çayı üzərində biri 11, digəri 15 aşırımlı Xüdafərin körpüləri Azərbaycan memarlığının əvəzedilməz incilərindəndir. Birinci körpünün uzunluğu 130, eni 6 hündürlüyü 12 m-dir. İkinci körpünün uzunluğu 200, eni 4,5, hündürlüyü 10 m-dir. Körpülər bir-birindən 800 m aralıdır.

Min illərin təsirinə sinə gərmiş müstəsna mühəndislik qabiliyyətini özündə əks etdirən, işğaladək öz bütövlüyünü saxlayan bu körpülər də müharibənin gedişində bir sıra uçuntulara məruz qalmışdır.

İran tərəfdən baxılan görüntülərdə Arazın sol sahilində olan Cəbrayıl rayonunun kəndlərindən əsər-əlamət belə yoxdur. Yaşıllıqlara qərq olan kəndlər xarabalığa bənzəyir. Cəbrayıl rayonunun dağ zonası kəndində yerləşən XIII-XIV əsrlərə aid edilən günbəzin üstü açıq olduğuna görə "Başıkəsik günbəz" deyilən abidənin hündürlüyü 12 m-ə,

diametri 4 m-ə çatır. Müharibədən qabaq günbəz bərpa edilmişdi. İşğalçılar tərəfindən günbəzin divarları bir neçə yerdən dağıdılmışdır. Cəbrayıl rayonunun Şıxlar kəndinin yaxınlığında eyni üslubda XIV əsrdə tikilmiş Şıxlar türbəsinin hündürlüyü 8 m-ə, diametri 6 m-ə yaxındır. Günbəzin yuxarı hissəsinin də ermənilər tərəfindən sonradan dağıdılması faktları vardır. Cəbrayıl şəhərinin şimalında memarlıq üslubuna görə orta əsr tarixində özünəməxsus yer tutan XV əsrə aid "Dairəvi türbə", XVI əsrə aid səkkizguşəli türbə xüsusi briqada tərəfindən müharibədən əvvəl tam bərpa olunmuşdu. Şahidlərin verdiyi məlumata görə, bu abidələr də işğalçılar tərəfindən yerlə-yeksan edilmişdir. Rayonun Çələbilər ərazisində XVI əsrə aid olan Məhəmməd ibn-Hacı Qaraman Əhmədli tərəfindən 1678-ci ildə tikilmiş əzəmətli bir məscidmədrəsə var idi. Bu mədrəsədə böyük alimlər, din xadimləri, XVIII əsr Azərbaycan şairi Molla Vəli Vidadi dərs demişdilər. Məscid xüsusi hücrələrdən, dərs otaqlarından ibarət olmaqla, özünəməxsus kompleks təşkil edirdi. Müharibədən əvvəl tam bərpa olunmuş və dövlət tərəfindən xüsusi mühafizəyə alınmışdı. İşğaldan sonra bu kompleks dağıdılmış, bərbad vəziyyətə salınmışdır.

Rayonun Dağtumas kəndindən 2 km şərqdə, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşən, uzunluğu 30 m olan "Divlər sarayı" adlanan mağara dövlət tərəfindən uzun illər mühafizə olunmuşdur.

S/S	Abidələrin adları	Sayı
1.	Məqbərə	2
2.	Məscid	8
3.	Türbələr	3
4.	Xanəgah	2
5.	Pir, ocaq və ziyarətgahlar	35
6.	"Divlər sarayı"	1
7.	Siklop tikililər	1
8.	Kurqanlar	8
9.	Şəhərcik qalıqları, qışlaq yerləri	1

10.	Xudafərin körpüsü (11 və 15 aşırımlı)	2
11.	Kəhriz	4
12	Qala bürcü	1
13.	Qala	3
14.	Günbəz	1
15.	Təpə	4
16.	Mağara	2
17.	Yaşayış yeri	9
18.	Hamam	1
19.	Qədim qəbiristanlıq	5
Cəmi		**93**

Cəbrayıl rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 7 575 700 000 $

Zəngilan

Bölgənin tarixinin qədimliyini qalalar, müşahidə məntəqələri, arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət abidələri və nümunələri, qədim sikkələr və məişət qabları sübut edir. Rayon ərazisində 60-70-ci illərdə təsərrüfat işləri zamanı xeyli küp qəbirlər aşkar edilmişdir.

XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixin 15-ci ilində, yəni 636-cı ildə qoyulub.

Bu bölgədə tarixin müxtəlif səhifələrini əks etdirən misilsiz memarlıq abidələri vardır. Zəngilan rayonu öz coğrafi mövqeyinə, tarixi qədimliyinə görə heyrətamiz abidələr məskənidir.

Zəngilan şəhərindən 8 km aralı, Əsgülüm dağında 30 m hündürlüyündə, 150 metr enində "Qala" divarları III-V əsrdə tikilmiş müdafiə əhəmiyyəti kəsb edən tarixi abidələrdən biridir. Həmin "Qala"dan 2000 metr aralıda olan və içərisində 100-150 nəfər gizlənə bilən

Zəngilan rayonunun Məmmədbəyli kəndindəki türbə

"Kuful" deyilən daş yanığı uzaq tarixi keçmişimizdən yadigardır. Bu "Kuful"un hündürlüyü 15 metrdən çoxdur. Rayonun Məmmədbəyli və Babaylı kəndlərində olan türbələr, Şərifan kəndində olan qədim abidələr, hələ tədqiq edilməmiş naməlum tarixə malik batmış yeraltı qədim Şəhri-Şərifan şəhəri tariximizin açılmamış səhifələrindəndir.

Zəngilan rayonundakı memarlıq abidələrindən Hacallı kəndində dairəvi bürc, Məmmədbəyli kəndində səkkizguşəli türbə (1304-1305-ci illər), Şərifan kəndində sərdabə (XIII əsr), Yenikənddə sərdabə (XIV əsr) mühafizə olunurdu.

S/S	Abidələrin adları	Sayı
1.	Türbə	6
2.	Alban məbədi	2
3.	Məscid	5
4.	Sərdabə	2
5.	Dairəvi bürc	1
6.	Ocaq və pirlər	14
7.	Şəhid Məhəmməd yeri	1
8.	Küp qəbirlər	10
9.	Koroğlu daşı	1
10.	Qız qalası	2
11.	Tağlı körpü	1
12.	Qüllələr	2
13.	Yaşayış yeri	3
14.	Nekropol	1
15.	Qalalar	4
16.	Daşüstü park	1
Cəmi		**56**

Zəngilan rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 3 008 690 000 $

Füzuli







Qarğabazar karvansarayının planı və kəsiyi

Rayonun Əhmədbəyli və Böyük Bəhmənli kəndlərinin arasında yerləşən Kültəpə, Böyük Bəhmənli kəndində yerləşən Üçtəpə kurqanları və bu kurqanların ətrafında qədim yaşayış məntəqələrinin, o cümlədən Alban şəhəri və Bəhmən şəhərinin qalıqları aşkarlanıb. Tarixçilərin sözlərinə görə, ərazidə qədim dövrlərdən etibarən türklərin məskunlaşmasına dair faktlar var. Bu faktlar həm toponimlər, həm də bu xalqlara məxsus spesifik abidələrlə sübuta yetirilib. Maraqlıdır ki, bu ərazilərdə xristianlığa qədərki dövrü əhatə edən qəbir-kurqanlar daha çoxdur. Məhz bu kurqanlar erməni alimlərinin ciddicəhdlə ərazidə tarix boyu ermənilərin yaşaması barədə olan iddialarını alt-üst edir.

Qüdrət İsmayılov "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri" kitabında qeyd edir ki, 1972-ci ilin tədqiqat mövsümündə Qarabulaq nekropolunda axtarış aparılarkən qismən dağıdılmış bir qəbir də tapılmışdır. Tədqiqat zamanı müəyyənləşdirilmişdir ki, bu, Tunc dövrünün sonu, Dəmir dövrünün əvvəllərinə aid torpaq qəbirdir. Böyük Bəhmənli kəndi ərazisində yerləşən Üçtəpə abidəsinin tarixi bizim eradan əvvəl birinci minilliyə dayanır. Qədim türkdilli xalqlardan birinə aid edilən bu kurqanların ətrafında aparılmış qazıntılar za-

manı qara gildən düzəldilmiş məişət qabları, həmçinin dəvəgözü daşından müxtəlif əşyalar aşkarlanıb. Ətrafında vaxtı ilə yaşayış məntəqəsi və Alban şəhərinin olduğu iddia edilən bu kurqanların sayının daha çox olduğu söylənilir.

Füzuli rayonunda memarlıq abidələrindən Əhmədalılar türbəsi, Babi türbəsi, Mirəli türbəsi, Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), Qarğabazar kəndində Hacı Qiyasəddin məscidi (1682), Karvansara (1684), türbə (XVIII əsr), Qoçəhmədli kəndində məscid, Qarğabazar kəndində XVII əsr karvansarayı, Qarğabazar kəndində XVII əsr məscid binası, Qarğabazar kəndində XVIII əsr Cəlil türbəsi, Aşağı Veysəlli kəndində XIII əsr Mirali türbəsi, Qoçəhmədli kəndində XVIII əsr məscid binası, Qoçəhmədli kəndində XVIII əsr yaşayış binası, Horadiz kəndində XIX əsr məscid binası, Horadiz kəndində XIX əsr İmamzadə türbəsi, Füzuli şəhərində XIX əsr məscid binası, Aşağı Aybasandı kəndində XVIII əsr İbrahim türbəsi, Qacar kəndində XIX əsr məscid binası, Böyük Pirəhmədli kəndində XIX əsr məscid binası, Merdinli kəndində XIX əsr məscid binası, Saracıq və Gorazıllı kəndlərindəki XIX əsr körpüləri (Alı körpüsü, Kərəm körpüsü), Aşağı Veysəlli kəndində XII əsr qəbiristanlığı, işğaldan azad edilmiş ərazidə mövcud olan mədəniyyət və dini abidələr, Babi kəndində XIII əsr Şeyx Babi Yaqub türbəsi, Əhmədalılar kəndində XIII əsr Arqalı türbəsi, Böyük Bəhmənli kəndində XIX əsr məscid binası və s. göstərilə bilər.

S/S	Abidələrin adları	Sayı
1.	Tarixi inzibati bina	2
2.	Kurqan çölü	1
3.	Yaşayış yeri	9
4.	Kəhriz	9
5.	Türbə	6
6.	Karvansaray	1
7.	Müəllimlər evi	1
8.	Hamam	1
9.	Bulaq	5
10.	Məscid	19
11.	Dəyirman	1
12.	Körpü	10
13.	Imamzadə	1
14.	Ev	1
15.	Heykəl	1
16.	Abidə	2
17	Büst	1
Cəmi		**71**

Zəngilan rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 3 825 160 000 $

Ağdam



Ağdam rayonu Xındırıstan kəndi ərazisindəki körpünün planı

Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. "Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər.

Ağdam rayonunda çoxlu sayda memarlıq abidələri var: Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələri (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şahbulaq qalası və s.

Tanınmış arxeoloq İdeal Nərimanovun Üçoğlantəpə deyilən yerdə apardığı arxeoloji tədqiqatlar zamanı aydın oldu ki, ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni, Eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamış, qədim

əkinçilik və maldarlıq mədəniyyətinə bələd olmuşlar. Alim rayonun digər ərazilərində qədim yaşayış məskəni olmuş Leylatəpə və Üzərliktəpə deyilən yerlərdə apardığı arxeoloji tədqiqatlar zamanı Eneolit və orta Tunc dövrünə aid (e.ə. II minilliyin birinci yarısı) dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrə aid maddi-mənəvi abidələr aşkar edib. Buradan tapılan taxıl və üzüm dənələri bir daha sübut etmişdir ki, yerli əhali oturaq həyat keçirmiş və yüksək əkinçilik mədəniyyətinə malik olmuşdur.

S/S	Abidələrin adları	Sayı
1.	Yaşayış yeri	59
2.	Nekropol	4
3.	Kurqan	24
4.	Yaşayış yeri və nekropol	2
5.	Yaşayış yeri və kurqan	12
6.	Pənah xanın imarəti	1
7.	Türbə	10
8.	Sərdabə	1
9.	Körpü	1
10.	Qalalar	1
11.	Məscid	4
12.	İqamətgah	1
13.	Karvansaray	1
14.	Bürc	1
15.	Məbəd	4
16.	Şəhərgah	1
17.	Qəbiristanlıq	2
18.	Kurqan gölü	1
19.	Qəbirüstü abidə	6
20	Xatirə muzeyi	2
21	Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə abidə	1
22.	Çörək muzeyi	1
Cəmi		**140**

Ağdam rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 19 603 920 000 $

Ağdam Monumental heykəl işğaldan əvvəl



Aqdam Monumental heykəl işğaldan sonra.

Arxeoloqlar Üzərliktəpədə apardıqları tədqiqatlar nəticəsində tapılan maddi-mədəniyyət qalıqlarına əsaslanaraq qeyd edirlər ki, bura Qafqazda ilk şəhər tipli yaşayış məskəni və Zaqafqaziyada ən zəngin abidələri olan yerlərdən biri olmuşdur. 80-ci illərin ortalarında rayonun Sarıçoban kəndi yaxınlığında son Tunc və Dəmir dövrünə aid (e.ə. XIX-XIII əsrləri əhatə edir) möhtəşəm kurqan tarixi cəhətdən çox qiymətli bir abidədir. Kurqanda aşkar edilən e.ə. XII-XIII əsrlərə aid maddi tapıntılar bu abidənin varlı bir insanın qəbri olduğundan xəbər verir. Bu isə həmin dövrdə Azərbaycanda ibtidai icma quruluşunun dağılaraq sosial və əmək bərabərsizliyinin yaranmasına ən yaxşı əyani sübutdur.

Qədim mənbələrin verdiyi məlumata görə, qədim Albaniya ərazisində 26 tayfa var idi ki, onlardan biri yüksək mədəniyyətə malik olan Qarqarlar Ağdam ərazisindəki Qarqar çayı boyunca məskunlaşmışlar. Bu isə Ağdamın Azərbaycan ərazisində formalaşan dövlət quruculuğunda mühüm rol oynadığını bir daha əyani sübut edir.

Xocavənd





Xocavənd rayonu, Hadrud qəsəbəsi ərazisində körpü

Xocavənd rayonu ərazisində Salakətin kəndinin yaxınlığında (Quruçay vadisində) 1,5 milyon il yaşı olan Azıx mağarası, həmçinin qədim tarixə malik Tağlar mağarası, Tuğ kəndi ərazisində yerləşən V-VIII əsrlərə aid "Ritiş" qalası, Ərgünəş dağının yamacında sıldırım qayalar üzərində yerləşən "Ərgünəş" qalası, Düdükçü kəndi ətrafında XIII əsrə aid "Rzaqulu Bəy" türbəsi, Xocavənd kəndi yaxınlığında "Aşıqlı Qoşa" günbəzi, Böyük Tağlar kəndində "Alban" məbədi (1241-ci il), Tuğ kəndindəki "Qırmızı" məbəd, X əsrə aid tarixi memarlıq və incəsənət abidələri və s. var.

Erməni təcavüzü nəticəsində rayonun dağıntıya məruz qalmış mədəni və dini abidələrinə nümunə olaraq Tuğ kəndinin 5 kilometrliyindəki V əsrə aid Alban məbədi, I-V əsrlərə aid Alban qəbiristanlıqları, Salakətin kəndi ərazisindəki Dəmirov və Dağdağan ocaqları, Xocavənd kəndi ərazisində yerləşən Cicim ocağı, Qaradağlı kəndinin ərazisində qeydə alınan və III-VI əsrlərə aid olan Alban qəbiristanlıqları, Əmirallar kəndi yaxınlığındakı (keçmiş Bəhrəmli kəndi ərazisində) Bəhrəmli piri, Muğanlı kəndində yerləşən Seyid Rza günbəzi, Qaradağlı kəndi ərazisindəki Yel piri və neçə-neçə qiymətli maddi-memarlıq abidələrini göstərmək olar. Xocavənd torpağı ölkəmizə çoxlu sayda tanınmış siyasətçilər, mədəniyyət xadimləri, rəssamlar, şairlər, yazıçılar, jurnalistlər, müğənnilər, idmançılar, sərkərdələr, igidlər bəxş etmişdir.

Xocavənd toponimi 2 hissədən - "Xoca" sözü türk dilində "müəllim, öyrətmən" və "vənd" komponenti isə İran dillərində "uşağı, nəsli, törəməsi" mənasını daşıyır.

S/S	Abidələrin adları	Sayı
1.	Alban məbədi	18
2.	Albanberd məbədi	2
3.	Amaras məbədi	1
4.	Məbəd	37
5.	Günbəz	4
6	Məscid	3
7.	Pir və ocaqlar	9
8.	Türbələr	4
9.	Qalalar	5
10	Mağara	2

11.	Yaşayış yeri	1
12.	Nekropol	1
13.	Dini kompleks	1
14.	Sərdabə	1
15.	Azıx mağarası	1
16.	Qala	3
Cəmi		**93**

Xocavənd rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 4 711 600 000 $

Şuşa



Şuşa şəhərindəki balkonlu yaşayış evlərinin baş planı. XVIII - XIX əsrlər



Şuşada 350 hektarlıq qoruq zonasında 300 tarixi abidə, 550 qədim yaşayış binası, 870 m uzunluğunda bərpa olunmuş qala divarları vardı. Tarixi abidələrdən 23-ü respublika və dünya əhəmiyyətli abidələrə aid idi. Şuşada milli abidələrin çoxluğu, onların rəngarənglik baxımından fərqlənməsi haqlı olaraq şəhərin "mədəniyyətimizin ən zəngin beşiyi" adlandırılmasına səbəb olmuşdur. Bu abidələrin çoxu XVIII-XIX əsrlərə aiddir. Şuşada hər bir ev, küçə, möhtəşəm qala divarları, məscidlər, qədd-qamətli minarələr, əzəmətli qəsrlərin qalıqları keçmişimizdən xəbər verir.

Şuşada 17 məhəllə vardı: Qurdlar, Seyidli, Culfalar, Quyuluq, Çuxur, Dördlər Qurdu, Hacı Yusifli, Dörd Çinar, Çöl Qala, Mərdinli, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam Qabağı və Təzə məhəllə. Hər məhəllədə hamam, məscid, bulaq vardı.

Şuşada Dövlət Dram Teatrı, Dövlət Qarabağ Tarixi və Şuşa Şəhərinin Tarixi muzeyləri, Üzeyir Hacıbəyovun, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Dövlət Rəsm Qalereyası, 4 texnikum, 2 institut filialı, orta və orta ixtisas musiqi məktəbləri, kitabxanalar fəaliyyət göstərirdi. 2 sanatoriya, görkəmli sənət adamlarının ev muzeyləri, 70 yerlik turist bazası, 1200 yerlik internat məktəbi və s. var idi.

S/S	Abidələrin adları	Sayı
1.	Kurqan	1
2.	Daş qutu qəbirləri	1
3.	Mağara düşərgəsi	1
4.	Nekropol	2
5.	Qala	1
6.	Saray	2
7.	Bürc	1
8.	Türbə	3
9.	Malikanə	2
10.	Tarixi şəxsiyyətlərin evi	74
11.	Məscid	12
12.	Məscid-mədrəsə	1
13.	Mədrəsə	1
14.	Məscid-karvansaray	2

15.	Karvansaray	4
16.	Bulaq	24
17.	Gəncə qapısı	1
18.	Məbəd	2
19.	Hamam	2
20.	"Realnı məktəb"in binası	1
21.	Xəstəxana binası	1
22.	Yaşayış binası	1
23.	Qız məktəbi	1
24.	Yaşayış evi	67
25.	Su anbarı	1
26.	Qız monastırı	1
27.	İnzibati bina	1
28	Dəyirman	1
29.	Kilsə	3
Cəmi		**217**

Şuşa rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 11 279 640 000 $



Şuşa qalası. 1748-1753-cü il. Ermənilər tərəfindən forma dəyişikliyi edilmişdir

Xocalı



Şuşukənd ərazisində körpünün baş planı

Xocalı Azərbaycanın ən qədim yaşayış məskənlərindəndir. Azərbaycan xalqı zəngin və özünəməxsus mədəniyyət, o cümlədən dövlətçilik ənənələri yaratmışdır. Yerli və xarici alimlər, etnoqraflar tədqiqatlarında bildirmişlər ki, Azərbaycan tarixinin öyrənilməsində Xocalı mədəniyyətinin tədqiqi mühüm əhəmiyyətə malikdir. Xocalı başdan-başa tarixi-memarlıq abidələri diyarıdır. Buna misal olaraq miladdan əvvəl XIII-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyət abidələrini, son Tunc və ilk Dəmir dövrlərinə aid Nekropolu, Kurqan çölünü, eramızın IV-VII əsrlərinə aid kilsələri, XIV əsrə aid Hacı Əli günbəzini, 1356-cı ildə inşa olunmuş dairəvi türbəni, XVIII əsrdə tikilmiş Əsgəran qalasını və onlarca başqalarını göstərmək olar.

Azərbaycanda Kiçik Qafqaz dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji mədəniyyət Xocalı-Gədəbəy mədəniyyəti abidələri adlandırılır. Xocalı-Gədəbəy mədəniyyəti abidələri emalatxanalar, qəbirlər və ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan emalatxanaların qalıqları, çaxmaq daşından alət və silahların istehsal tullantıları aşkar edilmişdir. Buradan Neolit dövründə yaşayan insanlara aid əmək alətləri də tapılmışdır. Torpaq, daş qutu qəbirlər və kurqanlarda ölülər bükülü, uzadılmış, oturdulmuş vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərin keramikası demək olar ki, eynidir. Qəbirlərdən tunc, qılınc, təbərzin, toppuz, ox, yaba, xəncər, nizə ucluğu, bardak, qazan, cilov, bilərzik, üzük, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif məmulatlar aşkar edilmişdir.

Bu faktlar sübut edir ki, Xocalı Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Keçmiş SSRİ-nin tanınmış etnoqraf alimləri və yerli etnoqraflar qədim dövrə aid abidələri daha çox Xocalı və Xankəndi yaxınlığında apardıqları tədqiqatlar zamanı tapmışlar. Onlar arxeoloji qazıntılar zamanı kurqanlara, qəbir daşlarına və müxtəlif yaşayış məskənlərinə rast gəliblər. Qədim Xocalı qəbiristanlığındakı 11 saylı kurqandan tapılan muncuqlar, üzərində eramızdan əvvəl 1307-1275-ci illərdə Assuriya çarı Adadnirariyə aid mixi yazılar, eləcə də müxtəlif çeşidli bəzək əşyaları, saxsı qablar, şüşə muncuqlar yerli sakinlərin Şərq ölkələri ilə geniş iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Alimlər sübut ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti son Tunc və erkən Dəmir dövrlərinin xarakterik xüsusiyyətlərini özündə cəmləşdirir. Qəbirlərdən tunc, qılınc, nizə ucluğu, silahlar, ox, yaba, təbərzin, toppuz, bilərzik, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif əşyalar aşkar edilmişdir. Aparılan toponimik araşdırmalar göstərir ki, xalqımızın uzaq keçmişindən tutmuş bu gününədək olan məşğuliyyəti Xocalı toponimiyasında da öz əksini tapmışdır.

İ.M.Dyakonov, M.Kalankatlı və M.Xorenli öz əsərlərində Qafqaz Albaniyasının Xocalı rayonu ərazisinə aid Qarqar düzünü Qafqaz tayfalarından olan qarqarların adı ilə bağlayırlar. Onlar alban əlifbasının qarqarların dili əsasında tərtib olunduğu ehtimalını da irəli sürüblər. Hazırda Qarqar Xocalıda yerləşən dağ silsiləsidir. Qafqaz Albaniyası dövrünü tədqiq edən

alimlərdən K.V.Trever III əsrdə Albaniyada Qarqar düzü adlı yerin olduğunu söyləyib. Adı Qafqaz Albaniyasının qarqar tayfasından götürülmüş Qarqar çayı Şuşa, Xocalı, Ağdam, Ağcabədi rayonları ərazisində, Kür çayının hövzəsindədir. Ətraf rayonlar bu çaydan suvarmada geniş istifadə edirdi. Qarqar düzü və Qarqar dağ silsiləsi adlanan ərazi də Xocalı rayonunun ərazisində yerləşən dağ silsiləsidir və Qafqaz tayfalarından olan qarqarların adı ilə bağlıdır. Qarqarlar utilər, albanlar və digər türkdilli xalqlarla birgə Qarabağın qədim sakinləri hesab olunurlar. Yunan coğrafiyaşünas alimi Strabon qarqarların Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. Heç bir alim və tədqiqatçı, hətta tarixin atası hesab olunan Heredot, coğrafiyaşünas Strabon, M.Kalankatlı belə Qarabağ ərazisində erməni toponimini, mədəniyyətini, yaşayış tərzini xatırladan mənbə göstərməyiblər. Hətta şərqşünas V.V.Bartold XVIII-XIX əsrə aid mənbələrdə Orta Qazaxıstanda və Tyan-Şanda Qarqar adlı toponimlərin olduğunu deyib. Tarix boyu Azərbaycan xalqının yaratdığı Manna, Midiya, Albaniya və Atropatena dövlətlərinin formalaşmasında və inkişafında qarqar boylarının böyük rolu olmuşdur.

Xocalı rayonu ərazisindəki Əsgəran qalası XVIII əsrdə Qarqar çayının sağ və sol sahillərində Qarabağ xanı Pənahəli xan tərəfindən tikilib. İki istehkamdan ibarət qala çay daşından inşa olunmuşdur. Yeri gəlmişkən, 1810-cu ildə Rusiya ilə İran arasında sülh danışıqları Əsgəran qalasında aparılmışdır. "Əsgəran" sözünün mənası "Qədim Aran" deməkdir. Tarixi faktlar sübut edir ki, Xocalı rayonu ərazisi Azərbaycanın ən qədim, qocaman diyarlarından biridir.

S/S	Abidələrin adları	Sayı
1.	Nekropol	8
2.	Kurqanlar	4
3.	Köhnə qəbiristanlıq	1
4.	Məbəd	3
5.	Türbə	1
6.	Alban məbədi	6
7.	Qala	5
Cəmi		**28**

Xocalı rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 4 887 500 000 $

Qazax

S/S	Abidələrin adları	Sayı
1.	Məbəd	1
Cəmi		**1**

Qazax rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 67 200 000 $

Naxçıvan MR

S/S	Abidələrin adları	Sayı
1.	Məbəd	1
Cəmi		**1**

Naxçıvan MR, Sədərək rayonu üzrə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə vurulan zərərin ümumi həcmi: 252 000 000 $





Azərbaycanın işğal olunmuş ərazilərindəki dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə ermənilər tərəfindən vurulan zərər barədə

MƏLUMAT

Abidələrin yerləşdiyi inzibati ərazi vahidləri	Abidələrin kateqoriyaları				Abidələrə dəymis ziyan (AZN-lə)
	Dövlət qeydiyyatında olan abidələrin sayı	Yerli əhəmiyyətli	Ölkə əhəmiyyətli	Beynəlxalq əhəmiyyətli	
Laçın rayonu	73	62	11	-	10752000000
Kəlbəcər rayonu	70	50	18	2	14382960000
Qubadlı rayonu	67	51	16	-	7980000000
Zəngilan rayonu	47	39	8	-	3008690000
Füzuli rayonu	71	57	14	-	3825160000
Ağdam rayonu	140	41	95	4	19603920000
Cəbrayıl rayonu	93	74	16	3	7575700000
Xocalı rayonu	28	8	19	1	4887500000
Xocavənd rayonu	93	61	30	2	4711600000
Şuşa şəhəri	217	167	49	1	11 279 640 000
Naxçıvan MR	3	3	-	-	252000000
Qazax rayonu	1	1	-	-	67200000
Cəmi:	**903**	**609**	**285**	**13**	**84883726000**

İşğal olunmuş ərazilərdəki dövlət qeydiyyatında olan daşınmaz tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümumi həcmi: 84 883 726 000 manat

Azərbaycanın işğal olunmuş ərazilərindəki dövlət qeydiyyatında olmayan tarix və mədəniyyət abidələrinə dəyən zərərin qiymətləndirilməsi haqqında

MƏLUMAT

Abidələrin yerləşdiyi inzibati ərazi vahidləri	Dövlət qeydiyyatında olmayan abidələr		Abidələrə dəyən zərərin ümumi miqdarı	
	Abidələrin sayı	Bədii daş nümunələri, at-qoç fiqurları	Memarlıq və arxeoloji abidələr	Abidələrə dəyən zərərin miqdarı (AZN)
Laçın rayonu	202	162	40	1680420 000
Kəlbəcər rayonu	145	125	20	840210000
Qubadlı rayonu	100	70	30	2 525 233 000
Zəngilan rayonu	100	80	20	840210000
Füzuli rayonu	100	80	20	840210000
Ağdam rayonu	100	50	50	6534640000
Cəbrayıl rayonu	100	50	50	3787850000
Xocalı rayonu	100	70	30	4887 500 000
Xocavənd rayonu	100	70	30	1570533000
Şuşa şəhəri	600	100	500	22 559 280 000
Cəmi	**1647**	**857**	**790**	**46 066 086 000**

İşğal olunmuş ərazilərdəki dövlət qeydiyyatında olmayan tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümumi həcmi: 46 066 086 000 manat

İşğal olunmuş ərazilərdəki dövlət qeydiyyatında olan daşınan tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümumi həcmi: 46 050 188 000 manat

İşğal olunmuş ərazilərdəki tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümumi həcmi: 177 000 000 000 manat

Erməni xaçdaşları: mifologiya, yoxsa tarixi reallıq?!



Kəlbəcər rayonu Dədəvəng monastırının baş planı

Xaç hal-hazırda xristian dünyasının qəbul etdiyi xristian dininin rəmzlərindən biri, yəni dini simvolu kimi başa düşülür. Xaç rəmzlərinin meydana gəlməsi ibtidai icma dövrünə təsadüf edir. İnsanlar yeri, kainatı qızdıran, torpağa, suya hərarət və can verən günəşə böyük möcüzə kimi baxırdılar. Onlar günəşin obrazını daş, qaya üzərində həkk edərək ona sitayiş edirdilər. O zaman hələ dinlərin mövcud olmadığı bir zamanda, insanlar özlərinin hiss və həyəcanlarını bu cür ifadə edirdilər. Odur ki, xaçların yaranması qədim əsatirlərdə göstərildiyi kimi, insanların günəşə, daha sonralar oda etiqadından, sitayişindən, inamından irəli gəlirdi. İbtidai insanlar odu da günəşin yerdəki simvolu kimi qəbul edərək ona sitayiş edirdilər.

Araşdırmalar göstərir ki, xaçların yaranmasında hələ xristianlıqdan çox-çox erkən dövrlərdə qədim türk tayfalarının böyük rolu olmuşdur. Özüylə bol-bərəkət, istilik gətirən günəşin obrazını o zamankı insanların təfəkküründəki yerdə torpaq üzərində daşdan yaradaraq, ağac üzərinə bağlayıb hündürlüyə (göylərə) qaldıraraq, yenidən kainata qovuşdurmaq (yəni günəşi yerdə doğurub kainata qovuşdurmaq) istəyi xaçların indiki formasının meydana gəlməsinə səbəb olmuşdur. Oda, günəşə etiqad və məhəbbət o qədər müqəddəs və güclü olmuşdur ki, od və günəş insanların and yeri olmuşdur. Bu inam və etiqad insanlar arasında əsrlər boyu yaşayaraq, dövrümüzə qədər gəlib çatmışdır. İndinin özündə belə Azərbaycanda "o günəş haqqı", "o ocaq haqqı", "o günəşin şölələri haqqı" kimi ifadələr insanlar tərəfindən and kimi işlədilir.

Qədim dövrlərin nəinki təkcə xaç rəsmləri üzərində, ümumiyyətlə Cənubi Qafqazda Alban dövrü bütün memarlıq abidələrinin daş və divar rəsmlərində və eləcə də süjet xarakterli oymalarda daha çox türkdilli xalqlara məxsus elementlərdən istifadə edilməsi onu göstərir ki, o dövrdə yerli xalqlar içərisində türkdilli tayfalar çoxluq təşkil etmişdir. Təsadüfi deyil ki, əsrlərlə qarşılıqlı hörmət və məhəbbətlə dinc yanaşı yaşayan bu xalqların öz bədii yaradıcıqlarında da bir-birinin mədəni irsinə müraciət etmələri bu xalqların birinin digərinə böyük etiramından irəli gəlirdi. Odur ki, haqlı olaraq elmi ədəbiyyatlarda Qafqaz Albaniyası dövrü memarlıq abidələri alban-türk memarlıq abidələri kimi də qeyd olunur. Bu baxımdan, Alban dövrü xaçlarının tədqiqi daha çox maraq doğurur: Alban dövrü xaçları daha çox klassik ənənələrə uyğunlaşdırılmışdır. Çünki, Alban xaçları xristianlığa qədərki elementlər və dini ayinlərlə bağlıdır və ağacın xaçın təsvirinə daha yaxındır. Xaç obrazı Alban xaçdaşlarında sanki müxtəlif, bir-birinə aidiyyatı olmayan dekorativ tərtibatları qovuşdurur. Alban xaçı bəlkə də dünyada yeganə xaçdır ki, xristianlığa qədərki inamların, etiqadların və kainatı dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrə malikdir. Bu xaçların bütün kompozisiyaları göylə yerin əlaqəsi, günəş, işıq, nur və məhsuldarlıq simvolu kimi əks olunmuşdur.

Tədqiqatlar sübut edir ki, Qafqaz Albaniyasının erkən xristianlıq incəsənətinin meydana çıxması və inkişafı tamamilə orijinal, yəni özünəməxsus yolla getmişdir. Burada söhbət eyni zamanda xristianlığa qədər mövcud olmuş dini ayinlərin simvolikası əks olunan qəbirlərin müsəlman qəbirləri ilə müqayisəsindən və Qafqaz Albaniyasının yazılı daşlarından

gedir. Bütün Alban yazılı daşlarının üzərindəki xristianlığaqədərki inamların və kainat qüvvələrinin qanunauyğun şəkildə yerləşdirilməsi ilə dinibədii qanunlara tabe edilmiş özünəməxsus təsvirlər başqa xalqların xaç təsvirlərində yoxdur. Alban dövrünün sonlarında yaranan alban xaç daşlarının üzərindəki obrazların çoxlu yüzilliklər keçdiyinə görə, əvvəlcə iki, sonralar üç din hakimiyyəti altında toplanmış, harmonik olaraq yüzlərlə mümkün yazılı daşların üzərində əks olunmuş ayin simvolikasıdır. Odur ki, Alban daş yazı nümunələrinin (xaçdaşlarının, başdaşlarının və nişandaşlarının) bax bu cür özünəməxsusluğu onu digər xalqların daş yazı nümunələrindən köklü surətdə fərqləndirir.

XIX əsrin əvvəllərindən Cənubi Qafqazda kütləvi şəkildə kök salan ermənilər Alban mədəniyyətinin bu nümunələrindən dərhal yararlanmağa başladılar. Onlar özlərinin "böyük fəlsəfi təfəkkürə malik" olan bir xalq obrazını yaratmaq, bununla da ermənilərin digər xalq və millətlərdən daha üstün olduqlarını nümayiş etdirmək üçün öz mədəniyyətlərinin, dini rəmzlərinin və xaçlarının təkmilləşdirilməsi ilə məşğul olmağa başladılar. Bununla da erməni "xaçkarları" meydana gəlməyə başladı. Əslində, "xaçkar" - sözünün kökü fars mənşəli söz olub, fars dilindən erməni dilinə keçmişdir. Bu "kar" sözü fars dilində "iş, zəhmət" mənasını verir, bunu erməni dilinə çevirəndə "kar", daş mənasında başa düşülür. Odur ki, "xaçkar" sözünün erməni dilində anlamı "xaçdaş"ı mənasını verir.

Ermənilər süni surətdə məskunlaşdırıldıqları ərazilərin ermənilləşdirilməsində xaç daşlarının yayılmasını daha məqsədəmüvafiq hesab edirlər. Onlar heç bir xalqın həyatında təsadüf edilməyən fəaliyyətlə məşğul olaraq, hər dağda və dərədə, hər kol dibində xaç obrazlı daşlar düzəldərək kütləvi surətdə ərazidə yaymaqla məşğul olurlar. Ermənilər tarixi öz xeyirlərinə dəyişdirmək üçün xaç daşları yonaraq işğal etdikləri Azərbaycan torpaqlarında basdırmağa və bütünlüklə xaç daşlarını bu ərazilərin hər qarışına yaymağa özlərinin əsas məqsədləri və vəzifələri kimi baxırlar.

Onlar son illər xaç daşlarının istehsalını o qədər genişləndiriblər ki, hətta belə demək mümkün olarsa, Cənubi Qafqazın bütün ərazilərinə bəs edəcək qədər xaç daşları istehsal ediblər. Ermənilərin işğal etdikləri Azərbaycan ərazilərində xaçdaşlarının istehsalı ilə məşğul olmaları, ilk baxışdan xristianlığın təbliği kimi görünsə də, əslində bu prosesin gedişi Azərbaycan torpaqlarının ermənilləşdirilməsinə xidmət edir. Bu yolla ermənilər çoxlu sayda Alban xaçdaşlarının dekorativ tərtibatı ilə eyni olan

(yalnız bu daşların ornament və bəzəklərində dəyişiklik edərək) oyma və qabartma üsulu ilə xaç daşları, başdaşları və nişan daşları yonaraq Azərbaycanın işğal olunmuş ərazilərinin müxtəlif yerlərində, bir zamanlar regionun istirahət mərkəzləri olmuş ərazilərində, yol kənarlarında, bulaqların ətraflarında, ictimai yaşayış mərkəzlərinin baxımlı yerlərində, bağlarda, parklarda, memarlıq abidələrinin üzərlərində, qəbiristanlıqlarda və eləcə də müxtəlif yaşayış ərazilərində kütləvi şəkildə yerləşdirirlər.

Ermənilərin nəzarətində olan Qərbi Azərbaycan torpaqlarında və eləcə də işğal olunmuş digər ərazilərdə (ermənilər tərəfindən başdaşı formasında basdırılmış) yanyana düzülmüş elə kütləvi xaçdaşları sahələrinə təsadüf edilir ki, bu, sanki böyük bir adsız qəbiristanlıqları xatırladır. Bu cür kütləvi süni məzarlıqlarda daşların bədii formada həllinə elə də fikir verilmir. Bəzən isə Alban xaç daşlarını da mövcud olduqları yerlərdən söküb gətirib, bu səpkili xaçdaşı "qəbiristanlıqlarında" basdıraraq erməni xaçkarları kimi təqdim edirlər. Bu isə nəinki təkcə Alban daş sənəti nümunələrinin mənimsənilməsinə, həmcinin bir daha qeyd etmək lazımdır ki, Azərbaycan torpaqlarının ermənilləşdirilməsinə gətirib çıxarır.

Burada qeyd etmək yerinə düşərdi ki, klassik erməni xaç daşları, erməni dini simvolları və rəmzləri, xüsusən də xaç təsvirlərinin özləri sadə formada olduqlarından, özünün bədii üslubuna və xarakterinə görə heç bir məna və əhəmiyyət kəsb etmir. Çünki erməni - qriqoryan xaçları hazırlanarkən onların təsvirlərində dekorativ sənət nümunələrindən, müxtəlif ornamentlərdən və digər bəzək nümunələrindən istifadə edilməmişdir. Ona görə də erməni-qriqoryan xaçlarının dövrümüzə qədər olan bütün nümunələri sadə formada olub, öz xüsusiyyətlərinə görə bədii sənət əsərləri sayılmırlar, bu xaçlar sadəcə olaraq kilsələrdə dini ayinlərin icrasında istifadə olunan adi bir dini vasitələrdən başqa bir şey deyildir.

İşğal olunmuş Azərbaycan ərazilərinin ermənilləşdirilməsi məsələsi erməni din xadimlərinin və Ermənistan hökumətinin dövlət siyasətinin bir hissəsini təşkil edir. Burada ermənilləşmə, əsasən, klassik erməni şürunda dəbdə olan müxtəlif ölçülü daşlar üzərində yonulan bədii xaç daşı və erməni dilində bədii daş nümunələridir.

Xaç daşları adətən yer səthindən hündürlüyü 300 mm-dən 3000-4000 mm-dək hündürlükdə yonularaq quraşdırılır. Əvvəllər erməni xaçdaşları heç bir bədii həlli olmayan sadə üslubda yonulurdusa, hal-hazırda

isə erməni xaçdaşları yüksək bədii həlli olan, alban dövrü bədii daş nümunələrinin müxtəlif ornamentlərindən istifadə edilməklə yonulur.

Müxtəlif yaylalarda və bəzən də dağ yamaclarında 100-200 xaçdaşı ardıcıllıqla yerə elə basdırılır ki, burada qəbiristanlığı xatırladır. Hal-hazırda işğal olunmuş ərazilərimizdə bir neçə belə xaç qəbiristanlığının olduğu bizə məlum olmuşdur. Belə qəbiristanlıqları yaratmaqda ermənilərin məqsədi Qarabağa ayaq basan hansısa bir əcnəbidə bu torpaqların bir xristian torpaqları olduğu təəssüratını yaratmaqdır.

Erməni mətbuatının verdiyi məlumata görə, işğal olunmuş Azərbaycan ərazilərindəki təkcə erməni xaçdaşlarının sayı təqribən 2000 ədəddən çoxdur. Təqribən bunun yarısı miqdarında isə erməni dilində yazılar olan bədii daş nümunələri saxta yolla bu ərazilərdə yerləşdirilib. Erməni yazıçısı Arsen Melik-Şahnazarov 2011-ci ildə Minsk şəhərində rus dilində çap etdirdiyi "Dağlıq Qarabağ: nifrətin xronikası" adlı kitabında yazır: "Hal-hazırda Dağlıq Qarabağ ərazilərində 1000-dən çox qədim erməni dilində yazılmış bədii daş nümunələrinə və qəbir daşlarına rast gəlmək olar".

Hamıya məlumdur ki, 1992-ci il erməni işğalına qədər nəinki Laçın, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Dağlıq Qarabağın digər rayonlarının ərazilərində, heç indiki Ermənistanın Zəngəzur, Dərələyəz bölgələrində və Göyçə gölü hövzəsi ərazilərində belə, istər yerli, istərsə də xarici tədqiqatçılara bir dənə də olsun qədim erməni dilində olan bədii daş yazı nümunəsi və ya erməni xaç daşı rast gəlməyib. XVIII-XIX və XX əsrin əvvəllərinə qədər Cənubi Qafqaza səfər edən xarici tədqiqatçılar burada qədim erməni dilində olan bədii daş yazı nümunəsinə və ya erməni xaç daşına rast gəldiklərini təsdiqləmirlər.

Buradan belə bir qənaətə gəlmək olar ki, bu ərazilərdə hal-hazırda nümayiş etdirilən yüzlərlə erməni bədii daş nümunələri ermənilər tərəfindən ərazilərimiz işğal edildikdən sonra yerləşdirilib.

Ermənilər işğal etdikləri ərazilərimizdə xaç daşları, xatirə ansamblları və digər erməni bəbii daş nümunələrini yerləşdirməklə bərabər, kilsə tikintilərini də xüsusi bir inkişaf tempi ilə aparırlar. Bu ərazilərdə kilsələri ermənilər ibadət etmək məqsədilə deyil, yalnız görüntü üçün inşa edirlər. Belə ki, yeni tikilən erməni kilsələrinin əksəriyyəti məskunlaşdırılan ermənilərin yaşayış massivlərindən xeyli uzaq ərazilərdə tikilir. Bu tikintilərin içərisində özünəməxsus üslubu və yüksək bədii həlli olan xatirə ansambllarının tikintisinə xüsusi diqqət yetirilir. Maraqlıdır ki, Azərbaycan

torpaqlarında tikilən bu xatirə ansambllları Azərbaycanda və dünyanın digər yerlərində qanlı qırğınlar törətmiş məhşur terrorçuların xatirəsinə ucaldılır. Bunlar dünyada analoqu olmayan tikintilərdir. Çünki dünyanın heç bir ölkəsində əli dinc insanların qanına batmış terrorçuların xatirəsinə abidələr tikilmir.

Tarixi baxımdan nə Dağlıq Qarabağda, nə də işğal olunmuş digər ərazilərimizdə heç vaxt erməni kilsəsi və ya kilsələri mövcud olmamışdır. Dünyanın heç bir arxivindən bunu sübut edə bilən heç bir sənədə rast gəlmək mümkün deyildir. Dağlıq Qarabağda ilk dəfə "erməni kilsəsi" ifadəsinə XX əsrin 70-80-ci illərində rast gəlinir. Bunun isə öz tarixi kökləri var. Belə ki, 1805-ci ildə Qarabağ xanlığını devirən çar hökuməti öz mənzil-qərargahını Şuşa şəhərində yaratdı. Rus əsgərlərinin ibadəti üçün ordu rəhbərliyi xanlığın divanxanasının qülləsindən zəng asdıraraq burada rusların ibadəti üçün şərait yaratdı. Divanxana rus ordusu komandanlığı tərəfindən ayrı-ayrı zaman kəsiyində bir neçə dəfə təmir edilərək kilsə stilinə uyğunlaşdırıldı. Sonralar Qarabağ xanlığının divanxanası xalq arasında "rus kilsəsi" adlandırılmağa başladı. Bunu hətta o dövrün erməni tədqiqatçıları da öz əsərlərində təsdiq edirlər. Şuşa şəhərindəki yeganə kilsənin erməni kilsəsi deyil, rus kilsəsi olduğunu erməni tarixçisi Zare Melik-Şahnazarov özünün (Записки карабахского солдата. Москва, 1995) kitabında qeyd edir.

1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti hökuməti qurulduqdan sonra rus hərbçiləri Şuşanı tərk etdilər. Bundan sonra rus kilsəsi 1970-ci ilə qədər baxımsız və istifadəsiz qaldı. Lakin 1970-1980-ci illərdə DQMV-nin erməni rəhbərliyi Şuşa şəhərindəki rus kilsəsini təmir etdirərək kilsəni Şuşada yaşayan ermənilərin istifadəsinə verdi. Bundan sonra Qarabağda ermənilərin yeganə ibadət yeri olan bu kilsə tamamilə ermənləşdirildi. Təbii ki, bu hadisədən sonra bu kilsə "erməni kilsəsi" adlandırıldı.

Sovetlər dönəmində Azərbaycanın digər ərazilərində olduğu kimi, Dağlıq Qarabağ və ona bitişik ətraf ərazilərin bütün şəhər və qəsəbələrində də Böyük Vətən Müharibəsində həlak olan bu şəhər və qəsəbələrin müharibə iştirakçılarının xatirələrinə abidələr ucaldılmışdı. O dövrdə bu tipli abidələr həqiqətən öz möhtəşəmliyi və əzəməti ilə diqqət çəkirdi. İşğal dövrü ermənilər bu abidələrə də əl gəzdirərək ermənləşdiriblər. Belə ki, onlar bu abidələrin üzərindən ornamental lövhələri sökülüb dəyişdirmiş, divarlarındakı yazıları silərək orada erməni döyüşçülərinin adlarını yazsalar da, bu abidələrin formalarını dəyişdirə bilməyiblər.

Bu ərazilərdə ən acınacaqlı vəziyyət Ağdam rayonunun Şahbulaq ərazisində yaşanır. Burada ermənilər Pənahəli xanın qəsri ətrafında arxeoloji qazıntılar apararaq qəsrin içərisində ərazidən tapdıqları məişət əşyalarından ibarət muzey yaradıblar. Dünyanın bir çox ölkələrindən elm adamlarını bu qazıntılara cəlb edən ermənilər Pənahəli xanın qəsrini erməni knyazı II Tiqranın iqamətgahı kimi təbliğ edirlər. Dünyanın bütün tarixi mənbələrində isə əsl həqiqət bundan ibarətdir: "E.ə. I əsrin əvvəlində Selevkilər dövlətinin süqutu ilə erməni çarı II Tiqran (e.ə.96-55) ərazilərini Yuxarı Mesopotamiya və Suriyaya doğru genişləndirmə siyasəti yürütdü və bugünkü Livanın cənubuna qədər olan ərazini işğal etdi. II Tiqran ölkənin paytaxtını Diyarbəkir şəhəri yaxılığında saldırdığı Tiqranakert şəhərinə köçürdü. Lakin Roma imperiyası ərazidə güclü bir dövlətin yaradılmasına göz yuma bilməzdi. Qney Pompeyin komandanlığı altında Roma və Ermənistan qoşunları arasında olan döyüşdə II Tiqran məğlub edildi və işğal etdiyi ərazilərdən geri çəkilməyə məcbur oldu".

Yüz illər sonra birdən-birə Qarabağda peyda olan II Tiqran bu ərazilərin ermənileşməsini təmin edə biləcəkmi?

Şuşa Dövlət Tarix - Mədəniyyət Qoruğu



Qarabağın balkonlu yaşayış evləri. XVIII - XIX əsrlər

Azərbaycanda daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə edilib saxlanması üçün 10 aprel 1988-ci ildə Azərbaycanın Milli Məclisi tərəfindən qəbul edilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu imkan verir ki, respublikanın bütün ərazilərində abidələrin qeydiyyata alınması, öyrənilməsi, qorunması, bərpa edilməsi, yenidən qurulması və onlardan istifadə edilməsi dövlət orqanları tərəfindən mərkəzləşdirilmiş qaydada təşkil edilsin və həyata keçirilsin.

Abidələrin mühafizə edilməsinə nəzarət işləri daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması haqqında dövlət qanunvericiliyinin yaratdığı şərait çərçivəsində dövlət orqanlarının, hüquqi şəxslərin və vətəndaş cəmiyyəti üzvlərinin bir növ gündəlik vəzifələrinə çevrilmişdir. Mədəni irs nəinki daşınmaz tarix və mədəniyyət abidələrini, eyni zamanda, tarixə şahidlik edən bütün sənədləri və milli-mənəvi dəyərləri əhatə edən daşınan abidələri də əhatə edir.

1992-ci ildən Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik ərazilərdə yüzlərlə daşınmaz tarix və mədəniyyət abidələri ermənilər tərəfindən planlı şəkildə vandalizmə uğradılmışdır. Adı çəkilən ərazilərdə tarixi ha-

disələrlə bağlı yerlər, şəhərlərin milli-mədəni dəyərlərə malik binaları, tarixi şəhərsalma ansamblları, şəhər qalıqları, tarixi memarlıq kompleksləri və ansamblları, eləcə də tarixi, elmi, bədii və mədəni dəyərlərə malik dövlət qeydiyyatında olan digər yerlər ermənilər tərəfindən dağıdılır, məhv edilir və ya ermənilərdirilir.

İşğal altında olan ərazilərdəki daşınmaz tarix və mədəniyyət abidələri sırasında tarixi əhəmiyyətli fərdi binalar və onların əraziləri, qurğular, daşınan mədəni mülkiyyətə aid abidələr, arxeoloji-mədəni təbəqələr çoxluq təşkil edir. Burada dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrini və Şuşa dövlət mədəniyyət qoruğunu xüsusi olaraq qeyd etmək lazımdır.

Qarabağın Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu 1988-ci ildə Azərbaycan Hökumətinin qərarı ilə elan edilmişdir.

Şuşa şəhəri ərazisində yerləşən daşınmaz tarixi mədəni irs siyahısında tarixi-memarlıq, elmi, bədii dəyərə malik xatirə yerləri, memorial abidələr, Azərbaycanın tarixi və mədəniyyəti üçün xüsusi əhəmiyyət kəsb edən digər abidələr də çoxluq təşkil edir. Eyni zamanda, burada Şuşa şəhərinin tarixini və mədəniyyətini xarakterizə edən yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri xüsusi mədəni dəyərlərə malikdir və Azərbaycan hökumətinin qərarı ilə qorunma altına alınmışdır.

Burada tariximizin bütün dövrlərinə şahidlik edən mədəni irsimiz elmi, tarixi, bədii və mədəni əhəmiyyətinə görə xüsusi olaraq diqqət çəkir. Şuşanın tarixi memarlıq abidələrinin bu gün araşdırmalara və tədqiqata daha çox ehtiyacı var. Hansı ki, bu abidələrin böyük əksəriyyəti Azərbaycanın dövlət qeydiyyatında və dövlət siyahısındadır.

Şuşanın qeydiyyatda olan bir çox daşınmaz abidələrinin hələ sovetlər dönəmindən yenidənqurmaya və ya bərpaya ehtiyacı vardı. Sovet imperiyası dövrü bu abidələrin bir çoxu dövlət qeydiyyatına alınsa da, onların böyük əksəriyyəti o dövrdə qeydiyyatdan kənarda qalmış və hətta dövlət rəhbərləri tərəfindən onların abidə olduğunu iddia etmək belə azərbaycanlılara bir növ qadağan edilmişdi. Məhz bu siyasət nəticəsində Azərbaycanın bütün regionlarında olduğu kimi, Dağlıq Qarabağda və Şuşada da xeyli sayda daşınmaz tarix və mədəniyyət abidələri dövlət qeydiyyatından və tarixi-mədəni ekspertizalardan faktiki olaraq kənarda qalmışdır.

Şuşa tarixi bir şəhərdir, onun ərazisində mədəni irsimizə aid tarixi binalar, abidə ansamblları, Azərbaycanda çox nadir quruluşa malik balkonlu evlər, tarixi hadisələrlə bağlı yerlər, arxeoloji-mədəni qatlara malik

torpaq sahələri, tarixi-estetik gözəlliyi özündə əks etdirən mənzərələr, xüsusi mədəni dəyərlərə malik tarixi, memarlıq, arxeoloji abidələr şəhərin gözəlliyinə və görkəminə daha bir mənzərə qatır.

Hal-hazırda ərazisi işğal altında olduğundan Şuşanın tarixi-mədəni əhəmiyyətə malik torpaq sahələri və ya əraziləri BMT-nin müvafiq qurumları tərəfindən xüsusi qorunan ərazilər hesab olunmalı və qorunmalıdır. Halbuki belə torpaq sahələri və aşağıda adları çəkilən digər ərazilər tarix və mədəniyyət abidələri hesab edilir. Məsələn: daşınmaz tarix və mədəniyyət abidələrinin əraziləri, torpaq sahələri tarixi şəhərsalma və funksional abidələrlə bağlı olduğundan mövcud şəhərin quruluşunda vəziyyəti nəzərə alsaq, belə ərazilər qorunan ərazilər siyahısına daxil edildiyindən, işğal nəticəsində nəzarətsizlikdən istifadə edərək bu abidələr üzərində möhtəkirlik edilməməlidir. Eyni zamanda, buradakı daşınmaz tarix və mədəniyyət abidələrinin əraziləri və onların təsdiq olunmuş sərhədləri xüsusi rejimlə dövlətin nəzarəti altında istifadə olunmalıdır. Daşınmaz tarix və mədəniyyət abidələrinin yerləşdikləri ərazilərin alt torpaq qatı və torpağın üstünün mövcud görünən sahələrinin və abidənin səmasının təhlükəsizliyinin qorunmasının zəruriliyi aşağıdakı şərtlərlə öz əksini tapmalıdır:

1. Şəhərin tarix və mədəniyyət abidələrinin və onların ərazilərinin bir mərkəzdən idarə olunan informasiya sistemi yaradılmalıdır. Əgər bu informasiya sistemi yaradılarsa, onda bu, Şuşa şəhərinin tarix və mədəniyyət abidələrinin ümumi məlumat mərkəzinə çevrilər, eləcə də fəaliyyətdə olan digər məlumat informasiya sistemləri üçün də məlumat bazası ola bilər.

2. İşğal altında olan mədəni irsimizin araşdırılması üçün dövlət ekspertizası yaradılmalıdır. Təşkil ediləcək bu fəaliyyət növü işğal altındakı mədəni dəyərlərimizin tarixi, elmi, bədii və ya digər növlərə aid olduqlarını, onların mövcud olduqları əraziləri, mühafizə zonalarını, qeydiyyatını, beynəlxalq qanunların tələb etdiyi qaydada onların faktiki mövcudluğunun yoxlanmasını həyata keçirməlidir. Bu ərazilərdəki milli-mədəni dəyərlərimizin qiymətləndirilməsi yalnız dövlət ekspertizası tərəfindən bu abidəyə və onun ərazisinə baxış keçirildikdən sonra mümkün ola bilər.

3. Şəhərdə mövcud olan mədəni irsin bərpasının baş planı hazırlanmalıdır. Bu plana şəhərin daşınmaz tarix və mədəniyyət abidələrinin bütün informasiya sistemləri, abidələrin əraziləri və mühafizə zonaları,

burada qədim şəhərsalma qaydaları, memarlıq üslubları, istifadə olunan əsas tikinti texnologiyaları, işğalçılar tərəfindən dağıdılmış qədim şəhər memarlığının və ya şəhər ansambllarının itirilmiş elementlərinin bərpası və kompleks şəkildə elmi-tədqiqat işlərinin təşkil edilməsi və s. daxil edilməlidir.

4. Azərbaycanın daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi haqqında olan qanunvericiliyinin tələblərinin yol verdiyi qaydada Şuşa şəhərinin mədəni irsinin təhlükəsizlik standartları müəyyənləşdirilməlidir.

5. Beynəlxalq hüququn və Azərbaycan qanunvericiliyinin yol verdiyi çərçivədə Azərbaycan alimlərinə Şuşa şəhərində arxeoloji və digər elmi tədqiqatlar aparmağa icazə verilməlidir.

6. Şuşa şəhərinin daşınmaz tarix və mədəniyyət abidələrinə dəyən zərərin hesablanması qaydaları müəyyənləşdirilməlidir. Zərərin hesablanması qaydaları hazırlanarkən dağıdılmış tarixi konstruksiyalar, binaların zərər çəkmiş fasadları, interyerləri, binaların dağıdılmış və məhv edilmiş elementləri, istehkamlar, dağıntılara məruz qalmış arxeoloji abidələr, müxtəlif hissələr və ya tamamilə dağıdılmış tarixi abidələr və mədəni irsə aid olan digər nümunələr nəzərə alınmalıdır.

Şuşa Dövlət Tarix və Mədəniyyət Qoruğunda ermənilər tərəfindən dağıntılara və ermənilərdirilməyə məruz qalmış şəhərin tarixi planlaşdırılmış strukturu və eləcə də şəhər strukturuna daxil olan daşınmaz tarix və mədəniyyət abidələrinin növləri:

- fərdi binalar, qurğular və istehkamlar, dini ibadət yerləri, saraylar, yaşayış evləri, ictimai binalar, inzibati binalar, ticarət obyektləri, sənaye və nəqliyyat müəssisələri, elm-təhsil ocaqları, onların əhatə etdikləri ərazilər, o cümlədən monumental rəssamlıq nümunələri , heykəltəraşlıq əsərləri, dekorativ - tətbiqi sənət nümunələri, bağlar və parklar;

- Şəhər ansambllları: daşınmaz tarix və mədəniyyət abidələri və onlara məxsus digər incəsənət nümunələri, tarixi dəyərlərə malik küçə və meydanlar, məhəllələr, memarlıq kompleksləri və ansambllları, onların ərazilərə və təbii landşaftları, eləcə də monumental incəsənətlə bağlı sənətkarlıq nümunələri, bağ - park incəsənəti və landşaft memarlığı;

- Tarixi abidələr: məşhur tarixi şəxsiyyətlərin, eləcə də, elm, ədəbiyyat və incəsənət xadimlərinin həyatı ilə bağlı binalar, evlər, komplekslər və ansambllar;

- Ölkənin və şəhərin həyatında mühüm tarixi hadisələrlə bağlı binalar, abidə kompleksləri və ansambllları;

- Şuşa şəhəri sakinlərinin elmi-texniki, mədəniyyət və məişətləri ilə bağlı binalar, quramalar, xatirə yerləri, komplekslər və ansambllar;

- Tarixi nekropollar: qəbir daşları, qədim qəbirlər, dövlət xadimlərinin, xalq qəhrəmanlarının, elm, mədəniyyət və incəsənət xadimlərinin, ölkənin müstəqilliyi uğurunda şəhid olanların qəbirüstü abidələri, qəbir kompleksləri və arxeoloji abidələr;

- Mənzillər: qədim yaşayış yerləri, o cümlədən şəhərin və şəhərətrafı kəndlərin və qəsəbələrin yaşayış evləri və mənzilləri;

- Qədim istehkamlar: bulvarlar, xəndəklər, ağacdan, daşdan və torpaqdan hazırlanmış istehkamlar, müdafiə tikintiləri və onların qalıqları.

- Dini təmayüllü tikintilər: qədim məbədlər, monastırlar, məscidlər, dini komplekslər, ibadət yerləri və onların qalıqları;

- Qədim dəfn yerləri: qədim məzarlıqlar, kurqanlar, fərdi qəbirlər;

- Təsərrüfat xarakterli binalar və digər tikintilər: kənd təsərrüfatı və ticarət müəssisələri, dağ-mədən və emal sənayesi qurğuları, suvarma sistemləri, kanallar (arxlar), şəhərin su sistemləri, hidravlik qurğular, nəqliyyat marşrutları obyektləri (yollar, körpülər, avtomobil parkları, dayanacaqlar), emal və istehsal müəssisələri, heyvandarlıq təsərrüfatı müəssisələri və s.

- İncəsənət abidələri: monumental şəhər abidələri, görkəmli adamların xatirə abidələri, monumental heykəltəraşlıq işləri və boyakarlıq nümunələri, dekorativ incəsənət nümunələri, mozaikalar, vitrajlar, tətbiqi sənət nümunələri, rəsm əsərləri.

Şuşa Dövlət Tarix və Mədəniyyət Qoruğundakı daşınmaz tarix və mədəniyyət abidələri və digər incəsənət nümunələri Azərbaycan xalqının dövlət mülkiyyətində olan əmlakıdır. Qanunla daşınmaz tarix və mədəniyyət abidələrinin ermənilər tərəfindən əmlak hüquqlarının əldə edilməsi və ermənilərdirilməsi yolverilməzdir.

Azərbaycanın işğal olunmuş ərazilərində, o cümlədən Şuşa şəhərində mədəni irsin bütün növdən olan nümunələri Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. Daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizəsi və istifadəsi sahəsindəki fəaliyyət Azərbaycan qanunları ilə müəyyənləşdirilir. Bu qanunlarla verilən hüquqlar çərçivəsində Ermənistan hökuməti Şuşa şəhərində olan daşınmaz tarix və mədəniyyət abi-

dələrinin ekspertizası, təhlükəsizliyi, istifadəsi, bərpası və mühafizəsi sahəsində gördüyü bütün işlərə görə məsuliyyət daşıyır və Cenevrə Konvensiyasının müvafiq müddəalarına əsasən, işğal etdiyi Azərbaycan ərazilərində bu fəaliyyətini tamamilə dayandırmalıdır.

Ermənistan hökuməti 1992-ci ildən etibarən işğal etdiyi Azərbaycan ərazilərində, eyni zamanda Şuşa şəhərində müntəzəm şəkildə daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və istifadəsi sahəsində qeyri-qanuni hərəkətlərə yol verir. Ermənistan hökuməti:

- işğal etdiyi bütün Azərbaycan ərazilərində, xüsusilə də Şuşa şəhərində daşınmaz tarix və mədəniyyət abidələri üzərində beynəlxalq nəzarətin təmin edilməsinə şərait yaratmır;
- Şuşa şəhərindəki daşınmaz tarix və mədəniyyət abidələrinin təbliği, öyrənilməsi, bərpası, ekspertizası və mühafizəsi sahəsində Azərbaycan hökumətinin həyata keçirmək istədiyi bütün fəaliyyəti əngəlləyir;
- İşğal altındakı ərazilərdə toponimlərin dəyişdirilməsi, habelə yerli və dünya əhəmiyyətli mədəni irsin ermənilərdirilməsi barədə qərarlar qəbul edir;
- Müsəlman dini abidələri, müsəlmanlara məxsus qəbiristanlıqlar, qəbirüstü abidələr, inanc yerləri, pirlər, türbələr, məscidlər tamamilə dağıdılır, yandırılır, məhv edilir;
- Eyni zamanda, bu ərazilərdə çoxsaylı erməni kilsələri tikilir və məşhur terrorçuların xatirəsinə monumental abidələr ucaldılır.

Bu səbəbdən də Şuşa Dövlət Tarix və Mədəniyyət qoruğunun əhəmiyyəti nəzərə alınaraq oradakı daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması dövrün aktual problemlərindən birinə çevrilmişdir. Şuşanın, ümumiyyətlə Qarabağın bütünlükdə mədəni irsinin qorunması missiyasını BMT Təhlükəsizlik Şurası öz öhdəsinə götürməlidir. Şuşa Dövlət Tarix Mədəniyyət Qoruğunun mühafizə edilməsi dünya mədəniyyətinin bir hissəsinin təhlükədən xilas olmasının nümunəvi göstəricisi olacaqdır. Çünki Şuşa Azərbaycanın tarixi şəhərlərindən biridir.

Şuşa şəhərinin ölkə əhəmiyyətli tarixi şəhər statusu Azərbaycan Respublikasının "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanununun müvafiq maddələri ilə tənzimlənir. Şuşanın "tarixi şəhər" adlandırılması onun tarixi əhəmiyyətli böyük bir ərazinin mərkəzində yerləşməsi, həmçinin bu ərazinin daşınmaz tarix və mədəniyyət abidələri və mədəni irsimizin digər növləri ilə zəngin olmasının nəticəsidir. Şuşa şəhəri tarixi şəhər kimi mühafizə edilməli, yəni çox ciddi şəkildə qorunmalıdır.

Şuşanın tarixi bir şəhər kimi qorunması işğaldan sonrakı dövrlərdə bu şəhərin inkişafının davamlılığını təmin edəcək, elmi-tədqiqat, şəhərin bərpası, ətraf mühitin qorunması, texniki kommunikasiya sistemlərinin qurulması və digər nəzərdə tutulan işlərin həyata keçirilməsi ilə nəticələnəcəkdir.

Tarixi şəhər hesab olunan Şuşanın ciddi mühafizəyə ehtiyacı olan tarixi şəhərsalmanın dəyərli elementləri: inkişafın planlaşdırılması, şəhərin təbii landşaftı, arxeoloji mədəni təbəqə, dağıdılmış tarixi mədəni irsin fraqmentləri, bina və qurğuların görünən formaları, ölçüləri, stilləri, tikinti materialları, rəng çalarları və dekorativ elementləri, təbii ətraf mühitin insanlarla əlaqəsi, şəhərin tarixi yerləri, əraziləri və s. Eyni zamanda, Şuşa şəhərinin memarlığı, tarixi ərazilərində arxeoloji tədqiqatlar üçün arxeoloji qazıntıların aparılması işləri şəhərin səmərəli mühafizəsi üçün zərurət yaradır.

Azad olunduqdan sonra Şuşada şəhərsalma işlərinin tənzimlənməsi şəhərin tarixi, iqtisadi və digər fəaliyyət xüsusiyyətlərini daha da gücləndirəcəkdir. Məhz bu səbəbdən də beynəlxalq qanunların tələblərinə uyğun olaraq, Şuşa şəhərində mədəni irsin, digər tarixi dəyərlərin və daşınmaz obyektlərin mühafizəsi bərpa olunmalıdır. Bütövlükdə, daşınmaz tarixi mədəni-irsin qorunması, eləcə də şəhərin tarixi binaları və təbii mənzərələr Şuşaya gözəllik gətirir. Burada şəhərsalma tənzimlənməsi sahəsində xüsusi prosedurların həyata keçirilməsi, müvafiq dövlət mühafizə xidməti orqanlarının və ya beynəlxalq təşkilatların nəzarəti ilə keçirilən tədbirlər nəticəsində mədəni irs və qədim şəhər qalıqlarının qiymətli elementləri qorunub saxlana bilər. Bu tədbirlərin təşkilində abidələrin mühafizə zonalarının və tarixi təyinatlı mədəni torpaqların da rolu böyükdür.

Şuşanın tarixi təyinatlı mədəni torpaqları, əsasən daşınmaz tarix və mədəniyyət abidələrinin, arxeoloji abidələrin, şəhər-tikinti memarlığı, bağ, park incəsənəti nümunələrinin, ansambl komplekslərinin, tarixi qoruqların yerləşdikləri ərazilərin torpaqları hesab olunurlar. Adətən, dövlət tarix və mədəniyyət qoruqları dövlətin qanunvericiliyinə uyğun təşkil edilir və müxtəlif qərarlarla möhkəmləndirilir. Bu qoruqlar, əsasən qoruq ərazisinə daxil olan tarix, mədəniyyət kompleksləri və təbii resursları, ta-

rixi hadisələrlə bağlı olan yerlərdən, mədəniyyət müəssisələrindən elmi-tədqiqat və mədəni məqsədlərlə istifadə etmək üçün yaradılır. Qoruq ərazisi, ona mənsub olan tarixi-mədəni torpaqlar müvafiq qurumların daşınmaz tarix və mədəniyyət abidələrinin və onların ərazilərinin Dövlət reyestrində qeydiyyatda olur. Ona görə də Şuşa şəhərinin "tarixi şəhər" statusu adını daşıması tamamilə Azərbaycan qanunvericiliyinə uyğun təşkil edilmişdir.

Qoruqlarda daşınmaz tarix və mədəniyyət abidələrinin ərazilərinin müəyyənləşdirilməsi abidələrin mühafizəsi üzrə dövlət orqanlarının, eləcə də tarixi-memarlıq abidələrinin tədqiqatı ilə məşğul olan mütəxəssislərin nəzarəti altında həyata keçirilir. Eyni zamanda, bu ərazilər qoruğun tarixi inkişaf planı çərçivəsində tarix və mədəniyyət abidələrinin dövlət ekspertiza sənədləri ilə də öz təsdiqini tapır.

Şuşanın tarixi təyinatlı mədəni torpaqlarından istifadə yalnız Azərbaycan qanunvericiliyinin tələblərini pozmadan ona uyğun həyata keçirilməlidir. Bu torpaqların istifadəsi zamanı ərazidə olan daşınmaz tarix və mədəniyyət abidələri, tarixi tikintilər və qurğular, o cümlədən şəhərin təbii landşaftı toxunulmaz olaraq qalmalıdır. Bu ərazilərdə təsərrüfat xarakterli tikinti-quraşdırma işlərinin aparılması qadağandır.

Aşağıdakı hallarda hüquqi və fiziki şəxslərin, eləcə də mülki vətəndaşların və dövlət qurumlarının əməlləri daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizəsi qaydalarının pozuntusu kimi qeydə alınır:

- tarixi təyinatlı mədəni torpaqlardan istifadə zamanı tarixi təyinatlı mədəni torpaqlardan və tarix və mədəniyyət abidələrindən Azərbaycan qanunvericiliyinin yol verdiyi qaydada istifadə edilməməsi;
- elmi, tarixi və mədəni dəyərlərə malik daşınmaz tarix və mədəniyyət abidələrinin, eləcə də onların ərazilərinin məhv edilməsi;
- qəbirüstü abidələrin, qəbir daşlarının və qəbiristanlıqların sökülməsi, dağıdılması və ya formasının dəyişdirilməsi;
- yer adlarının, toponimlərin dəyişdirilməsi.

Yuxarıdakı hallar baş verdikdə, bu, daşınmaz tarix və mədəniyyət abidələrinə və ya tarixi təyinatlı torpaq sahələrinə dəymiş ziyan kimi qiymətləndirilir. Bu ziyana görə onu törədənlər Azərbaycan Respublikasının qanunvericiliyinə və eləcə də beynəlxalq hüquqi aktlara və konvesiyalara görə məsuliyyət daşıyırlar.











Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində vandalizmə uğradılan islam dini abidələri

Münaqişə zonalarında müxtəlif xalqlara məxsus mədəni dəyərlərin məqsədli şəkildə dağıdılması bəşər mədəniyyətinə və bəşər tarixinə qarşı edilmiş təcavüz kimi qiymətləndirilməlidir. Belə fəaliyyət beynəlxalq-hüquqi məsuliyyət doğurur, buna dünya birliyi laqeyd qalmamalıdır.

Vandalizm - bilərəkdən və kor-təbii şəkildə maddi və mədəni dəyərlərin, abidələrin məhv edilməsidir. Termin ilk dəfə Fransa inqilabı zamanı Respublika Ordusunun davranışını xarakterizə edən din xadimi, keşiş Anri Qrequar tərəfindən işlədilmişdir.

Roma İmperiyasında "damnatio memoriae", yəni "xatirələrin lənətlənməsi" deyilən bir adət vardı. Buna görə sevilməyən biri öldüyündə ona aid heykəllər qırılar, ya da başları qoparılar, adları bütün qeydlərdən çıxarılar və adları xatırlanmazdı. Məsələn, Neron təkbaşına imperator olduğunda, özündən əvvəl gələn imperatora aid bütün heykəlləri yıxdırmışdı. Xristianlığın qəbulundan sonra Romadakı çoxlu heykəllər ya korlanmış, ya da heykəllərin alınlarına xaç vurulmuşdu. Qədim Misirdə də rahiblər təkrar gücü əllərinə keçirdiklərində bənzər tətbiqlərlə özlərinin gücünü məhdudlaşdıran fironun məzarını korlamışdılar.

Müasir zamanda da davam edən rəsmi vandalizm Ermənistan tərəfindən həyata keçirilir. Ermənilər işğal altında saxlanan Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində Azərbaycan xalqına məxsus islam dini dəyərlərini (türbələr, məscidlər, pirlər, ziyəratgahlar, qəbirüstü abidələr, qəbiristanlıqlar və s.) dağıdır, tamamilə məhv edir, xristian dövrü abidələrinin isə formasını və ya divar yazılarını dəyişdirərək bu abidələrin özlərinə məxsus olduqlarını iddia edirlər. Ermənistan hökuməti öz işğalı altında saxladığı Azərbaycan ərazilərini məcburi şəkildə ermənilərdirməklə, bu torpaqları mənimsəməyə çalışır. Ərazilərin ermənilərdirilməsi, əsasən, toponimlərin, tarixi abidələrin və divar yazılarının dəyişdirilməsi ilə

aparılır. Burada daha çox zərər müsəlman dini abidələrinə, xüsusən də məscidlərə dəymişdir. Qarabağ məscidləri öz dizayn quruluşuna görə respublikanın digər regionlarından kəskin şəkildə fərqlənir.

Tarixi baxımdan bu məscidlərin tikilməsi XIX-XX əsrin əvvəllərinə təsadüf edir. Lakin Qarabağ bölgəsində elə məscidlər var ki, onların memarlıq tarixi XVIII, XVII, XVI və XIII əsrlərə aid edilir. Bu mənzərədən belə aydın olur ki, Qarabağ məscidlərinin tarixi Qarabağ xanlığının tarixindən daha qədimdir.

Qarabağ məscidləri deyəndə, ilk növbədə gözlərimizin önündə Şuşanın qoşa minarəli məscidləri canlanır. Şuşada aşağı və yuxarı Gövhəraga məscidləri sözün əsl mənasında müsəlman Şərqinin əzəmətli və nadir incilərindəndir. Əslində isə XIX əsrin sonunda Şuşada 17 məscid fəaliyyət göstərib. Onlardan:

Culfalar məscidi	- XIX əsrdə Culfalar məhəlləsində tikdirilib. İki mərtəbəlidir.
Aşagı Gövhərağa məscidi	- 1874-75-ci illərdə tikilib.
Yuxarı Gövhərağa məscidi	- 1883-84-cü illərdə tikilib.
Hacı Yusifli məscidi	- (XIX əsr) Hacı Yusifli məhəlləsində yerləşir.
Köçərli məscidi	- XIX əsrdə Köçərli məhəlləsində tikilib.
Mamay məscidi	- XIX əsrdə Mamayı məhəlləsində tikilib.
Mərdinli məscidi	- XIX əsrdə Mərdinli məhəlləsində tikilib.
Quyuluq məscidi	- XVIII əsrdə Quyuluq məhəlləsində tikilib.
Seyidli məscidi	- XVIII əsrdə Mamayı məhəlləsində tikilib.
Təzə məhəllə məscidi	- XIX əsrdə Təzə məhəlləsində tikilib.
Xoca Mərcanlı məscidi	- XVIII əsrdə Xoca Mərcanlı məhəlləsində tikilib.
Çöl Qala məscidi	- XIX əsrdə Çöl Qala məhəlləsində tikilib.

Bu məscidlərin içərisində Şuşa şəhərində memar Kərbəlayı Səfi xan Qarabağlı tərəfindən inşa edilən iki məscid və iki mədrəsə daha çox diqqəti cəlb edir. Bu barədə məlumatı məscidin üzərindəki kitabədən də oxumaq olur. Şuşanın ən baxımlı məscidlərindən biri Yuxarı Gövhərağa



Aşağı Gövhərağa məscidi

məscididir. Şuşa şəhərinin məscidləri içərisində öz monumentallığı ilə seçilən Yuxarı Gövhərağa məscidini 1883-1884-cü illərdə, yəni Aşağı Gövhərağa məscidindən təxminən səkkiz il sonra İbrahim xanın qızı Gövhər ağanın vəsaiti hesabına memar Kərbəlayı Səfixan Qarabaği tikmişdir.

Aşağı Gövhərağa məscidi

Aşağı Gövhərağa məscidinin baş fasadı xüsusi bədii memarlıq həllinə malikdir. Məscid 1874-75-ci illərdə inşa edilmişdir. Məscidin giriş hissəsi üç tağbəndli geniş eyvanla seçilir. Bütün ciddiliyi ilə simmetriyaya tabe edilən bu üç tağbənd mərkəz nöqtəsindən bərabər məsafədə qoyulmuş bir cüt səkkizbucaqlı daş sütun və kənarlarda yerləşdirilmiş digər iki yarımsütun üzərində quraşdırılmışdır. Mərkəzdə quraşdırılmış oxvarı tağbənd yan tərəflərdəki yarımdairə şəkilli tağbəndlərdən nisbətən hündürdür. Hər iki yarımdairə tağbəndin üstündə isə memar yüngül relyefli xətlərlə haşiyələnmiş dördbucaqlı həndəsi fiqurlar işləmişdir. Eyvanın həmin hissəsi hər iki yandan üzəri üfüqi xətlərlə bölünmüş şaquli

plyastrlarla məhdudlaşır. Eyvanın sağ və sol tərəflərindəki bir cüt alt-üst pəncərə və onların yan tərəflərindəki taxçalar ümumi şəkildə haşiyələnib. Bu haşiyələrin düzbucaqlı şəkildə olmasına baxmayaraq, pəncərə və taxçaların örtük konstruksiyaları yarımdairə şəklində inşa olunmuşdur. Məscidin damı Şuşanın digər yaşayış binaları kimi dördyamaclı şəkildədir. Memar Aşağı Gövhərağa məscidinin minarələrini arxa fasadın yan tərəflərində ucaltmışdır.

Araşdırmalar göstərir ki, minarələr ucaldılan bu yerlər heç də təsadüfi seçilməmişdir. Baş fasad mədrəsə binası ilə məhdudlaşdığı halda, onun arxa tərəfi geniş bir ticarət meydanına baxır. Ona görə də memar binanın daha görümlü və cəlbediciliyini nəzərə alaraq minarələri arxa fasadda ucaltmağı qərara almışdır. Məscidin daxili ilə deyil, bayır tərəfi ilə bilavasitə əlaqəsi olan bu minarələrin kürsülüyü binanın ümumi divar səviyyəsindən azacıq hündürlüyə malik bir məsafəyə qədər təbii əhəngdaşı ilə hörülmüşdür. Sonra isə silindrik şəkilli minarə gövdələri öz çardağına qədər bişmiş kərpiclə inşa olunmuşdur. Memar bu məscid minarələrinin gövdəsini bütövlükdə "Allah" sözünün təkrar yazısı ilə bəzəmişdir. Bu sözlər minarə gövdələrinə xüsusi kərpic düzümü ilə çox məharətlə yazılmış və heyrətləndirici qarışıq ornament yaranmışdır.

Aşağı Gövhərağa məscidinin əsas giriş qapısı bilavasitə onunla üzbəüz tikilmiş ikimərtəbəli mədrəsənin həyətinə açılır. Mədrəsə həyət tərəfdən bütün fasadı boyu geniş eyvanlarla əhatə olunmuşdur. Birinci mərtəbənin eyvanına düzülmüş sütunlar təbii əhəng daşından səkkizbucaqlı şəklində icra olunmuşdur. Həmin sütunların yuxarısını bir-birilə aypara şəkilli tağbəndlər tamamlayır. İkinci mərtəbənin eyvanına düzülmüş sütunlar isə təmiz yonulmuş ağac materialından hazırlanmışdır. Sütunlararası məsafələr bütün fasad boyu taxtadan hazırlanmış məhəccərlə bağlanır. 1992-ci ildə Azərbaycan ərazilərinin bir hissəsi Ermənistan tərəfindən işğal olunduqdan sonra bu məscid ermənilər tərəfindən sökülərək yararsız hala salındı.

Yuxarı Gövhərağa məscidi

Yuxarı Gövhərağa məscidini 1883-84-cü illərdə, yəni Aşağı Gövhərağa məscidindən təxminən səkkiz il sonra Gövhər ağanın vəsaiti hesabına memar Kərbəlayı Səfixan Qarabaği tikib. Araşdırmalar göstərir ki, indiki məscidin yerində hələ Pənah xanın dövründə qarqu və qamış-

Yuxarı Gövhərağa məscidi.

dan bir məscid olub. Pənah xanın tikdirdiyi qarqu məscid 1768-ci ildə İbrahim xan tərəfindən daşla əvəz edilib. Həmin məscid də minarəsiz kasıb görünüşə malik olub. Görünür ki, elə məscidin bu görünüşü onun qızı Gövhər ağanı qane etmir və buna görə həmin məscidi (XIX yüzil) tamamilə sökdürüb, yerində qoşa minarəsi olan yeni bir məscid tikdirir. Planı təqribən kvadrat formada olan (21,30 x 26,20 m) bu məscid ümumən Ağdam Cümə və Aşağı Gövhərağa məscidlərinin konstruksiya ideyasını saxlayır. Zalın yan divarları boyu quraşdırılmış ikinci mərtəbədəki qadınlar üçün eyvan və mehrabla üzbəüz tərəfdəki şüşəbənd də memarın əsas tikinti meyarlarındandır. Yuxarı Gövhərağa məscidinin minarə kürsülüyü əvvəlki məscidlərdə olduğu kimi təbii əhəng daşı ilə olsa da, onun gövdəsində işlədilmiş həndəsi ornamentlər heç də Aşağı Gövhərağa məscidinin minarə bəzəklərinə uyğun deyil. Əsasən onlar Ağdam cümə məscidinin minarələrindəki həndəsi ornamentlərin bədii ideyasını davam etdirir. Minarələrin çardaq örtüyü ağac materiallarından quraşdırılıb. Onun son ucluğunu aypara şəkilli fiqur bəzəyir. Aşağı Gövhərağa məscidi 1992-ci il işğalından sonra ermənilər tərəfindən dağıdılmış, yalnız divarları salamatdır.



Saatlı məscidi

Saatlı məscidi

Saatlı məscidi 1883-cü ildə "Saatlı" məhəlləsində tikilib. Tikildiyi məhəllənin adı ilə məşhurlaşan "Saatlı" məscidi öz xarici görünüşü ilə əvvəlki məscidlərdən tamamilə fərqlənir. Lakin bununla yanaşı, "Saatlı" məscidinin bəzi konstruksiya elementləri əvvəlki məscidlərin memarlıq ənənələrini özündə saxlayırdı. Məscid minarələrinin ümumi quruluşu da Yuxarı Gövhərağa və Ağdam cümə məscidinin minarələrini yada salır. Şuşanın məhəllə məscidləri sırasında kompozisiya həllinə və xüsusilə minarəsinin olması ilə ön cərgədə duran "Saatlı" məscidi Kərbəlayi Səfixanın Qarabağda tikdiyi minarəli məscidlərin sonuncusu hesab olunur. Memarın bu bölgədə sonralar tikdiyi məscidlər minarəsiz olmuş və bəzilərinin yanında minarə çardağını xatırladan "Güldəstə"lər quraşdırılmışdır.

Ağdamın cümə məscidi

Bölgədə mühüm ticarət mərkəzinə çevrildiyi zaman Ağdam şəhərində Qarabağın özünəməxsus dini memarlığının monumental örnəklərindən biri inşa edilmişdir. Ağdamın cümə məscidi olan bu abidəni 1868-



Ağdam cümə məscidi

1870-ci illərdə bu dövr Qarabağ memarlığının aparıcı sənətkarı memar Kərbəlayi Səfixan Qarabaği ucaltmışdır.

Ağdam cümə məscidinin ibadət salonunun planının əsasını ortasında dörd sütun olan ənənəvi kvadrat forma təşkil edir. Kvadratın şərq və qərb tərəflərinin hər birində qurulmuş üç dərin taxça sırası salonun sahəsini genişləndirib ona düzbucaqlı forma vermişdir. İbadət salonunun cənub divarının ortasında uca mehrab tağçası quraşdırılıb. Yan tağçaların üstü interyerə yönələn eyvan şəklində olub qadınların ibadəti üçün nəzərdə tutulmuşdur. İbadət salonu yan eyvanların ortalarında və mehrab tağçasının yanla-



Ağdam cümə məscidi işğaldan sonra

rında olan pəncərələrdən işıqlanır. İbadət salonunun interyer tərtibatı çox ciddi olub kamil tektonik quruluşun bədii effekti ilə diqqəti cəlb edir. Sadə bəzəkli mehrab tağçasının üzərindəki kitabədə dekor ustasının adı (mərhum Kərbəlayi Nəqqaş Təbrizinin oğlu ustad Məhəmməd Nəqqaş Təbrizi) və təmir tarixi (hicri 1331, miladi 1913-cü il) yazılmışdır. Məscidin şimal tərəfindəki giriş qapısı dərin eyvan-bastağ içərisində verilmiş, açıq eyvanın yanlarında isə ikimərtəbəli otaqlar yerləşdirilmişdir. Şimal fasadın künclərində qurulan minarələr məscidin simmetrik plan quruluşunu tamamlamaqla, ona bütövlükdə kvadrat forma vermişdir. Məscidin klassik

sadəliyi, həndəsi forma təmizliyi ilə seçilən və funksional tələblərə mükəmməl cavab verən planı var. İç yerləşgələri günbəz, tağ və tağbəndlərlə örtülü olan məscidin daşdan tikilmiş kubik tutumu Qarabağ zonası üçün ənənəvi olan dördenişli bütöv çardaqla örtülmüşdür. Çardağın şimal fasada çıxan uclarından kərpic minarələr yüksəlir. Minarələrin incə silindrik tutumları üfüqi kəmərlərlə hissələrə bölünmüş və hər hissənin səthi kərpic hörgüsündən yaranmış sadə naxışlarla üzlənmişdir.

Ağdam məscidi ermənilər tərəfindən işğal edildiyi dövrdə çox ciddi dağıntılara məruz qalmışdır. Ermənistan Respublikasının müvafiq dövlət qurumları tərəfindən Ağdam məscidinin rəsmi şəkildə təhqir olunmasına və dağıdılmasına qərar verildiyi barədə erməni mətbuatından məlumatlar əldə edilmişdir. Məscidin minarələri daxildən tamamilə sökülmüş, tavanı bir neçə yerdən uçurdulmuş, daxili tərtibatı, dizayn və divar yazıları pozulmuş, hücrələri və yardımçı otaqları uçurdulmuş, kommunal və kommunikasiya xətləri dağıdılaraq tamamilə yararsız hala salınmışdır. Məscidin bəzək əşyaları, texniki avadanlıqları, qurğuları, bərk və yumşaq inventarları qarət edilmiş, daxili və xarici divarları üzərində erməni və rus dillərində Azərbaycan xalqına və millətinə qarşı alçaldıcı və təhqiredici ifadələr və sözlər yazılmışdır. Ermənilər hal-hazırda məscidin ibadət zalından və yardımçı otaqlarından mal-qara və donuzların saxlanması, yəni tövlə kimi istifadə edirlər.

Şahbulaq məscidi

Qarabağ məscidlərinin ən orijinal nümunələrindən biri də Ağdamın Şahbulaq deyilən ərazisində Pənah xan tərəfindən 1751-1752-ci illərdə tikdirilən məsciddir. Bütövlükdə, yerli əhəng daşı ilə inşa edilmiş Şahbulaq məscidi üçtağlı eyvandan və bir ibadət zalından ibarətdir. Eyvanın tağları mütənasib qamətli bir cüt daş sütunlara söykənir. Tavanı isə tağbənd şəklində tamamlanır. İbadət zalı kvadrat şəkilli olduğundan tavanı interyer tərəfdən günbəz şəklində tamamlanmış, bayır tərəfdən isə günbəz üzərinə yeni örtük materialları əlavə etməklə dam örtüyü ikiyamaclı formaya salınmışdır. Bu da təbii suların dərhal yanlara axmasına əlverişli şərait yaratmaq üçün idi. Ümumi divar hörgülərinin qalınlığı bir metrə çatan məscidin plan ölçüləri 9,38x7,18 metrdir.

Məscid maili yerdə inşa edildiyindən onun arxa tərəfdən dam örtüyünə qədər olan məsafəsi 4,37 m, baş fasad tərəfdən isə 5,40 metrə

qədərdir. Onu da xüsusi olaraq qeyd etmək olar ki, Şahbulaq məscidinin memarlıq baxımından belə sadə həlli sonralar Qarabağda çoxsaylı məscidlərin tikintisində bir örnək olmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ermənilər hal-hazırda bu məscidi tamamilə dağıdaraq yerində erməni kilsəsi inşa ediblər.

Paprəvənd məscidi

Ağdamın Paprəvənd kəndindəki məscid də plan etibarı ilə bir növ Şahbulaq məscidinin memarlıq quruluşunun davamı hesab olunur. Bütün tərəflərdən divarların qalınlığı 1,15 metr olan məscidin sütunsuz ibadət zalını oxvari şəkilli möhtəşəm günbəz tamamlayır. Ümumi ölçüləri 9,2 x 12,54 m.-dir. Paprəvənd məscidi XVII əsrin yadigarıdır. Məscid 1993-cü il iyul ayının 23-dən etibarən ermənilərin işğalı altındadır. İşğaldan sonra dağıdılaraq yerlə-yeksan edilib.

Dondarlı məscidi

Qubadlı rayonunun Dondarlı kəndindəki məscid yerli inşaat materialları ilə tikilmişdir və kənd klubunun qonşuluğunda yerləşir. Məscidin qapısı hündürlüyünə qədərki məsafədən bütün divarları boyu üfüqi səmtdə aparılmış relyefli qurşaq onu uzaqdan ikimərtəbəli kimi göstərir. Əslində bu, aldadıcıdır. Bina birmərtəbəlidir. Təqribən bir metrlik kürsü üzərində inşa edilib. Eni 2 metrə çatan eyvandan ibadət zalına birbaşa açılır. Giriş qapısı yuxarıdan yarımdairəvi tağbəndlə tamamlanır. Həmin qapının sol yanında kiçik ölçülü nişan var. Nişanın sağ və sol tərəflərində isə dairəvi formada daşlar qoyulub, üzərinə kitabələr yazılmışdır. Məscidin ibadət zalında dörd ədəd daş sütunlar qoyulub. Sütunlara kömək məqsədilə yan divarlar üzərində playstrlar quraşdırılmışdır. Onlar zalın üstünü örtən günbəzlərin daha da möhkəm (möhtəşəm) dayanıqlı olmasına şərait yaradır. Onun dam tərəfdən örtüyü isə Şuşa, Ağdam, Füzuli və s. şəhərlərin məscidlərində olduğu kimi, yamaclı formada həll edilmişdir. XVIII-XIX əsrin yadigarı olan Dondarlı məscidi Qarabağın qədim islam memarlığının gözəl nümunəsidir.

Dəmirçilər məscidi

Qubadlı rayonunun Dəmirçilər kəndindəki məscid də xarici görünüşü ilə Dondarlı məscidini yada salır. Lakin fərq ondadır ki, Dəmir-

çilər kəndindəki məscidin interyerində iki sütun qoyulub. Damında isə azan verən üçün "güldəstə" quraşdırılıb. Dondarlı məscidindən fərqli olaraq bu məscidin interyeri üç tərəfdən qoyulmuş bir cüt pəncərələrlə yaxşı işıqlandırılır. Bu məsciddə də tavan günbəzlə örtülüb, dam örtüyü yamaclı şəkildə tamamlanıb. XVIII və XIX yüzilliyin yadigarı olan Dəmirçilər məscidi də dövrümüzə qədər yaxşı vəziyyətdə gəlib çatıb.

Füzuli rayonunun məscidləri və digər ibadət yerləri

Qarabağın zaman etibarı ilə qədim məscidlərindən biri də Füzuli rayonunun Qarğabazar kəndində yerləşir. El arasında Şah Abbas məscidi kimi tanınan bu məscid elmi ədəbiyyatlarda Hacı Qiyasəddin məscidi kimi öz əksini tapıb. Çünki məscidin qapı çatı üzərindəki kitabədə aydınca yazılıb: "Bu məscidi Böyük Allahın mərhəmətli bəndəsi Hacı Qiyasəddin tikdirib h. t. 1095". Bu da miladi tarixi ilə 1683-84-cü ilə uyğundur. Hacı Qiyasəddin məscidi eyvansızdır. Tamamilə yerli daş materialları ilə bir zaldan ibarət tikilib. Dam örtüyü tağtavan şəklindədir.



Qarğabazar məscidi

Giriş qapısı nəzərə alınmasa, burada ağac materialından istifadə olunmayıb. Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilib. Onunla eyni dövrdə (XVII əsrdə) tikilən karvansara isə həmin təpənin cənubunda yerləşir. Karvansara və məscid konstruksiyasının memarlıq təhlili hər iki abidənin eyni memar tərəfindən tikildiyini söyləməyə imkan verir. Füzuli şəhərində, eləcə də bu rayonun digər kəndlərində də qədim məscidlər çoxdur.

Şeyx Babı məscidi

Babı kəndindəki məscid tək Füzuli rayonu üçün deyil, bütün Qarabağ bölgəsi üçün hələ ki, yeganəlik təşkil edir. Belə ki, Babı məscidinin inşaolunma tarixi XII-XIII yüzilliklərə bağlanır. Məscid Babı kənd məzarlığında yerləşir. Daha doğrusu, bu məzarlıqdakı Şeyx Babı Yaqubi türbəsinin qonşuluğundadır. Dövrümüzə qədər məscidin bir metr hündürlüyə malik olan daş kürsülüyü və bişmiş kərpiclə inşa edilmiş yarıuçuq minarəsi gəlib çatıb. Məscidin bünövrəsinin mərkəzi hissəsində dörd ədəd sütun altlıqları indi də qalıb. Sütun altlıqlarının ölçülərindən (2 x 2 m) görünür ki, onlar üzərində oturdulmuş günbəz çox möhtəşəm olmuşdur. Məscid girişinin sol tərəfindəki minarə yuxarı tərəfdən dağıdıldığından onun çardaq örtüyü haqqında fikir söyləmək çətindir. Lakin həmin məscidin yüksək keyfiyyətlə cilalanmış daş kürsülüyü və zərif gövdəli minarənin kompozisiya quruluşu burada dövrünün ustad memarı olan Qarabağlı Əli Məcdəddinin əl işlərini bir daha nümayiş etdirir. Bu baxımdan Şeyx Babı Yaqubinin qəbirüstü türbəsi, eləcə də onun cənub tərəfindəki hamamın yüksək bədii memarlıq həlli və inşaat texnikası da ustad memarın çox yüksək peşəkarlığa malik olmasını bir daha təsdiqləyir.

Füzulinin epiqrafik abidələri

Bu abidələr sırasına Füzuli rayonunun Babı kəndində yerləşən səkkiz guşəli Şeyx Babı Yaqubi (XIII əsr) türbəsini aid etmək olar. Füzulinin Əhmədallar kəndində orta əsr qəbiristanlığının yerində sənduqə formalı qəbir daşı qalıb. Qarğabazar kəndində, "Şah Abbas" karvansarasından yuxarı, qayanın üstündə "Qiyasəddin" məscidi durur. Yerli əhali onu "Şah Abbas" məscidi adlandırırdı. Kənddə yerləşən bulağın üzərində üçsətirli ərəbdilli yazı var. Yazıda deyilir ki, bulağı 1305-ci ildə Gəncəli Əmir Qarğabazarlının oğlu tikdirib. Füzulinin işğal altında qalan ibadət ocaqları:

Qarğabazar kəndində məscid (XVII əsr);
Qarğabazar kəndində Cəlil türbəsi (XVIII əsr);
Aşağı Veysəlli kəndində Mirali türbəsi (XIII əsr);
Qoçəhmədli kəndində məscid (XVIII əsr);
Horadiz kəndində məscid (XIX əsr);
Horadiz kəndində İmamzadə türbəsi (XIX əsr);
Füzuli şəhərində məscid (XIX əsr);
Aşağı Aybasandı kəndində İbrahim türbəsi (XVIII əsr);
Qacar kəndində məscid (XIX əsr);
Böyük Pirəhmədli kəndində məscid (XIX əsr);
Merdinli kəndində məscid (XIX əsr).

Cəbrayıl rayonunun məscidləri və digər ibadət yerləri

Cəbrayılda 15 məscid və 16 uyğunlaşdırılmış məscid mövcud olub. Cəbrayılın Çələbilər kəndi ərazisində tikintisi XVI əsrə aid olan əzəmətli bir məscid-mədrəsə də var. Məhəmməd İbn Hacı Qaraman Əhmədli tərəfindən hicri 1088, miladi 1678-ci ildə tikilib. Dini və dünyəvi elmlərin tədris edildiyi bu məscid-mədrəsədə ən böyük din xadimləri və alimlər dərs deyiblər. XVIII əsr məşhur Azərbaycan klassik şairi Molla Vəli Vidadi də bu mədrəsədə müəllimlik edib. Məscid kompleksi ərazisində xüsusi otaqlar, hücrələr olub ki, bu hücrələrdə şagirdlərə dərs verilib. Dağlıq Qarabağ hadisələri başlamamış bu məscid-mədrəsə kompleksi yüksək səviyyədə bərpa olunub, ilkin formasına gətirilib.

Laçın rayonunun məscidləri və digər ibadət yerləri

Qaragöl yaylaq məscidi

Laçının Qaragöl yaylağında minarəsiz məscid uzun illər xalqın xidmətində olmuş və bu gün də onların xatirələrində yaşamaqdadır. Bu məscid həm də yay aylarında Laçın yaylaqlarına gələn elatın ibadət yeri

idi. İşğaldan sonra məscid ermənilər tərəfindən tamamilə sökülüb məhv edilmişdir.

Laçın rayonunun digər inanc yerləri

Alı Xəlifə ocağı Laçın rayonunun Böyük Seyidlər kəndində yerləşir. Alı Xəlifə Qarabağın ən nüfuzlu ağsaqqallarından, ağır seyidlərdən biri idi. Ağa Böyük Seyidlər kəndində rəhmətə gedib. Sərdabəsi kənd qəbiristanlığındadır. Onun müqəddəs məzarı Qarabağ camaatının ən ulu səcdəgahlarından biridir.

Seyid Hüseyn ağa ziyarətgahı

Bu ziyarətgah Laçın rayonunun Böyük Seyidlər kəndində yerləşirdi. Seyid Hüseyn ağa cəddinin müqəddəsliyini qoruyub saxlayaraq insanların rəğbətini qazanmış və onların ziyarətgahına çevrilmişdi. Ağanın evinə və ocağına olan inamın müqabilində külli miqdarda nəzir gələr, o isə nəzirin bir hissəsini onların özünə qaytarar, digər hissəsini isə fağır-füğaraya paylayardı.

Güllü qəbir piri

Bu pir Laçın rayonunun Böyük Seyidlər kəndində yerləşirdi. Hacı İbrahim ağa Qarabağın adlı-sanlı seyidlərindən olan Xudavəndə Xəlifənin nəvəsi idi. Hacı Seyid İbrahim ağanın məzarı Seyidlər kəndinin qəbiristanlığındadır və ağır ziyarətgahlardan sayılır. Ağanın ocağında qızılgül bitmişdi. Elə ona görə də məzarına "Güllü qəbir" deyirlər.

Laçının digər ibadət ocaqları

"Hacı İbrahim ağa" ziyarətgahı, Piçənis kəndi
"Seyid Cabbar ağa" ziyarətgahı, Molla Əhmədli kəndi
"Seyid Fərman ağa" ziyarətgahı, Minkənd kəndi
"Seyid Sadıq ağa" ziyarətgahı, (Qara Seyid) Qovuşuq kəndi
"Sultan baba" türbəsi, Zeyvə kəndi
"Məlik Əjdər" türbəsi, Cicimli kəndi
"Qarasaqqal" türbəsi, Ərikli kəndi
"Xəlifə" türbəsi, Malxələf kəndi

Zəngilan rayonunun məscidləri və digər ibadət yerləri

Zəngilan şəhərində yerləşən XVII-XVIII əsrlərə aid edilən bu məscidin Səfəvilər dövründə tikilməsi güman olunur. Ölçüləri 12x20 m olan abidənin içərisində mehrab və taxça var idi. Tikintidə əsasən yerli əhəng daşından istifadə olunmuşdur. Divarlar üzlənməmişdir. Məscidin qapısı günçıxana açılırdı. Qapısı tağformalı idi. Onun üst tərəfində kitabə var idi. Məscid "İmam Hüseyn" adını daşıyıb.

Rayonun Bartaz, Sobu, Baharlı, Qıraq Müşlan, Malatkeşin, Şəfibəyli kəndlərində, Mincivan qəsəbəsində də məscidlər var idi. Məscidlər 1990-cı ildən etibarən yenidən bərpa edilib. Zəngilanda Malatkeşin və Qıraq Müşlan kəndlərində yerləşən, XVII- XVIII əsrə aid olan məscidlər olub.

Kəlbəcərin ibadət yerləri

Kəlbəcər şəhərində məscid var idi. Düzdür, indi həmin məscidin aqibəti barədə heç bir dəqiq məlumat olmasa da, ermənilərin orada donuz saxladığı barədə xəbərlər var. Bundan başqa, Kəlbəcərin Başlıbel, Otaqlı və bir çox kəndlərində məscidlər olub. Amma Kəlbəcər rayonu ziyarətgahları ilə də məşhurdur: Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı, Başlıbel yaylağında Seyid Əlabbas ağanın ziyarətgahı.



Kəlbəcərin ibadət yerləri

İşğal altındakı ərazilərdə monumental incəsənət nümunələrinin və islam dini abidələrinin ermənilər tərəfindən dağıdılmasının səbəbləri

"Əgər Rus dövləti və xalqı olmasaydı bu gün Ermənistan mövcud olmazdı"
Sergey Makarov, Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru
(15 yanvar 2015-ci il. Vesti.az saytı).

"İrəvanın sadəcə 500 yaşı var və o, 1918-ci ildə məhz Rusiyanın köməkliyi ilə Ermənistanın paytaxtı olub. Buna qədər isə həmin ərazi İrəvan xanlığının mərkəzi idi. Tarix isə hələ də heç bir erməni imperiyası tanımır və əgər 1918-ci ilə qədər Qafqazda erməni dövləti olubsa, o zaman onun hara itməsindən tarixçilər niyə indiyə qədər baş çıxara bilmir?"
Rusiyalı politoloq Modest Kolerovun telemüsahibəsindən
(16 yanvar 2016-cı il. Ocaq TV).

Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması Azərbaycanın dövlət qanunvericiliyinin yaratdığı şərait çərçivəsində dövlət orqanlarının, hüquqi şəxslərin və vətəndaş cəmiyyəti üzvlərinin gündəlik vəzifələrinə çevrilməlidir. Azərbaycanın işğal altındakı ərazilərində erməni vandalizminin qarşısını almaq üçün beynəlxalq təşkilatların vasitəsilə abidələrin mühafizə edilməsinə nəzarət işləri həyata keçirilməlidir. Çünki Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur. Bundan ermənilərin əsas məqsədi işğal altında saxladıqları ərazilərdən Azərbaycan tarixini silməklə özlərini bu torpaqların qanuni sahibləri kimi təqdim etməkdir. Halbuki bu yolla onlar 1918-1923-cü illərdə Qərbi Azərbaycan ərazilərində Ermənistan adlı dövlət yaratdılar. 1988-1991-ci illərdə isə azərbaycanlılara qarşı etnik təmizləmə apararaq Ermənistanı təkmillətli respublikaya çevirdilər.

Azərbaycanın işğal altında olan ərazilərini özəlləşdirdiyini düşünən Ermənistanın siyasi dairələri artıq bu əraziləri tarixi və mədəni baxımdan da ermənilərşdirmək üçün illərdir ki, ardıcıl və davamlı fəaliyyət planı həyata keçirir. Bu fəaliyyət planına:

- Toponimlərin, yerlərin-yurdların və inzibati yaşayış mərkəzlərinin adlarının dəyişdirilməsi;
- Tarixi şəxsiyyətlərin, o cümlədən, dövlət xadimlərinin, hərbi xadimlərin, Sovet İttifaqı Qəhrəmanlarının, Milli Qəhrəmanların, görkəmli elm və incəsənət xadimlərinin həyatı ilə bağlı qurmalar və mənzillər üzərindən azərbaycanlıların adlarının ləğv edilərək milliyyətcə erməni vətəndaşların adları ilə əvəz edilməsi;
- Monumental abidələrin və xatirə nişanlarının, Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı olan məşhurların həyatlarını əks etdirən lövhələrin, heykəltəraşlıq əsərlərinin sökülərək erməni mədəniyyətinin nümunələri və heykəlləri ilə əvəzlənməsi;
- İslam dini abidələrinin, o cümlədən qəbiristanlıqların, qəbirüstü abidələrin, qəbir daşlarının tamamilə dağıdılaraq yerlə-yeksan edilməsi;
- Memarlıq abidələri üzərindən türk simvollarının və digər bədii daş nümunələrinin məhv edilməsi və ya götürülərək ərazidən çıxarılması işləri və s. daxildir.

Ermənilərin bu cür vandallıq siyasəti nəticəsində işğal altındakı ərazilərdə Azərbaycanın çox böyük sayda monumental incəsənət abidələri, tarixi abidələri və islam dövrü abidələri məhv edilərək tamamilə sıradan çıxarılmışdır. Ərazidə baş alıb gedən bu cür özbaşınalıqları və vandallıq hərəkətlərini bir çox erməni ekspertləri, analitikləri və jurnalistləri də dolayısı ilə etiraf edir, hadisələrin baş verdiyi yerlərdən sökülmüş və dağıdılmış abidələrin görüntülərini yaymaqla ermənilərin bu ərazilərdə vandallıq etdiklərini təsdiq edir və bilərəkdənmi, ya bilməyərəkdənmi bizim iddialarımıza haqq qazandırırlar.

Nəzarətsiz qalmış ərazilərdə tarix və mədəniyyət abidələrinin korlanmasına və ya tamamilə məhv olub dağılmasına ermənilərin vandallıq hərəkətlərindən başqa, digər hallar da səbəb ola bilər. Məsələn, Azərbaycanın nəzarətindən kənarda qalan erməni işğalı altındakı ərazilərdə yaşayış massivlərindən uzaqlarda olan abidələrin korlanmasına təbiət hadisələri, o cümlədən torpaq sürüşmələri, zəlzələlər, aşınmalar, leysan yağışları səbəbindən uçquntular, ildırım vurmaları, eləcə də böyük yaşayış

massivlərində, yəni sənaye müəssisələri yerləşən ərazilərdə aparılan abadlıq-quruculuq işləri, tamah məqsədilə abidə ətrafında icazəsiz qazıntı aparılması işləri və digər hadisələr də səbəb ola bilər.

Problem ondadır ki, təbiət hadisələri nəticəsində uçulmuş abidələrin tikinti quruluşlarına, ornamental və bədii işləmələrinə, divar yazılarına o qədər də zərər dəymir. Belə ki, təbiət hadisələri nəticəsində uçulmuş abidələrin bərpası zamanı abidəyə aid ornamental nümumələr və kənardan hörgü daşlarının axtarılması tələb olunmur. İşğalçılıq faktından istifadə edilərək abidələrə qarşı məqsədli şəkildə tətbiq edilən vandalizm aktları nəticəsində isə abidənin forma cəhətdən görünüşü tamamilə dəyişərək onun mövcudluğu şübhə altına alınır. Buna misal olaraq Ağdam şəhərinin bağ və parklarında olan heykəltəraşlıq nümunələrini, xatirə abidələrini, Şuşa şəhərindəki böyük tarixi əhəmiyyətə malik bina və qurğuları, M.P.Vaqifin xatirə kompleksini, Laçın rayonunun Güləbird kəndindəki Azərbaycanın bayatı janrının ustadı Sarı Aşığın və Laçın şəhərinin mərkəzində tikilmiş Böyük Vətən Müharibəsi iştirakçılarının xatirə abidələrini göstərmək olar. Bütün bunların əvəzində isə ermənilər Şuşa, Laçın, Kəlbəcər, Xankəndi, Hadrut, Martuni, Qubadlı ərazilərində birinci Qarabağ döyüşlərində fərqlənən erməni terrorçularının xatirələrini əbədiləşdirmək üçün xatirə abidələri tikir, kriminal aləmdə tanınmış ermənilərin heykəllərini ucaldırlar.

İşğal altındakı inzibati yaşayış mərkəzlərdə azərbaycanlılara məxsus mövcud olmuş heykəllərin ermənilər tərəfindən dağıdılması onların özlərinə məxsus üsulla həyata keçirilir. Belə ki, heykəli əvvəlcə kiçik hissəciklərə bölür, sonra isə bir neçə yüzmetr ərazidə ətrafa səpələyirlər. Ona görə ki, bu hissələrin nə vaxtsa bir yerə toplanması ilə yenidən abidənin bərpası mümkün olmasın. Monumental xatirə abidələrini isə əksər hallarda sökmür, abidənin üzərindən lövhələri və barelyefləri çıxararaq erməni dilində yazı lövhələri və barelyeflərlə əvəz edirlər.

Dağlıq Qarabağ və yeddi ətraf rayonu etnik təmizləməyə məruz qoyan Ermənistan hökuməti bir daha bu ərazilərdə azərbaycanlıların yaşamayacaqlarına özlərini inandırmağa çalışırlar. Məhz bu səbəbdən də bir zamanlar etnik təmizləməyə məruz qoyduqları ərazilərdə azərbaycanlılar yaşamış kənd və şəhərlərin xarabalıqlarında və turizm üçün əlverişli yerlərdə erməni xaçları ilə bəzədilmiş monumental incəsənət abidələrinin tikintilərini ilbəil genişləndirirlər. Bundan məqsəd gələcək nəsillərə bu ərazilərin tarixi erməni torpaqları olması görüntüsünü yaratmaqdır. Dağıdılan Azərbaycan mədəniyyəti fonunda bu mənzərələrin yaradılması acınacaqlı və olduqca təhlükəlidir.

Təcavüz nəticəsində işğala məruz qalan ərazilərdə tarixən mövcud olmuş mədəni dəyərlərin qorunması və eləcə də memarlıq, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsi və onlara dəymiş zərərlərin qiymətləndirilməsi bu gün Azərbaycan xalqının qarşısında təxirəsalınmaz bir vəzifə kimi durur. 2012-ci ildə Parisdə keçirilən YUNESKO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsinin 8-ci sessiyası çərçivəsində işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında qəbul edilən sənəd imkan verir ki, Azərbaycan Ermənistana qarşı törətdiyi cinayətlərə görə beynəlxalq təşkilatlar vasitəsi ilə sanksyaların tətbiq edilməsini tələb etsin.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verilən məlumata görə, işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması məsələsinin YUNESKO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsi tərəfindən müzakirə edilməsinə 2012-ci ildə Azərbaycan tərəfindən təşəbbüs göstərilib və 2012-ci ilin qərarına əsasən, Katiblik tərəfindən işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunmasına aid müvafiq sənədin hazırlanması tələb edilib. Katiblik tərəfindən hazırlanan sənəddə Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası və onun iki protokolunda işğal edilmiş ərazilərə aid müddəaların hüquqi təhlili, həmin müddəaların həyata keçirilməsi mexanizmləri və digər aspektlər yer alıb.

Ermənistan xarici siyasətinin çox təhlükəli məqamlarından biri son zamanlar ermənilər tərəfindən Azərbaycanın milli-mədəni dəyərlərinin mənimsənilməsi prosesinin daha da gücləndirilməsidir. Artıq dünyanın əksər aparıcı dövlətlərinin sərgi pavilyonlarında Azərbaycan mətbəxinin bir çox nümunələri erməni məhsulları kimi nümayiş etdirilir. Bir çox ölkələrdə isə Azərbaycan xalqına məxsus rəsm əsərləri, bəzək əşyaları, bədii toxuculuq sənəti nümunələri, təsviri sənət nümunələri, mozaikalar, əlyazmalar, vitrajlar (rənglı şüşələrdən düzəldilmiş şəkil və ya naxışlar) musiqi əsərləri, musiqi alətləri və s. ermənilərin milli-mədəni dəyərləri kimi təqdim edilir. Bütün bunların qarşısı vaxtında alınmasa, getdikcə daha təhlükəli bir prosesə çevriləcəkdir.

Erməni vandalizminin geniş vüsət aldığı indiki şəraitdə işğal altındakı ərazilərdə tarixi mədəni irsin tədqiqi zəruridir. Müasir şəraitdə Qarabağ abidələrinin Azərbaycan mədəniyyətinin inkişafında böyük əhəmiyyətini nəzərə alaraq, işğal altındakı abidələrin xüsusiyyətlərinin öyrənilməsinin vacibliyi indi daha çox hiss olunur. Qarabağ abidələrinin, bütün Azərbaycan xalqının həyat fəlsəfəsində müsbət keyfiyyət müəyyən edən bədii-obrazların tədqiqinin zəruriliyi də xüsusi qeyd olunmalıdır. Erməni əsirliyində olan milli-mədəni dəyərlərimiz müasir dövrdə Azərbaycanın tarixi mədəni irs potensialının əsasını təşkil etdiyi gənc nəslin diqqətinə çatdırılmalıdır.

Memarlıq irsinin, onun xassələrinin və dəyər göstəricilərinin öyrənilməsi cari dövrün əsas məsələsi olmaqla nəzəri və praktik fəaliyyətin mövcud nəticələrinin ciddi təhlilini tələb edir. İşğal altında qalan tarix və mədəniyyət abidələrinə dəyən zərərlərin qiymətləndirilməsinin müasir problemləri xüsusən diqqəti cəlb edir. İşğal altındakı tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi təcrübəsi demək olar ki, həmişə bir sıra həll edilməmiş problemlərlə üzləşir. Bu gün həm də sübut etməyə ehtiyac yoxdur ki, memarlıq irsindən istifadə onun saxlanılmasının ən yaxşı üsullarından biridir.

Memarlıq abidələri dedikdə, öz həcm-plan həllini kifayət qədər saxlayan qurmalar, müxtəlif təyinatlı memarlıq-inşaat binaları, yardımçı obyektlər, mühəndis kommunikasiyaları başa düşülür. Bu qrupa qalalar, siklop tipli memarlıq abidələri, körpülər, karvansaraylar, malikanələr, saraylar, məscidlər, türbələr, su dəyirmanları, kahalar, qara damlar və ev damları; sovməələr, bazilikalar, kilsələr və monastırlar; xüsusi quruluşa malik fərdi evlər, hərbi istehkamlar, mədəniyyət sarayları, ictimai binalar, ticarət mərkəzləri; elm, təhsil və nəqliyyat müəssisələrinin binaları, o cümlədən heykəllər, qəbirüstü abidələr, bədii incəsənət nümunələri və s. daxildir.

Memarlıq abidələri içərisində ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalan islam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləri olmuşdur. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4 məscid isə qismən dağıdılaraq yararsız hala salınmışdır. Beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Satlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olmuşdur. Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdirirlər. Onlar qəbiristanlıqların mərmər daşlarını söküb formalarını dəyişərək Xankəndi, Hadrut, Əsgəran, Laçın və Martuni qəsəbələrində inşa etdikləri bağ və parklarda bəzək daşları kimi istifadə edirlər. Bunun da nəticəsində yüzlərlə qəbiristanlıq dağıdılmış və minlərlə qəbir tanınılmaz hala salınmışdır.

Məhz bu səbəblərdən erməni işğalı altında qalan bu abidələrə dəyən zərərlərin qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır və bu qiymətləndirmədən sonra xalqın mənəviyyatına vurulan zərərlərin həcminin nə dərəcədə böyük olduğunu dərk etmək o qədər də çətin olmayacaqdır. Bunun üçün işğal altındakı tarix və mədəniyyət abidələrinə dəymiş zərərin qiymətləndirilməsi metodologiyası hazırlanarsa, bu, Azərbaycan praktikasında ilk dəfə həyata keçirilən hadisə olacaqdır.

Aydındır ki, Ermənistanın Azərbaycana vurduğu maddi və mənəvi zərərin tam həcmdə ödənilməsi zəruridir. Belə ki, beynəlxalq hüquqa görə, məsuliyyət daşıyan dövlət özünün hüquqazidd əməli ilə digər dövlətə vurmuş olduğu ziyanı tam həcmdə ödəməlidir.

Abidələrə dəymiş zərərin müəyyənləşdirilməsi qaydaları

İşğal altındakı tarix və mədəniyyət abidələrinin qiymətləndirilməsi metodologiyası Azərbaycan praktikasında ilk dəfədir ki həyata keçirilir. Abidələrin qiymətləndirilməsi Beynəlxalq Qiymət Standartlarına uyğun



Xocavənd rayonundakı Amaras məbədinin interyerindən fraqmentlər

aparılır. Təbii ki, müharibə amili işğal altındakı ərazilərdə qiymətləndirmə zamanı oradakı abidələrə baxış keçirilməsinə mane olur. Lakin qiymətləndiricilər bu proses zamanı abidənin daxili və ya xarici interyerində bədii-obraz keyfiyyətinin mürəkkəbliyini müəyyənləşdirmək üçün abidənin memarlıq xüsususiyyətləri və tikinti üslubu üzərində təhlillər aparırlar, xarici ölkə arxivlərini və digər informasiya mənbələrini araşdırır, eləcə də kosmosdan müşahidələr aparmaqla öz məqsədlərinə nail olurlar.

Ümumiyyətlə, abidələrin zədələnməsinə, korlanmasına və ya tamamilə məhv olmasına müharibə amili nəticəsində abidələrə qarşı tətbiq edilən vandalizm hərəkətlərindən başqa, digər hallar da səbəb ola bilər, məsələn:

- Ölkələrdə sivilizasiyaların və tarixi proseslərin dəyişməsi, ölkənin işğal edilməsi;
- Müxtəlif təbiət hadisələri, o cümlədən ildırım vurmaları;
- Torpaq aşınmaları;
- Zəlzələlər və s.;
- Böyük yaşayış massivlərində, eləcə də sənaye şəhərlərində aparılan abadlıq-quruculuq işləri abidələrin dağılmasına, korlanmasına və ya tamamilə məhv olmasına səbəb ola bilər.



Laçın rayonu, Hüsülü kəndi. Həmzəsoltan sarayının baş planı

Hətta sülh dövründə abidələr nəzarətsiz qaldıqda, abidə ətrafında özbaşına aparılan abadlıq-quruculuq işləri, binaların və ya ticarət obyektlərinin tikilməsi, abidələrdən tamah məqsədilə istifadə edilməsi və ya tamah məqsədilə abidə ətrafında icazəsiz qazıntı işləri aparılması da yolverilməzdir. Bu hallar abidələrin korlanmasına və tez sıradan çıxmasına səbəb olur.

Bir qayda olaraq Azərbaycanın işğal altındakı tarix və mədəniyyət abidələrinin korlanmasına və ya tamamilə məhv olmasına, sıradan çıxmasına yuxarıda sadalanan halların ayrı-ayrılıqda hər biri səbəb ola bilər. Məsələn, işğal altındakı ərazilərdə azərbaycanlıların inanc yerlərinin, islam dini abidələrinin dağıdılıb məhv edilməsini planlı şəkildə ermənilər həyata keçirirlərsə, yaşayış massivlərindən uzaqlarda, dağ gədiklərində, ucqarlarda nəzarətdən kənarda qalan xristianlığaqədər və ya xristianlıq dövrü abidələrinin korlanmasını təbiət hadisələri sürətləndirir. İşğal altındakı inzibati yaşayış mərkəzlərində yerləşən xristianlıq dövrü abidələrinin korlanmasına və formalarının dəyişməsinə isə ermənilərin həyata keçirdikləri ermənilərşdirilmə siyasəti və qeyri-qanuni bərpa və quruculuq işləri səbəb olur.

Sirr deyildir ki, işğal altındakı ərazilərdə mədəni irs potensialının əsasını arxeoloji abidələr təşkil edir. İşğal altındakı ərazilərdə arxeoloji abidələrin çoxluğu dəyərli obyektlərin xüsusi ümumiləşdirmə və sistemləşdirmə yolu ilə tədqiq edilməsi şəraitini tələb edir. Nəzərə almaq lazımdır ki, işğal altındakı ərazilərdə arxeoloji abidələr ermənilər tərəfindən xüsusi qəddarlıqla istismara məruz qaldığından, onların bir çoxu tamamilə məhv edilərək artıq coğrafi xəritədən silinmişdir. Buna misal olaraq Xocalı rayonundakı Xocalı, Əsgəran, Xankəndi kurqanlarını, Ağdam rayonunun Kültəpə kurqanlarını, Laçın, Kəlbəcər rayonları ərazilərindəki onlarca kurqanları ermənilər tamamilə dağıdaraq hətta coğrafi xəritədən belə siliblər. Qeyri-qanuni qazıntılar zamanı kurqanlardan tapılan bir çox məişət əşyaları, bəzəklər və ov alətləri Azərbaycan ərazilərindən çıxarılaraq Ermənistana daşınıb aparılmışdır. Ermənilər tərəfindən Azərbaycandan çıxarılan daşınan tarix və mədəniyyət abidələrinin ümumilikdə dəyəri yüz milyardlarla manat vəsaitlə ölçülür. Dağıdılan arxeoloji abidələrin sayı isə hələlik dəqiq məlum deyil.

İnsanın fəaliyyəti ilə əlaqədar yer altında qalan maddi mədəniyyət nümunələrinin olduğu güman edilən ərazilər arxeoloji abidələr sahəsinə daxildir:

- Qədim yaşayış məskənləri, ibtidai insan düşərgələri, mağaralar, eləcə də kənd və şəhər qalıqları, qədim müdafiə sistemləri və istehkamlar, daş və torpaq sədlər, o cümlədən ağac və ya daşdan tikilmiş qədim mühafizə divarlarının qalıqları;
- Dini xarakterli ərazilər, yəni ziyarətgahlar, qədim məbəd və monastırların qalıqları, dini ibadət komplekslərinin qalıqları, dini mərasimlərin keçirildiyi güman edilən ərazilər;
- Qədim qəbiristanlar, dini xatirə abidələri, digər dəfn yerləri, o cümlədən kurqanlar və torpaq qəbirlər kompleksləri, küp qəbirlər;
- Qədim təsərrüfat yerlərinin qalıqları, o cümlədən hər cür qədim əşyalar, qaya və daş üzərində təsvirlər və yazılar, ovçuluqla bağlı yerlər, ərazilər və izlərin qalıqları, heyvandarlıq, əkinçilik və sənətkarlıqla bağlı ərazilər, qədim mədənlərin istismar izləri, əmək alətləri, istehsalat kürələri, tikinti qalıqları, hidrotexniki qurğuların qalıqları (nohurlar, arxlar, ovdan və kəhrizlər, su kəmərləri, kürəbəndlər və s.), nəqliyyat xətləri, tikintilər və yaşayış məskənləri (qədim yollar, körpü qalıqları, və s.).

Bir qayda olaraq, arxeoloji abidələrin mahiyyəti, çoxplanlılığı, eləcə də digər aktual məsələləri müasir şəraitdə arxeoloji irs obyektlərinin informasiya və funksional xassələri ilə şərtlənən əhəmiyyətliliyini artırır. Qeyd olunanları təhlil edərək demək olar ki, arxeoloji abidələrin tədqiqinin və qiymətləndirilməsinin əsas istiqamətləri:

- Abidənin informasiya mənbəyi,
- Tamaşaçıya estetik təsirliliyi,
- İnsan fəaliyyətinin müasir mühitinin təşkili üçün baza obyekti olmaq qabiliyyətidir.

Gəldiyimiz ümumi qənaətə görə, beynəlxalq qiymətləndirmə standartlarına uyğun olaraq, arxeoloji abidələrin dəyərinin hesablanması üçün aşağıdakı düsturdan istifadə edilməsi məqsədəuyğun hesab olunur:

$$D = Dan\ (K0 + K1 + K2 + K3)$$

Burada **Dan** - analoq arxeoloji abidələrin dəyəri (yaxud bərpa dəyəri), **K0** - aşağıdakı kəmiyyətlərlə ölçülən mühafizə əmsalıdır:

- Obyekt qeydiyyata alınmamışdır;
- Obyekt müvəqqəti qeydiyyata alınmışdır;
- 5- Obyekt pasportlanmışdır;

- 100- obyekt muzeyləşdirilmişdir. Təsdiq olunmuş mühafizə zonası sərhədlərində şəhər mədəni təbəqəsi üçün də əmsal bu kəmiyyətə bərabər olur;

- 1000- abidə ümumdünya irs obyektidir;

- K1 - tarixilik əmsalıdır. Tarixilik abidənin yarandığı dövrün ideya və meyillərini özündə əks etdirir və onun hansı dövrə aid olmasını müəyyən edir. Bundan əlavə, abidənin hər hansı tarixi hadisə, yaxud tarixi şəxsiyyətlə bağlılığı da uçota alına bilər. Eyni zamanda, abidənin tarixi, monumental və tətbiqi incəsənət, eləcə də, maddi-mədəniyyət nümunəsi olması aşkar edilə bilər;

- K2 - arxeoloji abidənin materialını uçota alan əmsaldır.

Abidənin materialı aşağıdakıları müəyyən edir:

- Obyektin yaradılmasında funksional məsələlərin həlli, tipoloji tərəqqinin öz əksini tapması, konstruktiv və həcm həllinin səmərəliliyi;

- Obyektin bu və ya digər ustanın, memarın yaradıcılıq irsinə mənsubluğu;

- K3 - arxeoloji abidənin yerləşdiyi ərazini uçota alan əmsaldır. O, bəşəriyyətin yaranması və yaşaması yerini müəyyən edir.

Arxeoloji abidələrin tarixiliyi və dəyər göstəricilərini uçota alan əmsalları müəyyən etdikdən sonra istər-istəməz arxeoloji irsin qiymətləndirilməsinin əsasları aşkar olunacaqdır.

Bu mərhələdən sonra ekspertlər arasında abidənin dəyərinin (yaxud bərpa dəyərinin) müəyyənləşdirilməsi barədə sorğu aparıla bilər. Ekspert qismində əsasən arxeoloqlar, tarixçilər, memarlar, dizaynerlər, bərpaçılar, qiymətləndiricilər və s. dəvət oluna bilərlər.

Qeyd edilməlidir ki, bu tip sorğuların aparılması metodundan artıq bir sıra ölkələrdə istifadə edilmişdir. Bu cür sorğular əsasən, ekspertin arxeoloji abidəyə xas olan dəyər göstəricilərini 100 ballıq şkala ilə qiymətləndirməli olduğu anket əsasında aparılır. Belə sorğular və qiymətləndirmələr nəinki təkcə işğal altındakı abidələr, eyni zamanda respublika üzrə arxeoloji abidələrin qiymətləndirilməsi üçün də istifadə oluna bilər. Ekspert sorğusunun nəticələri üzrə arxeoloji abidələrin dəyər göstəriciləri sxemi təqribən aşağıdakı kimi sistemləşdirilir:

	Meyarlar	Göstəricilər	Müxtəlif dövrlər üçün əmsalların kəmiyyətləri					
			Paleolit	Mezolit	Neolit	Eneolit	Dəmir dövrü	Tunc dövrü
1	Tarixilik (K_1)	-	38,0	32,0	26,0	22,0	20,0	
2	Abidənin materialı	Təbii	3,0	3,0	4,0	6,0	7,0	7,0
		Ağac	5,0	5,5	6,0	8,0	9,0	9,0
		Metal	7,5	9,0	10,0	10,0	10,0	10,0
		Keramika	9,0	10,0	11,0	11,0	11,0	11,0
		Pambıq parça, yaxud lif	10,0	12,0	13,0	13,0	13,0	13,0
		Dəri	12,0	13,0	14,0	14,0	14,0	15,0
3	Abidənin tapıldığı, yaxud yerləşdiyi yer (K_3)	Bakı-Abşeron	2,5	2,5	2,5	2,5	2,5	2,5
		Dağlıq Qarabağ	1,5	1,5	1,5	1,5	1,5	1,5
		Naxçıvan MR	1,5	1,5	1,5	1,5	1,5	1,5
		Şirvan iqtisadi rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Laçın rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Kəlbəcər rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Zəngilan rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Qubadlı rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Ağdam rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Cəbrayıl rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Füzuli rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Gəncə-Qazax iqtisadi rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Aran iqtisadi rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
		Arazboyu iqtisadi rayonu	1,0	1,0	1,0	1,0	1,0	1,0
4	**Yekun**	**100**	**100**	**100**	**100**	**100**	**100**	**100**

Beynəlxalq standartlara uyğun qiymətləndirməyə nümunə kimi belə bir misal göstərmək olar. Məsələn, ermənilərin Ağdam rayonunun Şahbulaq ərazisində apardıqları qeyri-qanuni qazıntılar nəticəsində eneolit dövrünə aid keramik qab aşkar olunuşdur. Bu qabı qiymətləndirmək, yəni onun dəyərini müəyyənləşdirmək lazımdır.

Hesab etsək ki, keramik qabın bazar qiymətləri ilə bərpa dəyəri 3500 manatdır, onda cədvəl məlumatlarını göstərdiyimiz düsturda yerinə qoysaq,

D=3500(5+22+11+1,5)=138250 manat

Bu hesablama əslində nəzəri və praktiki səylərin nəticələri müasir şəraitdə mütəxəssislər tərəfindən saxlanılma və istifadə predmetləri kimi müəyyən edilən xüsusiyyətlər barədə fikir yürütməyə əsas verir. Eyni zamanda, ermənilərin Azərbaycan ərazilərindən qarət edib apardıqları minlərlə eksponatın da qiymətləndirilməsinə şərait yaradır.

Azərbaycanda arxeoloji abidələrin qeydiyyata alınması və mühafizəsi dövlət orqanlarının səlahiyyətindədir. Lakin, yüzlərlə abidə Ermənistanın işğalı altına düşdüyündən dövlət faktiki olaraq bu abidələr üzərində nəzarət mexanizmini itirmişdir. Müasir dövrdə beynəlxalq aləmdə arxeoloji abidələr üçün ümumi qəbul edilmiş terminologiya formalaşmışdır ki, onun da əsasını funksional və tarixi-xronoloji prinsiplər təşkil edir.

İşğal altındakı arxeoloji abidələrin morfoloji tiplərinin aşkar edilməsi, onların forma və strukturunun təhlili əslində bu mərhələyə qədər bir çox tədqiqatçıların işlərində nəzərdən keçirilmişdir. Əldə olunan qənaətə görə, işğal altındakı arxeoloji abidələrin beynəlxalq standartlara uyğun iqtisadi qiymətləndirilməsi obyektin təsnifat əlamətlərinin bazasında bu və ya digər tipə aid edilməsinin real əsaslandırılmasından asılıdır. İşlənilmiş təsnifatdan istifadə, qiymətləndirmə prosesinin ilkin mərhələsi və nəticə etibarilə obyektin (onun forma və quruluşunun) yeni təyinatına uyğunlaşdırılması gələcəkdə torpaqlar işğaldan azad edildikdən sonra dövlətin bu sahəyə investisiya qoyuluşlarından səmərəli istifadənin əsasıdır.

İşğal altındakı abidələrin hər bir tipi böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq müxtəlif xassəli informasiya daşıyıcısıdır. İnformasiyanın keyfiyyəti eyni zamanda saxlanılma, öyrənilmə dərəcəsi və əhəmiyyətlilik kimi subyektiv amillərlə müəyyən edilir. Bu təsnifləşdirmənin köməyi ilə tarixi-mədəni irsin saxlanılması və istifadəsi üzrə mövcud beynəlxalq təcrübəni düzgün qiymətləndirmək, həmçinin təkmilləşdirmək istiqamətində müvafiq tövsiyələr vermək mümkündür.

Abidələrin Beynəlxalq Qiymət Standartlarına uyğun qiymətləndirilməsi mövcud nəzəri-təcrübi biliklər əsasında abidələrə dəyən zərərin real qiymətləndirilməsinə xidmət edir. Eyni zamanda, Yer səthinin vəziyyəti, su rejimi, külək erroziyası, hərbi münaqişələr zamanı atəş və partlayışlar, eləcə də fiziki şəxslərin müdaxiləsi nəticəsində artefaktların dəyişməsi zərərin qiymətləndirilməsinə xidmət edir.

Zərərin dəyəri əmsalların köməyi ilə qiymətləndirilir. Onun hesablanmasında maddi amil ilkin bazadır. O, arxeoloji və ya memarlıq abidələrinin dağıdılmış hissələrinin elmi tədqiqinə çəkilən xərclər, abidənin dağıdılmasından sonra müayinə xərcləri, abidənin və landşaftın bərpası üzrə konservasiya işlərinin, eləcə də itirilmiş arxeoloji kolleksiyanın dəyəri əsasında hesablanır.

Arxeoloji abidəyə dəyən maddi zərəri (s) müasir səviyyədə arxeoloji abidənin tam tədqiqinə çəkilən xərclərin (s1) və abidənin, həmçinin onun landşaftının bərpası üzrə konservasiya işlərinin dəyərinin (s2) cəmi kimi hesablamaq olar:

$$S = S1 + S2$$

Memarlıq abidələrinə dəyən zərərin bazar qiymətlərinə uyğun müəyyən edilməsi qaydaları

Ümumilikdə, tarix və mədəniyyət abidələri dedikdə nə başa düşülür, tarix və mədəniyyət abidələri nədir? - suallarına cavab tapıldıqda işğal altında qalan bu abidələrə dəyən zərərin qiymətləndirilməsinin əhəmiyyətini və xalqın mənəviyyatına vurulan zərəin həcminin nə dərəcədə böyük olduğunu dərk etmək mümkün olacaqdır.



Dədəvəng xatirə kompleksində Arzuxatun məbədinin baş planı

Tarixi abidələr: tarixi şəxsiyyətlərin o cümlədən, dövlət xadimlərinin və hərbi xadimlərin, Sovet İttifaqı Qəhrəmanlarının, Milli Qəhrəmanların, görkəmli elm və incəsənət xadimlərinin həyatı ilə bağlı qurmalar, mənzillər, xatirə yerləri, sənədlər və əşyalar, eləcə də mədəniyyət, incəsənət və elm xadimlərinin həyatı ilə bağlı xatirə yerləri, yaşayış evləri, kompleksləri və ansamblları başa düşülür.

Memarlıq abidələri: öz həcm-plan həllini kifayət qədər saxlayan qurmalar, müxtəlif təyinatlı memarlıq-inşaat binaları, yardımçı obyektlər, mühəndis kommunikasiyaları başa düşülür.

Memarlıq abidələri sahəsinə qalalar, siklop tipli memarlıq abidələri, körpülər, karvansaraylar, malikanələr, saraylar, məscidlər, türbələr, su dəyirmanları, kahalar, qara damlar və ev damları; sovməələr, bazilikalar, kilsələr və monastırlar; xüsusi quruluşa malik fərdi evlər, hərbi istehkamlar, mədəniyyət sarayları, ictimai binalar, ticarət mərkəzləri; elm, təhsil və nəqliyyat müəssisələrinin binaları, o cümlədən heykəllər, qəbirüstü abidələr, bədii incəsənət nümunələri və s. daxildir.



İncəsənət abidələri: tarixi və estetik dəyəri olan bədii, təsviri, dekorativ-tətbiqi sənət nümunələri hesab edilirlər.

- İncəsənət abidələri sahəsinə monumental abidələr və xatirə nişanları, Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı olan məşhurların həyatlarını əks etdirən lövhələr və digər əl işləri, heykəltəraşlıq əsərləri, rəsm əsərləri, bəzək əşyaları, bədii toxuculuq sənəti nümunələri, təsviri sənət nümunələri, mozaikalar, əlyazmalar, vitrajlar (rənglı şüşələrdən düzəldilmiş şəkil və ya naxışlar) musiqi əsərləri, musiqi alətləri və s. daxildir.

Tarixi nöqteyi-nəzərdən tarixi-mədəni irsin tədqiqinin müasir şəraitdə mədəniyyətin inkişafında əhəmiyyəti nəzərə alınmaqla abidələrin xüsusiyyətlərinin yuxarıdakı bölgülərə əsasən öyrənilməsi, o cümlədən insanın həyat fəaliyyəti mühitinin keyfiyyətini müəyyən edən bədii obrazların tədqiqinin zəruriliyi xüsusi qeyd olunmalıdır. Bu məsələlər müasir dövrdə tarixi-mədəni irs potensialını təşkil edir.

Dünya təcrübəsində mədəni irs obyektlərinin qiymətləndirilməsi üçün əsasən xərc yanaşmasını tətbiq edirlər. Bir qayda olaraq, memarlıq abidəsinin bazar dəyərinin müəyyən edilməsi üçün aşağıdakı düsturdan istifadə təklif olunur.

$$D = Db\,(1+\sum Ki) - A$$

Burada:

Db -tarixi mədəni irs obyektinin bərpa dəyəri,

Ki -tarixi mədəni irs obyektinin qiymətliliyini müəyyən edən əmsal;

A - obyektin aşınmasıdır.

Qiymətləndirmə meyarları tarix və memarlıq abidələrinin qiymətlilik göstəriciləri şkalası üzrə müəyyən edilir.



Hadrut qəsəbəsindəki Alban məbədinin şərq fasadının görünüşü

N	Obyektin qiymətləndirilməsi meyarları	Meyarın kəmiyyəti	
		Maksimum	Minimum
1	Obyektin tipi	5,0	3,0
2.	Obyektin tikilmə tarixi	20,0	4,0
3.	Obyektin mürəkkəblik kateqoriyası	10,0	2,0
4.	Obyektin nadirliyi	20,0	5,0
5.	İtkiyə məruz qalanadək saxlanılma halında abidənin, onun hissələrinin həqiqiliyi	30,0	7,0
6.	İtkinin bərpaolunanlığı	10,0	1,5
7.	Şəhərsalma əhəmiyyətliliyi	5,0	1,0
	Cəmi	100	-

Nümunə:

Zəngilan rayonunda (Zəngilan qəsəbəsi) yerləşən XVII-XVIII əsrlərdə inşa olunmuş məscidin bazar dəyərinin qiymətləndiriməsi tələb olunur.

Aparılmış müşahidə, vizual baxış və texniki müayinə nəticəsində müəyyən edilmişdir ki, məscidin 500 kv.m-ə bərabər hissəsi bərpa olunmalıdır. Müvafiq materiallardan istifadə və memarlıq işlərinin tətbiqi ilə 1 kv.m-in bərpa dəyəri 2500 manat məbləğində müəyyən edilmişdir.

Beləliklə, məscidin bərpa dəyəri:

Db =500 x 2500manat = 1 250 000 manat

təşkil edir.

Əvvəldə verilən cədvəl məlumatlarına əsasən, obyektin qiymətliliyinin yekun meyarını müəyyən etsək,

Ki =3+4+6+5+7+3+5=33

Hesablamaların nəticələri aşağıdakı cədvəldə ümumiləşdirilmişdir:

İşlərin adı	Ölçü vahidi	2013-cü ilin qiymətləri ilə iş vahidinin dəyəri
Özülün qurulması	M^3	---------
Divarların hörülməsi	M^3	---------
Çardağın qurulması	M^3	---------
Qapı və pəncərələrin quraşdırılması	M^2	---------
Ağac işləmələri	Kv.dm	--------
Kolonların hazırlanması və quraşdırılması	poqon metr	--------
Cəmi (D_b)	məbləğ	1 250 000 manat

Məlumdur ki, fiziki aşınma əmsalı aşağıdakı düstur əsasında müəyyən edilir:

$$Af = \frac{\text{konstruktiv elementin xüsusi çəkisi x elementin aşınma faizi}}{100}$$

Mənəvi aşınma **(Am)** vizual baxış əsasında, xarici aşınma dağıdılma, uçurdulma və zədələnmələr isə iqtisadi göstəricilər əsasında hesablanır.

Tarixi memarlıq abidəsi işğal ərazisində yerləşdiyindən ona vizual baxış keçirmək və onun iqtisadi göstəricilərini əldə etmək mümkün deyil. Bu da abidənin məcmu aşınmasını obyektiv qiymətləndirmək imkanlarını məhdudlaşdırır. İşğal zonasında olan tarixi abidələrin 20 ildən artıq bir müddətdə baxımsız qalmasını və onlardan bəzilərinin qeyri-sivil qaydada istifadə olunmasını və bəzilərinin dağıdılmasını nəzərə alsaq, onların məcmu aşınmasının 40%-dən aşağı olmadığını yəqin etmək olar:

$$Dx = 1250000 \times (1 + 33) - 1250000 \times 0.4 = 42000000$$

Nəzəri biliklərin və praktiki vərdişlərin nəticələri əyani şəkildə memarlıq abidələrinin mürəkkəbliyini və çoxaspektli olmasını sübut edir. İndi bu düsturla rayonlar üzrə qiymətləndirmə apara bilərik. Əvvəlcə rayon ərazilərində yalnız dövlət qeydiyyatında olan və zərər çəkmiş tarix və mədəniyyət abidələrinin saylarını kateqoriyalar üzrə müəyyənləşdiririk.

İşğal altında qalan Azərbaycanın dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin adlı siyahısı

Laçın rayonu üzrə

İNV N4725	İkitağlı körpü, XVII əsr, Abdallar kəndi
İNV N4753	Birtağlı körpü, XVIII əsr, Zabux kəndi
İNV N310	Ağoğlan qəsr, IX əsr, Kosalar kəndi
İNV N4728	Soltan Əhməd sarayı, Sultanlar kəndi
İNV N4727	Həmzə Soltan sarayı, 1761-ci il, Sultanlar kəndi
İNV N4729	Soltanbaba türbəsi, XVIII əsr, Zeyvə kəndi
İNV N4730	Şeyx Əhməd türbəsi, XVIII əsr, Zeyvə kəndi
İNV N4731	Türbə, XVII əsr, Zeyvə kəndi
İNV N4732	Kafir-qala , Zeyvə kəndi
İNV N4733	Məscid, XVII-XVIII əsr, Qarıqışlaq kəndi
İNV N4734	Qala, Qarıqışlaq kəndi
İNV N4735	Dəmiovlu piri, sovməə, Qarıqışlaq kəndi
İNV N4764	Sovməə, XVI əsr, Sadınlar kəndi
İNV N4718	Bulaq (Böyükbulaq), 1858-ci il, Quşçu kəndi
İNV N4719	Bulaq (Korcabulaq), 1890-cı il, Quşçu kəndi
İNV N4751	Qala (Qalacıq), antik dövr, Quşçu kəndi
İNV N4752	Qala (Sadınlar qalacığı), antik dövr, Quşçu kəndi
İNV N4757	Qala, Mirik kəndi
İNV N4758	Sovməə, XV əsr, Mirik kəndi
İNV N4720	Bulaq (Behbudalı bulağı), XV əsr, Mirik kəndi
İNV N4742	Sovməə, XVI əsr, Əhmədli kəndi
İNV N4743	Abadxeyir türbəsi, Əhmədli kəndi
İNV N4744	Körpü (Seyid Əmir körpüsü), XIX əsr, Əhmədli kəndi
İNV N4748	Birtağlı körpü, Minkənd kəndi
İNV N4747	İkitağlı körpü, Minkənd kəndi

İNV N4745 Məbəd, XV əsr, Minkənd kəndi
İNV N4746 Sovmə, XV əsr, Minkənd kəndi
İNV N4763 Birtağlı körpü, Şeylanlı kəndi
İNV N4724 Məbəd, XVII əsr, Hoçaz kəndi
İNV N1465 Mağara-məbəd, V əsr, Hoçaz kəndi
İNV N4750 Sınıq körpü, Ağcakənd kəndi
İNV N4736 Məscid, Piçənis kəndi
İNV N4737 Məbəd, XVII əsr, Piçənis kəndi
İNV N311 Məlik Əjdər türbəsi, XIV əsr, Cicimli kəndi
İNV N312 Türbə, XVII-XVIII əsrlər, Cicimli kəndi
İNV N4726 Türbə, Güləbird kəndi
İNV N4749 Mağara-məbəd, Güləbird kəndi
İNV N4756 Sınıqkörpü, Malxələf kəndi
İNV N4740 Sovməə, X əsr, Aşağı Fərəcan kəndi
İNV N4722 Bulaq, XVII əsr, Sus kəndi
İNV N4761 Birtağlı körpü, Seyidlər kəndi
İNV N4723 Bulaq, XVII əsr, Seyidlər kəndi
İNV N4759 Körpü, Pircahan kəndi
İNV N4760 Körpü, Pircahan kəndi
İNV N4721 Bulaq, XVII əsr, Pircahan kəndi
İNV N4741 Sovməə, XV əsr, Şəlvə kəndi
İNV N4738 Məscid, Qorçu kəndi
İNV N4739 Sovməə, XVII əsr, Qorçu kəndi
İNV N4762 Məbəd, Sonasar kəndi
İNV N5924 Qədim qəbiristanlıq, Dəmir dövrü, Abdallar kəndi
İNV N1460 Kurqan, Dəmir dövrü, Cicimli kəndi
İNV N1459 Qız qəbri (kurqan), Dəmir dövrü, Cicimli kəndi
İNV N1461 Kurqan, Tunc dövrü, Ziyirik kəndi
İNV N1458 Kurqan, Dəmir dövrü, Cicimli kəndi
İNV N5925 Çoban daş, qədim qəbiristanlıq, Cicimli kəndi
İNV N1462 Kurqan, Dəmir dövrü, Hoçaz kəndi
İNV N463 Kurqan, Dəmir dövrü, Güləbird kəndi
İNV N5923 Qəbiristanlıq, orta əsrlər, Məzməzək kəndi
İNV N1457 Daş qutu, Dəmir dövrü, Abdallar kəndi

İNV N6179 Daş at fiquru, orta əsrlər, Xallanlı kəndi
İNV N6178 Daş qoç fiquru, orta əsrlər, Xallanlı kəndi
İNV N6171 Daş at fiquru, XVI əsr, Malıbəy kəndi
İNV N6172 Daş qoç fiquru, XVI əsr, Malıbəy kəndi
İNV N6173 Daş at fiquru, XVI əsr, Malıbəy kəndi
İNV N6177 Daş qoç fiquru, orta əsrlər, Soltanlar kəndi
İNV N6174 Daş at fiquru, XVII əsr, Güləbird kəndi
İNV N6175 Daş at fiquru, XVII əsr, Güləbird kəndi
İNV N6176 Daş at fiquru, XVII əsr, Güləbird kəndi
İNV N6177 Daş qoç fiquru, XVII əsr, Güləbird kəndi
İNV N5671 İkinci dünya müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi, 1970-ci il, Laçın şəhəri
İNV N5669 Sovet İttifaqı qəhrəmanı Əvəz Verdiyevin heykəli, 1970-ci il. Laçın şəhəri
İNV N5670 Sarı Aşığın xatirə muzeyi, 500 eksponat, Güləbird kəndi

Laçın Tarix-Diyarşunaslıq muzeyi, 5000 eksponat, Laşın şəhəri Şəkil qalareyası, 500 eksponat, Laçın şəhəri.

Kəlbəcər rayonu üzrə

İNV N200 Alban məbədi (500-cü il) - Həsənriz kəndi
İNV N Alban məbədi (V-IX əsrlər) - Vəng kəndi
İNV N Alban kilsəsi (V-VII əsrlər) - Çərəkdar kəndi
İNV N270 Alban məbədi (614-cü il) - Kolataq kəndi
İNV N269 Müqəddəs Yaqub kilsəsi (635-ci il) - Kolataq kəndi
İNV N278 Alban məbədi (672-ci il) - Qocaqot kəndi
İNV N277 Alban məbədi (698-ci il) - Qocaqot kəndi
İNV N4498 Alban məbədi (713-cü il) - Dəstəgir kəndi
İNV N4485 Alban məbədi (718-ci il) - Qasapet kəndi
İNV N Alban kilsəsi (VIII-IX əsrlər), Tərtər çayının Bulanıq çayının qovşağında
İNV N274 Alban məbədi (X əsr) - Qarnakar kəndi

İNV N275	Alban kilsəsi (XI əsr) - Qarnakar kəndi
İNV N272	Alban məbədi (XII əsr) - Çıldıran kəndi
İNV N	Məscid (XIX əsr)
İNV N	Məscid (XVIII-XIX əsrlər) - Başlıbel kəndi
İNV N	Məscid (XIX əsr) - Otaqlı kəndi
İNV N	Qoç daşlar piri, Əsir kəndi yaxınlığında
İNV N	Seyid Əsədullahın ziyarətgahı (XIX əsr) - Söyüdlü yaylağı
İNV N	Seyid Bağır ağanın ocağı - Başlıbel kəndi
İNV N	Seyid Əliabbas ağa ziyarətgahı - Başlıbel kəndi
İNV N	Seyid Əhməd ağa ocağı
İNV N6155	Daşdan yonulmuş qoyun və at təsvirli başdaşıları (XIX əsr) - Zar kəndi
İNV N6159	Daş at və qoç heykəlləri, orta əsrlər, Zeylik kəndi
İNV N10	Gəncəsər məbədi, 1238-ci il, Vəngli kəndi
İNV N	Daş at və qoç heykəlləri, orta əsrlər, Keşdək kəndi
İNV N267	Lök qalası (VII-VIII əsrlər) - Qanlıkənd kəndi
İNV N4497	Uluxan qalası (VII-IX əsrlər) - Qaracanlı kəndi
İNV N4495	Qalaboynu qalası (VIII-IX əsrlər) - Qalaboynu kəndi
İNV N	Comərd qalası (VIII-IX əsrlər) - Comərd kəndi
İNV N	Keşikçi qalası (VIII-IX əsrlər) - Qamışlı kəndi
İNV N	Urud abidələrinin xronoloji sayı (1478-1610) - Zar, Zeylik, Keşdək kəndləri
İNV N	Tağlı daş körpü (XIX əsr) - Soyuqbulaq kəndi
İNV N	Tarix-diyarşünaslıq muzeyi (1983-cü il) - Kəlbəcər şəhəri
İNV N10	Gəncəsər monastırı, 1238-ci il - Vəngli kəndi
İNV N11	Xudavəng monastırı, XIII-XVII əsrlər - Tərtərçayın sahili
İNV N271	Qala, Saplar kəndi
İNV N268	Xanaberd qalası, XII-XVII əsr - Vəngli kəndi
İNV N273	Qırmızı məbəd, XIII əsr - Çıldıran kəndi
İNV N276	Xatırvank məbədi, 1204-cü il - Qozlu kəndi
İNV N279	Məbəd, 1283-il - Həsənriz kəndi
İNV N1226	Qayaüstü təsvirlər, ilk və orta Tunc dövrü, Dəlidağ ərazisi
İNV N1227	Yaşayış yeri, ilk və orta Tunc dövrü, İstisu ərazisi
İNV N1228	Dovşanlı nekropolu, son Tunc-ilk Dəmir dövrü

İNV N1229	Ballıqaya nekropolu, son Tunc-ilk Dəmir dövrü
İNV N1230	Zar mağara düşərgəsi, paleolit dövrü, Zar kəndinin qərb hissəsi
İNV N4477	Qala, 1284-cü il, Vəngli kəndi
İNV N4478	Məbəd, XVIII əsr, Vəngli kəndi
İNV N4479	Məbəd, Şaplar kəndi
İNV N4480	Məbəd, Kiçan kəndi
İNV N4481	Məbəd, Samakok kəndi
İNV N4482	Məbəd, 1668-ci il Dovşanlı kəndi
İNV N4483	Məbəd, XVII əsr, Poqosqomer kəndi
İNV N4484	Qırmızı məbəd, XVII əsr, Qozlu kəndi
İNV N4486	Məbəd, 1894-cü il Qasapert kəndi
İNV N4487	Cerabert qalası, Qasapert kəndi
İNV N4490	Məbəd, 1883-cü il, Maxrataq kəndi
İNV N4488	Məbəd, 1898-ci il, Madagiz kəndi
İNV N4489	Urek məbədi, 1279-cu il, Talış kəndi
İNV N4491	Məbəd, 1881-ci il, Maxrataq kəndi
İNV N4492	Məbəd, Maxrataq kəndi
İNV N4493	Məbəd, Saplar kəndi
İNV N4494	Comərd qalası, Pirilər kəndi
İNV N4495	Qalaboyun qalası, Qalaboyun kəndi
İNV N4496	Körpü, Zəylik kəndi
İNV N4497	Uluxan qalası, XVII əsr, Qaraxançallı kəndi
İNV N4498	Məbəd, 713-cü il Dastagir kəndi
İNV N5844	Qəbiristanlıq, orta əsrlər, Qasapert kənd ərazisi
İNV N5844	Qəbiristanlıq, orta əsrlər, Qasapert kəndi
İNV N5844	Qəbiristanlıq, orta əsrlər, Qasapert kəndi
İNV N5845	Şəhərgah, orta əsrlər, Mahavuz kəndi yaxınlığında

Qubadlı rayonu üzrə

İNV N1146	Mağara məbədi (IV əsr)- Gavur dərəsi
İNV N1455	Mağara məbədi (XIV əsr) - Əliquluuşağı kəndi

İNV N4713	Məbəd (XV-XVI əsrlər) - Məmər kəndi
İNV N4714	Məscidin qalıqları (XV-XVI əsrlər) - Xələc kəndi
İNV N4709	Məscid (XVIII əsr) - Yusifbəyli kəndi
İNV N4711	Məscid (XVIII əsr) - Mollalı kəndi
İNV N4712	Məscid (XVIII əsr) - Mirlər kəndi
İNV N4713	Məscid (XVIII əsr) - Məmər kəndi
İNV N4704	Məscid (XIX əsr) - Dondarlı kəndi
İNV N4703	Məscid (XIX əsr) -Dəmirçilər kəndi
İNV N4716	Məscid (XIX əsr) - Mahrızlı kəndi
İNV N1455	Mağara-ibadətgah -Əliquluuşağı kəndi
İNV N	Alban məbədi - Yuxarı Cibikli kəndi
İNV N308	Türbə (XIV əsr) - Dəmirçilər kəndi
İNV N309	Türbə (XIV əsr) - Dəmirçilər kəndi
İNV N4706	Cavanşir türbəsi (XIV əsr) - Yazı düzü
İNV N	Türbə (XVII əsr) - Dəmirçilər kəndi
İNV N307	Türbə (XVII əsr) -Gürcülü kəndi
İNV N4708	Türbə (XVIII əsr) - Xocamsaxlı kəndi
İNV N4710	Türbə (XVIII əsr) - Boynakərə kəndi
İNV N	İmamzadə - Cılfır kəndi
İNV N	Mir Sədi ağa ocağı -Mirlər kəndi
İNV N	Ağ hasar piri - Mirlər kəndi
İNV N	Mirmehdi ağa piri - Dondarlı kəndi
İNV N	Armudlu piri - Armudlu kəndi
İNV N	Səfərə baba piri - Saray kəndi
İNV N	Qarakaha piri - rayon mərkəzindən 20 km şimalda
İNV N	Ağkaha piri -rayon mərkəzindən 20 km şimalda
İNV N	Ağa Kərim Yalı piri - rayon mərkəzindən 15 km aralı
İNV N	Salahlı piri - Mərdanlı kəndi
İNV N	İmamzadə - Novlu kəndi
İNV N	Umoy Kaha piri - Qaracallı kəndi
İNV N1449	Sığınacaq (IV əsr) - Əliquluuşağı kəndi
İNV N1449	Sığınacaq (IV əsr) - Balahəsənli kəndi
İNV N1449	Sığınacaq (IV əsr) - Zor kəndi
İNV N305	Göy qala (V əsr) - Əliquluuşağı kəndi

İNV N4699	Qalalı qalası (yeraltı keçidlə, V əsr) - Muradxanlı kəndi
İNV N	Qız qalası - Əliquluuşağı kəndi
İNV N	Məşədi Allahverdi bulağı (1834-cü il) - Əliquluuşağı kəndi
İNV N306	Laləzar körpüsü (1867-ci il) - Əliquluuşağı kəndi
İNV N	Məmmədyar bulağı (XIX əsr) - Əliquluuşağı kəndi
İNV N	Paşa bulağı (1885-ci il) - Əliquluuşağı kəndi
İNV N4705	Hacı Bədəl körpüsü (XIX əsr) - Dəmirçilər kəndi
İNV N	Qədim Haramı qəbiristanlığı (XIX əsr) - Əliquluuşağı kəndi
İNV N	Məbəd bulağı (XIX əsr) - Mahmudlu kəndi
İNV N4717	Körpü (XIX əsr) - Mahmudlu kəndi
İNV N4698	Qalalı qalası - Əliquluuşağı kəndi
İNV N	Oğlan-Qız abidəsi - Dəmirçilər kəndi
İNV N	Qalacıq qalası - Xocamsaxlı kəndi
İNV N	Qədim daş qoç və at heykəlləri - Qaracallı kəndi
İNV N	At və qoç heykəlləri - Abdalanlı kəndi
İNV N	At və qoç heykəlləri - Mahmudlu kəndi
İNV N	At və qoç heykəlləri - Novlu kəndi
İNV N1447	Koroğlu qalası - Əliquluuşağı kəndi
İNV N1453	Qara-Qaya sığınacağı - Mahmudlu kəndi
İNV N1448	Qalaça - Əliquluuşağı kəndi
İNV N6170	Daş sandıq - Məmər kəndi
İNV N1446	Xırman yaşayış yeri - son Tunc və ilk Dəmir dövrü - Qubadlı qəsəbəsi
İNV N1450	Mal təpəsi yaşayış yeri - son Tunc və ilk Dəmir dövrü - Muradxanlı kəndi
İNV N1454	Qədim qəbiristanlıq - XIV əsr - Qayalı kəndi, Yazı düzü ərazisi
İNV N4696	Bulaq - XIX əsr - Əliquluuşağı kəndi
İNV N4697	Bulaq - XIX əsr - Əliquluuşağı kəndi
İNV N4700	Şirin bulaq - XIX əsr - Məmər kəndi
İNV N4701	Bulaq - XIX əsr - Dəmirçilər kəndi
İNV N4702	Mədət bulağı - XIX əsr - Mahmudlu kəndi
İNV N6169	At və qoç heykəlləri - XV əsr - Mahmudlu kəndi
İNV N6170	Daş sənduqə - Məmər kəndi

Cəbrayıl rayonu üzrə

INV N	Mazannənə məqbərəsi (b.e ə.) - Xələfli kəndi
INV N	Mərmərnənə məqbərəsi (b.e.ə.) - Xələfli kəndi
INV N8781	Məscid təpəsi (b.e.ə. III-II minillik) - Qalacıq kəndi
INV N	Şıxbaba türbəsi (XIV) əsr - Şıxlar kəndi
INV N	Daş məqbərə (1307-1308-ci illər) - Şıxlar kəndi
INV N	Məscid kompleksi (XVI əsr) - Çələbilər kəndi
INV N4165	Səkkizguşəli türbə (XVI əsr) - Xubyarlı kəndi
İNV N4170	Məscid kompleksi (XVI əsr) - Çələbilər kəndi
İNV N4171	Məscid (XIX əsr) - Paplı kəndi
İNV N4172	Məscid (XVI əsr) - Çələbilər kəndi
İNV N4173	Məscid - Daşkəsən kəndi
İNV N	Məscid (XIX əsr) - Mərzə kəndi
İNV N	Məscid (XVIII əsr) - Süleymanlı kəndi
İNV N4166	"Dairəvi türbə", XIV əsr - Şıxlar kəndi
İNV N	Xanəgah - Xubyarlı kəndi
İNV N	Xanəgah - Şıxlar kəndi
İNV N4169	Türbə (XIII-XIV əsrlər) - Dağtumas kəndi
İNV N	Xırda pir - Balyand kəndi
İNV N	İspiri ocağı - Balyand kəndi
İNV N	Zingir ocağı - Cəfərabad kəndi
İNV N	Mazannənə, Mərmərnənə ziyarətgahları - Xələfli kəndi
İNV N	Hacı Qaraman ocağı - Dağtumas kəndi
İNV N	Çaxmaq piri - Tinli kəndi
İNV N	Müqəddəs Düldül ziyarətgahı - Hacılı kəndi
İNV N	Qarı ocağı - Horovlu kəndi
İNV N	Pir Əhməd - Yarəhmədli kəndi
İNV N	Lalə ocağı - Böyük Mərcanlı kəndi
İNV N	Seyid ocağı - Əfəndilər kəndi
İNV N	Çələbi ocağı - Horovlu kəndi
İNV N	Hacı Qaraman ziyarətgahı - Çələbilər kəndi
İNV N	Qara daş ziyarətgahı

İNV N	Miri evi ziyarətgahı - Quycaq kəndi
İNV N	Düldül ziyarətgahı - Balyand kəndi
İNV N	Əfəndilər piri - Əfəndilər kəndi
İNV N	Qərib Seyid ziyarətgahı - Tatar kəndi
İNV N	Tumas ata ziyarətgahı - Dağtumas kəndi
İNV N	Cəbrayıl ata ziyarətgahı
İNV N869	Ağoğlan ziyarətgahı
İNV N	Xubyarlı piri - Xubyarlı kəndi
İNV N	Qərər piri - Qərər kəndi
İNV N	Sarı ocaq - Hovorlu kəndi
İNV N	Qurbantəpə ziyarətgahı
İNV N	İncirli piri ziyarətgahı - Şahvəlli kəndi
İNV N	Qasım Baba piri - Minbaşlı kəndi
İNV N	Düldül ziyarətgahı - Gödəklər kəndi
İNV N	Yel ziyarətgahı - Çaxırlı kəndi
İNV N	Yel ziyarətgahı - Əmirvarlı kəndi
İNV N	Seyid ziyarətgahı - Cocuq Mərcanlı kəndi
İNV N	Qara Molla ziyarətgahı - Daşkəsən kəndi
İNV N	Qarnıyarıq ziyarətgahı - Cəfərabad kəndi
İNV N	Dağdağan ocağı - Qumlaq kəndi
İNV N	Çomaq ata ziyarətgahı - Dağtumas kəndi
İNV N	Düldül ziyarətgahı - Hacılı kəndi
İNV N884	"Divlər sarayı" - Dağtumas kəndi
İNV N	Siklop tikililəri (b.e.ə. III minillik) - Tatar kəndi
İNV N	Canqulu, Qumtəpə kurqanları (b.e.ə. III-II minillik) - Mahmudlu kəndi
İNV N871	"Şəhərşik qalıqları", "Qışlaq yerləri" (b.e.ə. II minillik) - Şıxalalı kəndi
İNV N872	On bir aşırımlı Xudafərin körpüsü (b.e.ə. V əsr) - Qumlaq kəndi
İNV N	On beş aşırımlı Xudafərin körpüsü (b.e.ə. VII əsr) - Qumlaq Nkəndi
İNV N	K əhrizlər (b.e.ə. I əsr) - Mahmudlu kəndi
İNV N	Sirik qalası (V-VII əsrlər)- Sirik kəndi

İNV N4167	Qala bürcü (V-VI əsrlər) - Sirik kəndi
İNV N	Başıkəsik günbəz (XIII-XIV əsrlər) - Xələfli kəndi
İNV N	Qız Qalası (XVI-XVII əsrlər) - Xələfli kəndi
İNV N	Ərəb yazıları ilə qoyun abidəsi (XV əsr) - Şıxalalı kəndi
İNV N4168	Qız Qalası (XII əsr) - Diridağ ərazisi
İNV N48	Niftalı kurqanları - Tunc dövrü - Xubyarlı kəndi
İNV N870	Karxulu kurqanları - Tunc dövrü - Karxulu kəndi
İNV N873	İmanqazan təpəsi - Tunc dövrü - Şıxlar kəndi
İNV N874	Şıxlar mağarası - Daş dövrü - Şıxlar kəndi
İNV N875	Şıxlı kurqanları - son Tunc dövrü - Şıxlı kəndi
İNV N876	İmanqazantəpə kurqanları - Tunc dövrü - Şıxlar kəndi
İNV N877	Qaladaş qalası - ilk orta əsrlər - Qalacıq kəndi
İNV N	Qaladaş yaşayış yeri - Tunc dövrü - Qalacıq kəndi
İNV N879	Niftalı kurqanları - son Tunc və ilk Dəmir dövrü - Niftalı kəndi
İNV N880	Qışlaq kurqanları - Qışlaq kəndi
İNV N	Qışlaq yaşayış yeri - Qışlaq kəndi
İNV N881	Hovuzlu kurqanları - son Tunc və ilk Dəmir dövrü - Hovuzlu kəndi
İNV N882	Cinlitəpə yaşayış yeri - Hovuzlu kəndi
İNV N883	Torağaytəpə yaşayış yeri - ilk Tunc dövrü - Şükürbəyli kəndi
İNV N4163	Sultan Allahverdi hamamı- XVIII əsr - Cəbrayıl şəhəri
İNV N4164	Dairəvi türbə - XVII əsr - Xubyarlı kəndi
İNV N5790	Qədim qəbiristanlıq - orta əsrlər - Cəbrayıl şəhəri
İNV N5791	Qədim qəbiristanlıq - XVII-XVIII əsrlər - Karxulu kəndi
İNV N5792	Qədim qəbiristanlıq - orta əsrlər - Sirik kəndi
İNV N	Qədim yaşayış yeri - orta əsrlər - Sirik kəndi
İNV N5793	Qədim qəbiristanlıq - orta əsrlər - Diridağ ərazisi
İNV N	Qədim yaşayış yeri - orta əsrlər - Diridağ ərazisi
İNV N5794	Mağara - orta əsrlər - Dağ Tumas kəndi
İNV N5795	Qədim qəbiristanlıq - orta əsrlər - Şıxlar kəndi
İNV N5796	Şəhərcik yaşayış yerinin xarabalıqları - orta əsrlər - Şıxlar kəndi
İNV N5797	Dulusxana yaşayış yeri - orta əsrlər - Şıxlar kəndi
İNV N5798	Hasanlı yaşayış yeri - orta əsrlər - Hasanlı düzü ərazisi

Zəngilan rayonu üzrə

İNV N	Səkkizguşəli türbə (XIV əsr) -Məmmədbəyli kəndi
İNV N	Alban kilsəsi - Yeməzli kəndi
İNV N	Alban məbədi - Xanazor kəndi
İNV N	Məscid (XVII-XVIII əsrlər) - Zəngilan qəsəbəsi
İNV N394	Sərdabə (XIII əsr) - Şərikan kəndi
İNV N393	Sərdabə (XIV əsr) - Yenikənd kəndi
İNV N	Hacallı dairəvi bürcü (XIV əsr) - Hacallı kəndi
İNV N	Ziya Baba ocağı -Ağkənd kəndi
İNV N	Xanazor türbəsi - Bartaz kəndi
İNV N	Xanazor piri - Bartaz yaxınlığında
İNV N	Soltan Heydər piri - Bartaz dağında
İNV N	Günqışlaq piri - Günqışlaq kəndi
İNV N	İzzə piri - Hacalı kəndi
İNV N	Hacalı (Hacıallı) günbəzi - Hacalı kəndi
İNV N	Buqakar piri - Leyfaz kəndi
İNV N	Məlikli Hacı Mir Məhəmməd ocağı - Məlikli kəndi
İNV N391	Səkkizguşəli türbə (1305-1304) - Məmmədbəyli kəndi
İNV N	Veysin piri - Pirveyis kəndi
İNV N	Seyid Musa ocağı - Sobu kəndi
İNV N	Qaradağlı piri - Şəfibəyli kəndi
İNV N	Yal piri - Vəjnəli kəndi
İNV N	Yel piri -Vəjnəli kəndi
İNV N	Soltan ocağı - Yeməzli kəndi
İNV N	Şəhid Məhəmməd yeri -Yeməzli kəndi
İNV N	Dəvəcüneyt piri - Zəngilan şəhəri
İNV N	Məmməd bəyin türbəsi - Məmmədbəyli kəndi
İNV N	Küp qəbirlər (b.e.ə. IV-II əsrlər) - Yeməzli kəndi
İNV N	Koroğlu daşı (VII-VIII əsrlər) - Ağ oyuq düzü
İNV N	Şərifan abidələri (IX-XVI əsrlər) - Şərifan kəndi
İNV N	Bartaz Qız Qalası (XIV əsr) - Bartaz kəndi
İNV N	Şərifan sərdabəsi (XII əsr) - Şərifan kəndi

İNV N	Tağlı körpüsü (XVI əsr) - Sobu kəndi
İNV N	Yəhya ibn Məhəmməd əl-Hoca məqbərəsi
İNV N390	Dairəvi qüllə - Hacalı kəndi
İNV N6060	Şəhri-şərifan, yaşayış yeri - orta əsrlər- Hacalı kənd ərazisi
İNV N6061	Ağca Aşıq yaşayış yeri - orta əsrlər- Qumlaq kəndi
İNV N6062	Qız Qalası, yaşayış yeri- orta əsrlər - Qumlaq kəndi
İNV N6063	Qəsr Qalası - orta əsrlər - Oxçuçayın Araza töküldüyü yerdə
İNV N5287	Məscid - XIX əsr - Zəngilan kəndi
İNV N5288	Məscid - XVIII əsr - Malatkeşin kəndi
İNV N5289	Məscid - XVIII əsr - Qıraq Muşlam kəndi
İNV N5290	Məscid - XVIII əsr - Muşlam kəndi
İNV N1824	Şərifan türbəsi - XIV əsr - Şərifan kəndi
İNV N1825	Hacalı qülləsi - XIV əsr - Məmmədbəyli kəndi
İNV N1826	Nekropol - e.ə. VI - IV əsrlər - Quyudərə-Xəştab kəndi
İNV N392	Qız Qalası - XII əsr - Əmirxanlı kəndi
İNV N5704	Vətən müharibəsi iştirakçılarının xatirəsinə abidə - Zəngilan şəhəri
İNV N	Daşüstü park - Zəngilan şəhəri

Füzuli rayonu üzrə

İNV N4200	İcra Hakimiyyətinin binası - XIX əsr - Füzuli şəhəri
İNV N4198	Inzibati bina - Füzuli şəhəri
İNV N964	Qarabulaq kurqan çölü - Tunc dövrü (Füzuli şəhərindən şimal-qərbdə)
İNV N965	Günəştəpə yaşayış yeri - e.ə. II-I minilliklər (Köndələn çayının sağ sahilində)
İNV N966	Qaraköpəktəpə yaşayış yeri - e.ə. IV əsr-e.ə I əsr (Köndələn çayının sağ sahilində)
İNV N967	Zərgərtəpə yaşayış yeri - Tunc dövrü (Zərgər kəndi)
İNV N968	Şəkəcik yaşayış yeri - Tunc dövrü (Şəkərcik kəndi)
İNV N969	Kültəpə yaşayış yeri - ilk Tunc dövrü (Əhmədbəyli kəndinin qərbində)
İNV N970	Balalartəpə yaşayış yeri - ilk Tunc dövrü (Qaraxanbəyli kəndinin cənub- şərqində)

İNV N971	Uzuntəpə yaşayış yeri - ilk Tunc dövrü (Quruçayla Köndələnçay arasında)
İNV N972	Meynətəpə yaşayıs yeri - ilk Tunc dövrü (Quruçayla Köndələnçay arasında)
İNV N973	Xantəpə yaşayış yeri - ilk Tunc dövrü (Quruçayla Köndələnçay arasında)
İNV N974	Dədəli kəhrizi - XIX əsr (Dədəli kəndi)
36. Վահան Տեր-Ղազարյան – հնագետ, գրող-հրապարակախոս
37. Լևոն Պետրոսյան -հնագետ, պատմական գիտությունների թեկնածու
38. Բորիս Գասպարյան – հնագետ, ՀՀ ԳԱԱ ՀԱԻ գիտաշխատող
39. Նակոտո Արիմուրա- հնագետ, պրոֆեսոր (Ճապոնիա, Կանազավայի համալսարան)
40. Հենրիկ Սվազյան – պատմական գիտությունների դոկտոր, պրոֆեսոր
41. Մհեր Կարապետյան – պատմական գիտությունների դոկտոր, պրոֆեսոր
42. Հրանտ Աբրահամյան – պատմական գիտությունների դոկտոր
43. Բաբկեն Վարդանյան – պատմաբան, գիտությունների թեկնածու
44. Հովիկ Գրիգորյան – պատմաբան, գիտությունների թեկնածու, դոցենտ
45. Վահագն Հակոբյան – պատմաբան, գիտությունների թեկնածու
46. Սոնա Մելքոնյան – պատմաբան
47. Սուրեն Ծաքարյան – պատմաբան
48. Հարություն Խուդանյան -պատմաբան
49. Գեորգ Տեր-Վարդանեան- պատմաբան
50. Էդվարդ Բաղդասարյան- պատմական գիտությունների թեկնածու, պրոֆեսոր
51. Արփենիկ Ղազարոսյան – պատմաբան, գիտությունների թեկնածու
52. Տիգրան Գևորգյան – պատմաբան
53. Հայկ Գրիգորյան – պատմաբան
54. Վրեժ Վարդանյան – պատմաբան, գիտությունների դոկտոր
55. Աշոտ Մանուչարյան – պատմական գիտությունների թեկնածու, դոցենտ
56. Էռնա Շիրինյան – ԵՊՀ Աստվածաբանության պրոֆեսոր
57. Վիգեն Մարտիրոսյան – ԵՊՀ Աստվածաբանության ֆակ.-ի դասախոս
58. Լիդա Սահակյան – ԵՊՀ Աստվածաբանության ֆակ.-ի դասախոս
59. Լիլիթ Պողոսյան- ԵՊՀ Աստվածաբանության ֆակ.-ի դասախոս
60. Արշակ Բալյան – ԵՊՀ Աստվվածաբանական ֆակ.-ի դոցենտ
61. Լուսինե Թումանյան- աստվածաբան, Մատենադարանի գիտաշխատող
62. Հակոբ Քյոսեյան – աստվածաբան-հայագետ, փիլ. գիտությունների դոկտոր, Մատենադարանի ավագ գիտաշխատող
63. Նոնինա Սարգսյան – աստվածաբան
64. Նարինե Վարդանյան – աստվածաբան
65. Գառնիկ Հարությունյան – աստվածաբան
66. Արմինե Մելքոնյան – աստվածաբան
67. Աննա Օհանջանյան – ստվածաբան, պատմական գիտությունների թեկնածու
68. Անահիտ Ավագյան – ստվածաբան
69. Հասմիկ Աբրահամյան – աստվածաբան, ազգագրագետ
70. Վարդան Խաչատրյան – կրոնագետ
71. Արա Աթայան – արվեստաբան, ԵՊՀ դասախոս
72. Սեդրակ Սեդրակյան – «Ուրարտու» համալսարանի ռեկտոր, պրոֆեսոր
73. Արմեն Մազմանյան – ԵԹԿՊԻ ռեկտոր
74. Սուսաննա Կարախանյան – ԵԳՊԱ պրոռեկտոր, դոկտոր
75. Կարեն Աղամյան – ՀՀ Նկարիչների միության նախագահ, պրոֆեսոր, ՀՀ արվեստի վաստակավոր գործիչ
76. Աշոտ Հարությունյան – նկարիչ-գրաֆիկ, ԵԳՊԱ դասախոս, դոցենտ
77. Տիգրանուհի Աղասյան – նկարիչ-գրաֆիկ, ԵԳՊԱ դասախոս

78. Աբրահամ Սահակյան – նկարիչ, ԵԳՊԱ պրոֆեսոր
79. Արա Բաղդասարյան – նկարիչ, ԵԳՊԱ պրոֆեսոր
80. Կարինե Գևորգյան -նկարչուհի, ԵՊԳԱ դասախոս
81. Հովհաննես Մալխասյան – նկարիչ, ԵԳՊԱ դասախոս, դոցենտ
82. Հրանտ Հարությունյան – նկարիչ, ԵԳՊԱ դասախոս
83. Վարդան Պողոսյան – նկարիչ, ԵԳՊԱ դասախոս
84. Էդիկ Վարդանյան – նկարիչ, պրոֆեսոր, ԵԳՊ ակադեմիայի դեկան
85. Արսեն Ղազարյան -նկարիչ
86. Ժորա Հայրապետյան -գեղանկարիչ, ԵԳՊ ակադեմիայի պրոֆեսոր
87. Դավիթ Սեդրակյան – գեղանկարիչ, ԵԳՊԱ դասախոս
88. Հայկ Աղաբեկյան – գեղանկարիչ, ԵԳՊԱ դասախոս, պրոֆեսոր
89. Սամվել Մարտիրոսյան- գեղանկարիչ, պրոֆեսոր
90. Գարեգին Դավթյան- քանդակագործ, պրոֆեսոր
91. Գագիկ Ղազարյան – քանդակագործ, ԵԳՊԱ գծանկարի ամբիոնի վարիչ, պրոֆեսոր, ՀՆՄ քարտուղար
92. Լևոն Անանյան – ՀԳՄ նախագահ
93. Հենրիկ Էդոյան – գրող, գիտությունների դոկտոր, պրոֆեսոր
94. Հակոբ Մովսես – գրող, թարգմանիչ
95. Ռոմիկ Սարդարյան – գրող, հրապարակախոս, ՀԳՄ հրատարակչության գլխավոր խմբագիր
96. Ռուբեն Հովսեփյան – գրող-հրապարակախոս
97. Նորայր Ադալյան- գրող
98. Ֆելիքս Մելոյան – գրականագետ
99. Կարինե Խոդիկյան- դրամատուրգ
100. Սամվել Կոսյան – դրամատուրգ, բանաստեղծ
101. Բագրատ Ալեքյան – բանաստեղծ
102. Անահիտ Դանիելյան – բանաստեղծուհի
103. Խաչիկ Մանուկյան- բանաստեղծ
104. Ալբերտ Հովհաննիսյան – բանաստեղծ, իրավաբան
105. Սարգիս Կարեյան – բանաստեղծ-տեսաբան
106. Ռուբեն Արևշատյան – մշակութաբան
107. Սերգեյ Առաքելյան – ՀՀ մշակույթի վաստակավոր գործիչ
108. Արևշատ Ավագյան-_ Մշակույթի հայկական ֆոնդի նախագահ
109. Արփեն Մովսիսյան – ՀՀ մշակույթի վաստակավոր գործիչ
110. Հովիկ Մինասյան- ԵԹԿՊԻ պրոռեկտոր
111. Երվանդ Ղազանչյան – բեմադրիչ
112. Վալերի Թումասյան – թատերագետ
113. Տիգրանուհի Տեր-Մարկոսյան – դերասանուհի
114. Անդրանիկ Հարությունյան – դերասան, ՀՀ արվեստի վաստակավոր գործիչ
115. Ռազմիկ Խոսրոև – դերասան, ՀՀ վաստակավոր արտիստ
116. Վեներա Թարգյան – դերասանուհի
117. Եվգենիա Մկրտումյան-դերասանուհի
118. Կարեն Ջանիբեկյան- դերասան, ՀՀ ժողովրդական արտիստ
119. Լորենց Առուշանյան- դերասան, ՀՀ ժողովրդական արտիստ
120. Հասմիկ Տեր-Կարապետյան- դերասանուհի
121. Շաքե Չինգյոզյան- դերասանուհի
122. Ժասմեն Ասրյան- դերասանուհի, ազգային-հասարակական գործիչ
123. Հակոբ Ղազանչյան- ՀԹԳՄ նախագահ
124. Ստեփան Դավթյան – Գ. Սունդուկյանի անվ. Թատրոնի տնօրեն

125. Տիգրան Գասպարյան – ռեժիսոր (բեմադրիչ)
126. Գոհար Հարությունյան – ռեժիսոր
127. Տիգրան Թամամյան – ռեժիսոր
128. Տիգրան Խզմալյան – կինոռեժիսոր
129. Գառնիկ Սեյրանյան – ռեժիսոր
130. Միեր Նավոյան – երաժշտագետ
131. Մարգարիտ Սարգսյան – երաժշտագետ
132. Շավեն Թագակչյան – երաժշտագետ-բանահավաք, գիտությունների թեկնածու
133. Արփի Վարդումյան – երաժշտագետ
134. Կարինե Խուդաբաշյան- երաժշտագետ-տեսաբան
135. Ժասմենա Մեհրաբյան- երաժշտագետ-տեսաբան
136. Վարդան Բալյան – երաժիշտ
137. Ստեփան Բաբաթորոսյան -կոմպոզիտոր
138. Վարդան Հակոբյան – դիրիժոր
139. Վահե Հայրապետյան-կոմպոզիտոր
140. Նազենի Ղարիբյան -արվեստաբան. գիտությունների դոկտոր
141. Էդդա Վարդանյան- արվեստագետ- գիտությունների թեկնածու
142. Գագիկ Կարապետյան – դրամատուրգ
143. Սեդրակ Վելիկոդնի – բեմադրող նկարիչ
144. Վանո Դադոյան – արվեստի գործիչ
145. Լալա Մնեյան -ՀՀ ժողովրդական վարպետ
146. Մարիամ Վարդանյան- արվեստաբան
147. Սիրանույշ Բեգլարյան -արվեստաբան
148. Լևոն Լաճիկյան – գեղագետ
149. Լաուրա Սուքիասյան – մշակութաբան
150. Ամալյա Դիլանյան – մշակութաբան
151. Էսթեր Խեմչյան – բանագետ
152. Մարինե Խեմչյան – բանագետ
153. Գոհար Հակոբյան – լրագրող
154. Անուշավան Տեր-Գաբրիելյան – լրագրող
155. Մովսես Խեչո – լրագրող, թարգմանիչ,
156. Բորիկ Ղազարյան – լրագրող, հրապարակախոս
157. Արմենակ Ղազինյան – լրագրող
158. Նիկոլայ Շահնազարյան – բանասեր, լրագրող
159. Տաթևիկ Մանուկյան -բանասեր
160. Քնար Հարությունյան – բանասեր
161. Տաթևիկ Ստեփանյան – բանասեր
162. Փիրուզա Հայրապետյան – բանասեր
163. Թամարա Մինասյան – բանասեր
164. Սեդա Քուփելյան – բանասեր
165. Գայանե Հարությունյան – բանասեր
166. Վերժինե Սվազլյան – բանասիրական գիտությունների դոկտոր ժողովրդագետ
167. Հակոբ Պետրոսյան – բանասիրական գիտությունների թեկնածու
168. Աբգար Ափինյան – Երևանի Գրողների միության նախագահ, բանասիրական գիտությունների թեկնածու, դոցենտ
169. Անահիտ Հարությունյան – թարգմանիչ, դասախոս
170. Սյուզան Սիմոնյան – թարգմանիչ

171. Ժաննա Մաթևոսյան – գրադարանավար
172. Լարիսա Խաչատրյան – գրադարանավար
173. Վրույր Վարդանյան – տնտեսագետ, գիտությունների թեկնածու
174. Ռուբեն Ազարյան – ֆիզիկոս
175. Գևորգ Մարգարյյան – երկրաբան, գիտությունների թեկնածու
176. Անահիտ Ապանյան – տնտեսագետ
177. Իրինա Գալստյան – իրավագետ, պրոֆեսոր
178. Միեր Արշակյան – իրավաբան
179. Սամվել Մանուկյան – իրավաբան
180. Ռուբեն Սարգսյան – իրավաբան-փաստաբան
181. Ժաննա Շաքարյան – բժիշկ-կենսաբան,յ գիտությունների թեկնածու
182. Աշոտ Հարությունյան – կենսաբան, գիտությունների թեկնածու
183 Գուրգեն Գրիգորյան – տնտեսագիտության թեկնածու
184. Անահիտ Գալստյան – մաթեմատիկ
185. Սպարտակ Ասոյան – տնտեսագետ
186. Արմեն Դավիդյան – բժիշկ
187. Աստղիկ Վանյան – սոցիոլոգ
188. Գագիկ Խաչատրյան – երկրաբան
189. Գայանե Գևորգյան-տնտեսագետ
190. Արգինե Ազատյան – բժիշկ-վիրաբույժ
191. Սամվել Մուսոյան – տնտեսագետ
192. Արայիկ Կարապետյան – ինժեներ
193. Արտակ Հովհաննիսյան – կոնստրուկտոր
194. Եղիա Ներսիսյան – լուսանկարիչ
195. Վազգեն Գալստյան – ՏԻՄ մասնագետ
196. Սվետլանա Դեմիրճյան – տոմարակալ
197. Լևոն Հախվերդյան – երկրաֆիզիկ
198. Հայկ Մելիք-Ադամյան – երկրաբան
199. Արմեն Հովսեփյան – քաղաքագետ, պատմաբան, պրոֆեսոր
200. Սուրեն Մովսիսյան- քաղաքագետ
201. Գայանե Սիմոնյան – ԵՊՀ դասախոս
202. Տիգրան Ապիկյան – ԵՊՀ դասախոս
203. Արեգ Սիմոնյան – տեխնիկակ. գիտ. դոկտոր, պրոֆեսոր
204. Լիդիա Ավետյան – հոգեբան
205. Լուսիկ Սեփանյան – բանասեր-միջնադարագետ
206. Նորիկ Դադալյան – շինարար-ինժեներ
207. Սերգեյ Պետրոսով – շինարար
208. Արարատ Մելքոնյան – Ռուսաստանի վաստակավոր շինարար
209. Վարդան Փիլոսյան – ճարտարապետ
210. Տիգրան Ազատյան – ճարտարապետ
211. Իրինա Մաթևոսյան – ճարտարապետ
212. Յուրի Սաֆարյան – ՀՀ վաստակ. ճարտարապետ, ՀՀ գիտ. վաստ. Գործիչ
213. Ալբերտ Սոխիկյան – ճարտարապետ, պրոֆեսոր
214. Սարհատ Պետրոսյան – ճարտարապետ
215. Մարինա Պարազյան – ճարտարապետ
216. Անահիտ Թարխանյան -ճարտարապետ
217. Աշոտ Հովսեփյան – ճարտարապետ
218. Կորյուն Յակոբյան – ճարտարապետ
219. Գառնիկ Ստեփանյան – ճարտարապետ

220. Լևոն Ներսիսյան – ճարտարապետ
221. Արայիկ Ավետյան – ճարտարապետ
222. Արմեն Կանայան- ճարտարապետ, դոցենտ
223. Սամվել Կարապետյան – Հայկական ճարտարապետությունն ուսումնասիրող հիմնադրամի նախագահ
224. Վարդան Դևրիկյան – Մատենադարանի գիտաշխատող, բանաս. գիտ. թեկն.
225. Դոնարա Կարապետյան – Մատենադարանի ավագ գիտաշխատող
226. Լիլիթ Զաքարյան -Մատենադարանի ավագ գիտաշխատող արվեստագիտության թեկնածու,
227. Լալա Սարգսյան – մանրանկարիչ-կրկնօրինակող Մատենադարանի
228. Ռաֆիկ Բաղալյան – հայ հին կառույցների մանրակերտերի մասնագետ
229. Արմիկ Բաղդասարյան – սրբանկարիչ
230. Լևոն Հովսեփյան-արևելագետ, պատմական գիտությունների թեկնածու
231. Հրաչիկ Բայրամյան -արևելագետ-վրացագետ, բանասիրական գիտ. թեկն.
232. Հայկազ Գևորգյան- արևելագետ
233. Քրիստինե Մելքոնյան – թուրքագետ
234. Վլադիմիր Անդրիասյան – գերմաներեն լեզվի դասախոս
235. Միսակ Սարիբեկյան – «Նիգ Ապարան» ՀԲՀԿ-ի գործադիր տնօրեն
236. Արտաշես Տեր-Հովհաննիսյան – «Բյուրոկրատ» գրատան տնօրեն
237. Աշոտ Կարապետյան- «Արեգ» գիտավերլուծական կենտրոնի տնօրեն
238. Արմեն Ցլիկյան – «Երևան» մշակույթի ակումբի նախագահ
239. Թամարա Աբրահամյան – «Արազա» հ/կ նախագահ
240. Ռոմիկ Հովնանյան – «Վան-Վասպուրական» հ/կ նախագահ
241. Ալիխանե Մամե – «Զագրոս» թերթի գլխավոր խմբագիր, բանաստեղծ, ՀԳՄ քուրդ գրողների բաժանմունքի ղեկավար
242. Իվետա Ապկարյան – «Медицинская наука Армении» ամսագրի խմբագիր
243. Գոհար Ստամբոլցյան – «Հայաստանի բժշկագիտություն» հանդեսի խմբագիր
244. Ջուլիետա Մարտիրոսյան.– «Ավանգարդ» թերթի խմբագիր
245. Միքայել Միրիջանյան – «Արահետ» ամսագրի գլխավոր խմբագիր
246. Կարեն Միքայելյան – «Новое Время» թերթի փոխխմբագիր, արվեստաբան
247. Նելլի Ապինյան – «Հայաստանի կենսաբանական հանդես»-ի խմբագիր
248. Իրինա Մկրտչյան – «Միր» ՄՀՌԸ Հայաստանի մասնաճյուղի գլխավոր խմբագիր
249. Սոնա Ակինյան – «Միր» ՄՀՌԸ համակարգող
250. Գայանե Ղազարյան – «Հոգու ճիչ», «Իմ բալիկ», «Կնոջ հանրագիտարան» ամսագրերի հիմնադիր գլխավոր խմբագիր
251. Պուշկին Սերոբյան -_ «Զորավիգ» թերթի գլխավոր խմբագիր, իրավաբան
252. Վարուժան Մնացականյան -«Կանչ» թերթի գլխավոր խմբագիր
253. Արեգ Սարգսյան- «Ազատ ուսանողների ֆորում» ուսանողական միության նախագահ
254. Մարինե Վահրադյան – «Վասպուրական նոր սերունդ» հ/կ-ի նախագահ
255. Հայկ Մութաֆյան – «Չորս կարիճ» մշակութային հ/կ նախագահ
256. Զոյա Ջուլհակյան – «Քարավան-88» հ/կ նախագահ
257. Նվարդ Հովակիմյան – «Երաշխավոր» հ/կ նախագահ
258. Հասմիկ Մկրտչյան – «Բարության շղթա» հ/կ նախագահ
259. Ժանետա Մանուկյան – Հայաստանի Լողի ֆեդերացիայի նախագահ
260. Կ. Ասատրյան – «Потенциал» մտավորական փախստականների

միության նախագահ
261. Լարիսա Ալավերդյան – «Ընդդեմ իրավական կամայականությունների» կազմակերպության նախագահ
262. Գառնիկ Գալստյան – ՀՀ ԳԱԱ պատմության ինստիտուտի փոխտնօրեն
263. Արսեն Ֆիդանյան – Ղարաբաղյան պատերազմի վետերանների միջազգային
անվտանգության ասպետաց ակադեմիայի նախագահ
264. Արեգ Միքայելյան – աստղագետ, Հայկական աստղագիտության ընկերության համանախագահ
265. Արամ Սարգսյան- Հայաստանի դեմոկրատական կուսակցության նախագահ
266. Հրանտ Մաթևոսյան -ֆիզիկա-մաթեմատիկական գիտությունների դոկտոր
267. Գևորգ Գևորգյան – ՀՀ ԳԱԱ ավագ գիտաշխատող, բիոքիմիկ
268. Ռաֆիկ Ղազարյան – գրադարանագետ-մատենագետ
269. Հովհաննես Այվազյան – Հայկական հանրագիտարանի գլխավոր խմբագիր-տնօրեն
270. Հենրիկ Խաչատրյան – Հայկական հանրագիտարանի գիտաճյուղային խմբագրության վարիչ
271. Ռուբեն Սահակյան – ՀՀ Փաստաբանների պալատի նախագահ
272. Արա Մաթևոսյան – ՀՀ Փաստաբանների պալատի անդամ
273. Յուրի Շուքուրյան – ՀՀ ԳԱԱ ակադեմիկոս, ՀՀ ԳԱԱ փոխնախագահ
274. Գևորգ Բրուտյան – ՀՀ ԳԱԱ ակադեմիկոս, փիլիսոփա
275. Հենրիկ Հովհաննիսյան – ՀՀ ԳԱԱ թղթակից անդամ, արվեստագիտության դոկտոր, պրոֆեսոր, գիտության վաստակավոր գործիչ
276. Վլադիմիր Բարխուդարյան – ՀՀ ԳԱԱ ակադեմիկոս, ՀՀ ԳԱԱ նախագահության
խորհրդական, պատմական գիտությունների
դոկտոր, պրոֆեսոր
277. Արտաշես Շահնազարյան – ՀՀ ԳԱԱ Միջին շրջանի պատմությ. բաժնի վարիչ
278. Պավել Չոբանյան – պատմական գիտությունների դոկտոր
279. Արտակ Մաղալյան – պատմական գիտությունների թեկնածու
280. Քնարիկ Ավագյան – պատմական գիտությունների թեկնածու
281. Արմեն Կարապետյան- պատմական գիտությունների թեկնածու
282. Կարեն Թոխաթյան – պատմաբան, ՀՀ ԳԱԱ գիտաշխատող
283. Ստեփան Ղարիբջանյան – պատմական գիտությունների թեկնածու
284. Սահակ Ս ահակյան – պատմաբան, Հայկական հանրագիտարանի ավագ գիտխմբագիր
285. Միհրան Մինասեան -պատմաբան-բանասեր-թարգմանիչ
286. Ռաֆիկ Վարդանյան – պատմական գիտությունների դոկտոր
287. Գոհար Վարդումյան – պատմաբան-ազգագրագետ
288. Գևորգ Յազըճյան – պատմաբան
289. Համլետ Մխիթարյան – պատմաբան
290. Արմեն Ասատրյան – պատմաբան
291. Կարեն Բայրամյան – պատմաբան
292. Սուսաննա Առաքելյան – պատմաբան
293. Ջուլիետա Կճանյան – պատմաբան
294. Պետրոս Հովհաննիսյան – պատմաբան, գիտությունների թեկնածու, պրոֆեսոր,

ՀՀ վաստակավոր մանկավարժ
295. Արմեն Հովսեփյան – պատմաբան-քաղաքագետ, պրոֆեսոր
296. Աբովյան Լավրենտի – պատմաբան, «Զվարթնոց» պատմա-մշակութային արգելոց-թանգարանի պահապան
297. Մարիամ Խանզադյան – պատմաբան
298. Վիսլա Սեդրակյան -պատմաբան
299. Արտակ Մովսիսյան- պատմաբան-գիտությունների թեկնածու
300. Ասքանազ Աբրահամյան – պատմաբան-թանգարանագետ, բանասեր, ՀՀ մշակույթի վաստակավոր գործիչ
301. Հովհաննես Թադևոսյան – պատմաբան
302. Համլետ Հարությունյան – պատմաբան- դոկտոր, պրոֆեսոր
303. Գոհար Առաքելյան – պատմաբան, գիությունների թեկնածու
304. Ստեփան Ստեփանյան – պատմական գիտությունների դոկտոր, պրոֆեսոր,
Միջազգային ինֆորմատիզացիայի ակադեմիայի
ակադեմիկոս
305. Ռաֆայել Թադևոսյան- ռազմական պատմաբան
306. Ռուբեն Սաֆրաստյան -_ ՀՀ ԳԱԱ Արևելագիտության ինստիտուտի տնօրեն, պատմաբան-արևելագետ
307. Պավել Ավետիսյան- ՀՀ ԳԱԱ Հնագիտության և ազգագրության ինստիտուտի
տնօրեն, պատմական գիտությունների թեկնածու
308. Գագիկ Սարգսյան – հնագետ, պատմական գիտությունների թեկնածու
309. Հուսիկ Մելքոնյան -հնագետ, պատմական գիտությունների թեկնածու
310. Աշոտ Փիլիպոսյան – հնագետ, պատմական գիտությունների դոկտոր
311. Հասմիկ Մարգարյան – հնագետ, պատմական գիտությունների թեկնածու
312. Լևոն Աբրահամյան -ազգագրագետ, ՀՀ ԳԱԱ թղթակից անդամ, ՀՀ մշակույթի վաստակավոր գործիչ
313. Սամվել Մկրտչյան- ազգագրագետ, պատմական գիտությունների դոկտոր
314. Հրանուշ Խառատյան – ազգագրագետ, պատմական գիտությ. թեկնածու
315. Սուրեն Հոբոսյան – ազգագրագետ, պատմական գիտությունն. թեկնածու
316. Գայանե Շաբոյան- ազգագրագետ
317. Իզաբելլա Պետրոսյան – ազգագրագետ
318. Հռիփսիմե Պիկիչյան – ազգագրագետ, պատմական գիտությունների թեկնածու
319. Գրիգոր Գրիգորյան -վիմագրագետ, պատմական գիտությունների դոկտոր, պրոֆեսոչ,ուրճր, Գիտության վաստակավոր գործիչ,
320. Հայկ Հակոբյան – վիմագրագետ, ձեռագրագետ
321. Արսեն Հարությունյան – վիմագրագետ, գիտաշխատող
322. Մուրադ Հասրաթյան – ՀՀ վաստակավոր ճարտարապետ, դոկտոր, պրոֆեսոր,
ԳԱԱ թղթակից անդամ
323. Գագիկ Սողոմոնյան – վերականգնող ճարտարապետ
324. Ստեփան Նալբանդյան -վերականգնող ճարտարապետ
325. Ամիրան Բաղիշյան -վերականգնող ճարտարապետ
326. Սամվել Այվազյան – վերականգնող ճարտարապետ
327. Սուրեն Մելիք-Քարամյան – վերականգնող ճարտարապետ
328. Աշոտ Աբրահամյան – վերանորոգող ճարտարապետ
329. Լևոն Մկրտչյան – ճարտարապետ

330. Միքայել Միսակյան – ճարտարապետ
331. Խաչատուր Թադևոսյան – ճարտարապետ
332. Հրաչյա Վարդանյան – ճարտարապետ
333. Վարդգես Ծահբազյան – ճարտարապետ
334. Մարինե Պողոսյան -ճարտարապետ
335. Գրիգոր Մուրադյան-ճարտարապետ
336. Արտեմ Ղամբարյան – ճարտարապետ
337. Աշոտ Հակոբյան – ճարտարապետ
338. Արամ Գուրգենյան -ճարտարապետ
339. Կարեն Պատրիկյան – ճարտարապետ
340. Հովհաննես Մութաֆյան – ճարտարապետ
341. Էդվարդ Հովհաննիսյան ճարտարապետ
342. Սեյրան Ավետիսյան – ճարտարապետ
343. Արշավիր Աղեկյան – ճարտարապետ
344. Սերգեյ Ամիրաղյան – ճարտարապետ
345. Ջեմս Ավետիսյան – ճարտարապետ
346. Ամինա Կանեցյան – ճարտարապետ-հնագետ, պատմական գիտությունների թեկնածու
347. Հայկ Թամանյան – ճարտարապետ, Ալ. Թամանյանի թանգարան-ինստիտուտի տնօրեն
348. Վրեժ Թասլակյան -ճարտարապետ, ԵՃԾՊՀ դոցենտ
349. Ստեփան Լազարյան – ճարտարապետ, ՀՀ պետական դափնեկիր
350. Լևոն Խրիստաֆորյան -_ ՀՀ վաստակավոր ճարտարապետ





Daşınmaz tarix və mədəniyyət abidələrinə vurulmuş zərərə görə Azərbaycanın Ermənistandan təzminat almaq hüququ təmin edilməlidir

Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana xeyli miqdarda maddi və mənəvi zərər dəymişdir. Bu zərərin miqdarının dəqiqləşdirilməsi və onun ödənilməsi probleminin həll edilməsi bütövlükdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin mühüm aspektlərindən biridir. Bununla yanaşı, işğal nəticəsində Azərbaycana dəymiş maddi və mənəvi zərərin ödənilməsi ilə bağlı problemin bir neçə praktiki əhəmiyyəti vardır:

Birincisi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycana vurulmuş zərərin miqdarını müəyyən etməyə imkan verir. Müasir beynəlxalq hüquqa görə, Azərbaycan Respublikası ona dəyən ziyanın ödənilməsi barədə iddia qaldırmaq və müvafiq təzminatlar almaq hüququna malikdir (bu hüququn həyata keçirilməsi mexanizmi artıq başqa bir problemdir).

İkincisi, Ermənistan tərəfindən Azərbaycana qarşı irəli sürülə bilən iddiaların müəyyən dərəcədə qarşısını alır. Belə ki, Azərbaycanı tərk etmiş ermənilər iddia edirlər ki, guya, Azərbaycanda onların qalmış əmlakının dəyəri 70 mlrd. ABŞ dolları təşkil edir. Bundan əlavə, bu rəqəmə onlar guya vurulmuş mənəvi zərərə görə daha 30 mlrd. ABŞ dolları əlavə edirlər. Ermənistanda fəaliyyət göstərən "Qaçqınlar və beynəlxalq hüquq" vətəndaş cəmiyyəti şəbəkəsinin 2011-ci ilin dekabrında təqdim etdiyi məruzədə isə Azərbaycanı tərk etmiş erməni qaçqınlarına dəymiş birbaşa maddi zərərin 56 mlrd. ABŞ dolları olduğu iddia edilir. Məruzədə Azərbaycandan olan erməni qaçqınların Azərbaycan əhalisinin 7-8%-ni təşkil etdiyi və onların torpaqların özəlləşmə prosesində iştirak etmədikləri vurğulanaraq, Azərbaycan torpaqlarının 8%-nin erməni qaçqınlara verilməsinə və ya onlara mövcud bazar qiymətinə uyğun olaraq, kompensasiyanın ödənilməsinə iddialı olduqları bildirilmişdir. Eyni zamanda, məruzədə Azərbaycanda özəlləşdirilməmiş təşkilatların, xüsusən də Dövlət Neft Şirkətinin gəlirlərindən də ermənilərə kompensasiya ödənilməsi kimi iddia irəli sürülür. Məruzədə Azərbaycanda neft-qaz istehsalı və ixracı sahəsində fəaliyyət göstərən xarici şirkətlər və qarışıq kapitala malik olan şirkətlərin də erməni qaçqınlara kompensasiya ödəmələri iddiası öz əksini tapıb. Məruzədə həmçinin erməni qaçqınlara xüsusi olaraq vurulmuş mənəvi zərərin miqdarının hesablanmasının zəruriliyi də göstərilir.

Üçüncüsü, işğal nəticəsində Azərbaycana dəymiş maddi və mənəvi zərərin ödənilməsi probleminin gündəmə gətirilməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycan tərəfinin sübutedici bazasının ədalətli olmasını bir daha təsdiq edir və gücləndirir. Bu isə Ermənistanla aparılan informasiya və diplomatiya müharibəsində vacib amillərdən biridir.

Ermənistan Azərbaycana qarşı silahlı təcavüz etdiyinə və Azərbaycan ərazilərini işğal etdiyinə görə beynəlxalq-hüquqi məsuliyyət daşıyır. Belə ki, BMT Baş Assambleyasının 14 dekabr 1974-cü ildə qəbul etdiyi "Təcavüzün tərifi" adlı 3314 (XXIX) saylı qətnaməsinin 5-ci maddəsində göstərilir ki, "təcavüzkar müharibə beynəlxalq sülhə qarşı cinayətdir və təcavüz aktı beynəlxalq məsuliyyət doğurur".

Təcavüz aktının törədilməsi soyqırım, irqi ayrı-seçkilik, etnik təmizləmə, aparteid, humanitar faciə və s. cinayət əməlləri kimi BMT Nizamnaməsi və digər vacib beynəlxalq sənədlərin pozulmasına yönəlib və dünya birliyi dövlətləri tərəfindən beynəlxalq cinayət kimi tövsif edilir. Məhz bu səbəbdən təcavüz cinayəti soyqırım cinayəti, müharibə cinayətləri və insanlığa qarşı cinayətlərlə bərabər, Roma Statutunun 5-ci maddəsinə əsasən, Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına aid edilmişdir.

Qeyd edilməlidir ki, bu beynəlxalq cinayət əməllərinin törədilməməsi öhdəlikləri bütövlükdə dünya birliyi dövlətləri üçün xüsusi kateqoriya öhdəliklər xarakteri daşıyır. Bu öhdəliklərin pozulması bütövlükdə dünya birliyi dövlətlərinin ümumi maraqlarının pozulması ilə müşayiət edilir. Odur ki, bu öhdəliklər bütün tərəflər qarşısında olan öhdəliklərdir və dünya dövlətləri bu öhdəlikləri pozmuş dövləti məsuliyyətə cəlb etmək hüququna malikdirlər.

Beləliklə, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüz etməsi, eyni zamanda Xocalı şəhərində soyqırım cinayətləri törətməsi, işğal edilmiş

ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirməsi bu dövlətin tək Azərbaycan qarşısında deyil, bütövlükdə dünya birliyi dövlətləri qarşısında beynəlxalq-hüquqi məsuliyyətini doğurmuşdur.

Eyni zamanda, təcavüz və işğal nəticəsində Azərbaycana konkret maddi və mənəvi zərər vurulmuşdur və bu zərərə görə işğalçı dövlət kimi Ermənistan Azərbaycan qarşısında məsuliyyət daşıyır. Qeyd edildiyi kimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal edilmiş və bir milyona yaxın insan qaçqın və məcburi köçkün olmuş, Azərbaycan əhalisinə, ərazisinə, iqtisadiyyatına, mədəniyyətinə, ekologiyasına, bitki və heyvanat aləminə böyük miqdarda maddi və mənəvi zərər vurulmuşdur. Yuxarıda göstərildiyi kimi, ilkin hesablamalara görə, işğal nəticəsində Azərbaycana vurulmuş maddi zərərin ümumi miqdarı 431,536 milyard (dörd yüz otuz bir milyard beş yüz otuz altı milyon) ABŞ dolları təşkil edir.

Qeyd edilməlidir ki, müasir beynəlxalq hüquqda zərərin ödənilməsinin müəyyən formaları mövcuddur. Bu formalar bir tərəfdən zərərin tam ödənilməsi vəzifəsini, digər tərəfdən isə belə ödəmənin həyata keçirilməsi üsullarını əks etdirir. Bu məsələlər tam aydınlığı ilə BMT Baş Assambleyasının 12 dekabr 2001-ci ildə qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə eyni adlı əlavədə göstərilmişdir. Sənədin 28-ci maddəsində göstərilir ki, beynəlxalq hüquqazidd əməllər dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur ki, bu da hüquqi nəticələr doğurur. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir və bu zərər beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş bütün ziyanlardan, o cümlədən maddi və ya mənəvi ziyanlardan ibarətdir. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 34-cü maddəsində beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş zərərin ödəmə formaları müəyyən edilib. Bu maddədə göstərilir ki, "beynəlxalq hüquqazidd əmələ görə vurulmuş zərərin tam ödəmə formaları restitusiya, kompensasiya və satisfaksiya formalarında ola bilər. Bu formalar həm ayrı-ayrılıqda, həm də bir-biri ilə bağlı istifadə edilə bilər".

Bu müddəa, eyni zamanda, BMT Baş Assambleyası tərəfindən 16 dekabr 2005-ci ildə qəbul edilmiş 60/147 saylı "Beynəlxalq humanitar hüququn ciddi pozuntuları və insan hüquqları sahəsində beynəlxalq normalarının ciddi pozuntularının qurbanları üçün zərərin ödənilməsi və hüquqi müdafiə hüququna aid əsas prinsiplər və rəhbəredici müddəalar" adlı qətnamə ilə bir daha təsdiq olunmuşdur. Bu qətnamənin "Vurulmuş zərərin ödənilməsi" adlı IX fəslinin 18-ci bəndində göstərilir ki, beynəlxalq hüquqa və ölkələrin milli qanunvericiliyinə görə və həm də konkret halları nəzərə alaraq, insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının və beynəlxalq humanitar hüququn ciddi pozuntularının qurbanlarına və pozuntunun ciddiliyinə və hər bir hala müvafiq müəyyən olunmuş qaydada zərərin tam və effektiv ödənilməsi restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və baş vermiş hadisənin təkrarlanmaması zəmanəti formalarında ola bilər.

BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" qətnaməsinə əlavənin 35-ci maddəsində göstərilir ki, beynəlxalq hüquqazidd əməllərə görə məsuliyyət daşıyan dövlət restitusiyanı həyata keçirməlidir. Belə ki, restitusiya hüquqazidd əmələin törədilməsinə qədər mövcud olan vəziyyətin bərpa edilməsini özündə ehtiva edir. Bu isə restitusiya vasitəsilə əvvəlki maddi vəziyyətin və qeyri-maddi hüquqların bərpa edilməsi deməkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın hüquqazidd əməli nəticəsində Azərbaycana vurulmuş zərərin restitusiya formasında ödənilməsi bütün işğal olunmuş Azərbaycan ərazilərinin qaytarılması, Ermənistan əsirliyində saxlanılan azərbaycanlıların azad edilməsi, onların insan hüquqlarından istifadə edə bilməsi, məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıda bilməsi, əmlakının qaytarılması və s. deməkdir. Bundan əlavə, restitusiya Ermənistan tərəfinin Dağlıq Qarabağın bu ölkəyə birləşdirilməsi ilə bağlı Ali Sovetin qəbul etdiyi qərarın, Ermənistanın dövlət müstəqilliyi aktında Dağlıq Qarabağın bu dövlətin ərazisi elan edilməsi və digər qanunsuz qəbul edilmiş bütün normativ aktlarının ləğv edilməsini də özündə ehtiva edir. Eyni zamanda, işğal edilmiş Azərbaycan torpaqlarında işğalçı Ermənistan tərəfi ilə bağlanmış müqavilələr əsasında xarici şirkətlərin təsərrüfat fəaliyyəti ilə məşğul olmasına qadağan qoyulması tələbinin yerinə yetirilməsi də restitusiya çərçivəsində həyata keçirilən tədbirlərdən olmalıdır.

Kompensasiya beynəlxalq hüquqazidd əməl nəticəsində vurulmuş zərərin maliyyə şəkildə ödənilmə formasıdır. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qət-

naməsinə əlavənin 36-cı maddəsinə əsasən, beynəlxalq hüquqazidd əmələ görə məsuliyyət daşıyan dövlət özünün qanunazidd əməli nəticəsində vurduğu zərəri restitusiya ilə ödənilməyən hissədə kompensasiya yolu ilə ödəməyə borcludur. Kompensasiya əldən verilmiş gəlir də daxil olmaqla, belə zərərin ödənilməsinə yönəlib. Beləliklə, kompensasiya vurulmuş zərərin restitusiya ilə ödənilmədiyi halda tətbiq edilə bilər. Kompensasiya maliyyə baxımından qiymətləndirilə bilən hər bir zərəri, o cümlədən müəyyən edilə bilən əldən verilmiş mənfəət də daxil olmaqla ödəmə formasıdır. O, vurulmuş zərərə görə tam ödəməni təmin etməyə yönəlməlidir və beynəlxalq praktikada zərərin ən çox rast gəlinən ödənilmə formasıdır. Bu müddəa müəyyən edir ki, kompensasiyanın miqdarı əmlaka zərərin vurulduğu vaxtdakı dəyəri deyil, onun kompensasiya ödənilməsi vaxtında olan qiyməti miqdarında ödənilməlidir.

Göründüyü kimi, kompensasiya vurulmuş zərərə görə müstəqil ödəmə forması və ya restitusiyaya əlavə qismində çıxış edə bilər. Baxmayaraq ki, hüquq pozuntusu halında, ilk növbədə, restitusiya məsələsi meydana gəlir, restitusiyanın həyata keçirilməsi bir çox hallarda mümkün olmur və ya tam ödəməni təmin etmir. Əgər zərər çəkmiş dövlət kompensasiyaya üstünlük verirsə, bu halda restitusiya xaric oluna bilər. Kompensasiyanın vəzifəsi tam ödəmənin təmin edilməsindən ibarətdir. Ümumiyyətlə, vurulmuş zərər deyəndə, dövlətin özünə vurulmuş zərərlə yanaşı, onun vətəndaşlarına, təşkilatlarına və kommersiya strukturlarına vurulmuş zərər nəzərdə tutulur. Odur ki, zərər çəkmiş dövlət həm də onun vətəndaşlarının sağlamlığına vurulmuş zərərə görə müəyyən kompensasiyanın ödənilməsini tələb etmək hüququna malikdir. Onu da qeyd etmək lazımdır ki, birbaşa vurulmuş fiziki və maddi itkilərlə yanaşı, həm də mənəvi və psixoloji zərərə görə də, məsələn, doğma və yaxınların itirilməsinə, əzablara, təhqirlərə, mülki əhalinin qanunsuz həbsdə saxlanılmasına, işgəncələrə, şikəstetməyə və s. görə kompensasiya verilməlidir.

Qeyd edilməlidir ki, beynəlxalq hüquqazidd əməllərə görə kompensasiya, onun həcmi və miqdarına vaxtın təsirinə dair sual yarana bilər. Praktika göstərir ki, uzun sürən vaxt keçdikdə belə kompensasiya hüququ itirilmir. Digər tərəfdən, dəymiş itkilər kompensasiyanın miqdarını müəyyən etmək üçün əsas meyardır. Əsas əhəmiyyəti əmlakın dəyərinin, əldə edilməmiş mənfəətinin, əlavə xərclərin kompensasiya edilməsi daşıyır. Beynəlxalq hüquqazidd əməl nəticəsində özgəninkiləşdirilmiş və ya

ləğv edilmiş əmlakın dəyəri, bir qayda olaraq, onun ədalətli bazar qiyməti əsasında müəyyən edilir. Xüsusi xarakterli əmlaka aid, misal üçün, mədəni mülkiyyətə aid məsələ daha çətin həll edilir. Müəssisənin dəyərinin qiymətləndirilməsində onun təmiz balans qiymətinin, yəni, onun aktivləri və öhdəlikləri arasında fərqin müəyyən edilməsi üsulu istifadə olunur.

Məlumdur ki, ermənilər xristian amilindən istifadə edərək, bu ərazilərdəki xristian dövrü abidələrini ermənilləşdirməklə bu tipli abidələrə sahib çıxmaq istəyirlər. Lakin tədqiqatlar göstərir ki, hətta xristianlıq dövrü abidələri belə, nə erməni dininə və təfəkkürünə, nə də erməni əxlaqına uyğun gəlir. Belə ki, Azərbaycan ərazilərindəki Alban xristian abidələrinin tarixi-arxeoloji və memarlıq baxımından tədqiqi xristianlığın bir çox xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir.

Ətraf mühitə vurulmuş zərərə görə kompensasiyanın verilməsinin öz xüsusiyyətləri var. Belə ki, zərər çəkmiş dövlət tərəfindən ekoloji zərərin nəticələrinin aradan qaldırılması və ya ləğv edilməsi gedişatında aparılmış ağlabatan xərclərin və ya zədələnmiş əmlakın dəyərinin azaldılmasına görə kompensasiyanın ödənilməsi zəruri hesab olunur. Bundan əlavə, onu da nəzərə almaq lazımdır ki, dövlətlərin məsuliyyəti haqqında "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 36-cı maddəsinə aid şərhin 15-ci bəndində qeyd olunur ki, hərdən "utilitar əhəmiyyət daşımayan dəyərlər" adlanan bioloji rəngarənglik, təbii landşaftın gözəlliyi və s. kimi ekoloji dəyərlərə vurulmuş faktiki zərər heç də əmlaka vurulmuş zərərdən az real və ödənilməli olmalı deyil, baxmayaraq ki, bəlkə də, miqdar cəhətdən onun hesablanması daha çətin ola bilər".

Beynəlxalq hüquqda bu sahəyə aid normaların formalaşması və inkişafı Küveytə qarşı təcavüz nəticəsində vurulmuş zərərin İraq tərəfindən ödənilməsinə dair məsələlərin həllində BMT Təhlükəsizlik Şurasının və BMT Kompensasiya Komissiyasının fəaliyyəti ilə bağlıdır. Belə ki, BMT Təhlükəsizlik Şurasının 687 saylı 3 aprel 1991-ci il tarixli qətnaməsinin 16-cı bəndində qeyd edilir ki, Küveytə hüquqazidd təcavüz və onun işğalı nəticəsində meydana gəlmiş bütün itkilərə, o cümlədən ətraf mühitə vurulmuş zərərə və təbii resursların azalmasına görə beynəlxalq hüquq üzrə İraq məsuliyyət daşıyır. Bu qətnaməyə əsasən, BMT-nin Kompensasiya Komissiyası konkret olaraq "ətraf mühitə vurulmuş zərər və təbii resursların azalması" anlayışlarını əhatə edən zərərin müxtəlif növlərini göstərdi. Qeyd edilənlər ətraf mühitə vurulmuş zərərə görə məsuliyyətin

artırılması tendensiyasını əks etdirir və bu hal ətraf mühitə vurulmuş zərərin azaldılmasında dövlətlərin ümumi marağını müəyyən edir.

"Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 37-ci maddəsinə əsasən, beynəlxalq hüquqazidd əməllərə görə məsuliyyət daşıyan dövlət bu əməllər nəticəsində vurulmuş zərərin restitusiya və ya kompensasiya ilə ödənilə bilməyən hissəsi qədər satisfaksiya təqdim etməlidir. Satisfaksiya pozuntuların etiraf edilməsindən, təəssüf edilməsindən, rəsmi üzr istənilməsindən və ya digər müvafiq formadan ibarət ola bilər. Qeyd edilməlidir ki, satisfaksiya halında pul şəklində ödəmələr də mümkündür və bu halda belə ödəmələr mənəvi zərərin ödənilməsi forması şəklində olur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair satisfaksiya Ermənistan tərəfinin Azərbaycana qarşı təcavüz faktını etiraf etməsi, Azərbaycan torpaqlarının işğalı faktını etiraf etməsi, Xocalıda törədilmiş soyqırımı etiraf etməsi, Azərbaycan xalqı qarşısında rəsmi üzr istəməsi formalarında ola bilər. Öz hərəkətləri ilə beynəlxalq hüquqazidd əmələ gətirib çıxarmış şəxslərin cəzalandırılması da satisfaksiyanın bir forması ola bilər.

Xüsusilə vurğulamaq lazımdır ki, beynəlxalq hüquqazidd əməllərə görə ödəmələrin müəyyənləşdirilməsi zamanı ən çətin məsələlər ödənilən zərərin miqdarının və belə zərərin qiymətləndirilməsi qaydalarının müəyyən edilməsində yaranır. Bu qaydalar pozulmuş öhdəliklərin xarakterindən, tərəflərin davranışının qiymətləndirilməsindən və bir sıra digər amillərdən asılı olaraq əhəmiyyətli dərəcədə bir-birindən fərqlənir. Müasir praktikanın təhlili göstərir ki, bir çox hallarda dövlətə vurulmuş ziyan bu dövlətə qarşı təcavüz və bu dövlətin ərazilərinin işğal edilməsi nəticəsində, bu dövlətin digər əmlakına zərərin vurulması nəticəsində, ətraf mühitin çirkləndirilməsi, o cümlədən transsərhəd çaylara və s. dəymiş zərərin aradan qaldırılması ilə bağlı xərclərin aparılması nəticəsində baş verir.

Bundan əlavə, beynəlxalq praktikada hər hansı dövlətin beynəlxalq hüquq pozuntusu nəticəsində zərər çəkmiş dövlətin ona vurulmuş zərərə görə təzminatın məbləğindən faiz almaq hüququna malik olması öz əksini tapmışdır. Belə ki, "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 38-ci maddəsinə əsasən, beynəlxalq hüquq pozuntusu nəticəsində vurulmuş zərərin tam ödənilməsinə nail olmaq məqsədilə həmin zərərin məbləğinə faiz hesablanır. Sənəddə göstərildiyi kimi, faizin dərəcəsi və hesablanması metodu o formada müəyyən edilir ki, vurulmuş zərərin tam ödənilməsinə nail olunsun. Habelə, faizlər vurulmuş zərərin əsas məbləğinin ödənilməsinə başlanılmalı olduğu tarixdən ödəniş öhdəliyinin yerinə yetiriləcəyi tarixə qədər hesablanır. Beləliklə, zərərçəkmiş dövlət ona vurulmuş zərərə görə belə zərərin nəticələrinin aradan qaldırılması məqsədilə təzminat məbləğindən faiz almaq hüququna malikdir. Misal olaraq göstərmək lazımdır ki, 1991-ci ildə İraqın silahlı təcavüzü nəticəsində Küveytə vurulmuş zərərlə bağlı məsələlərin kompleks şəkildə həllinə nail olmaq üçün BMT Kompensasiya Komissiyası yaradıldı. BMT Kompensasiya Komissiyası İdarə Şurasının faiz haqqında məsələyə həsr olunmuş qərarında göstərilir ki: "1. İşi udmuş iddiaçılara kompensasiya qismində verilmiş əsas məbləğdən istifadə etmək imkanının itirilməsini kompensasiya etmək üçün kifayət olan faiz dərəcəsi üzrə faizlər zərər yaranmış tarixdən ödəniş edilən tarixə qədər verilməlidir... 3. Faizlər kompensasiyanın əsas məbləği ödənildikdən sonra verilməlidir".

BMT Kompensasiya Komissiyasının İdarə Şurası müxtəlif şəxslər, korporasiyalar və hökumətlər tərəfindən daxil olmuş 1550871 iddia ərizəsi əsasında İraqın Küveytə silahlı təcavüzü nəticəsində vurulmuş zərəri 52 467 108 060 (əlli iki milyard dörd yüz altmış yeddi milyon yüz səkkiz min altmış) ABŞ dolları məbləğində müəyyən etmişdir. BMT Kompensasiya Komissiyasının verdiyi məlumata görə, 28 oktyabr 2010-cu il tarixinə qədər kompensasiya ediləcək məbləğin 30,7 milyard ABŞ dolları ödənilib.

Göründüyü kimi, Azərbaycan Ermənistanın beynəlxalq hüquqazidd əmelləri nəticəsində vurulmuş maddi və mənəvi zərərə görə təzminat almaq hüququna malikdir və bunun üçün müvafiq beynəlxalq-hüquqi mexanizmlər mövcuddur. Azərbaycanın ona dəymiş zərərin müqabilində müvafiq təzminat almaq hüququna malik olması beynəlxalq təşkilatların qərarlarında da təsdiqlənmişdir. Misal üçün, 13-14 mart 2008-ci ildə, Dakar, Seneqal Respublikasında keçirilmiş On birinci Zirvə Görüşündə ("Müsəlman Umması XXI əsrdə"), "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 2/11-C (İS) saylı qətnamənin 4-cü bəndində İKT "Azərbaycanın ona dəymiş ziyanın müqabilində təzminat almaq hüququna malik olduğunu hesab edir və bu təzminatın ödənilməsi üçün Ermə-

nistanın tam məsuliyyət daşıdığını təsdiq edir". Eyni məzmunlu müddəalar İKT-nin digər sənədlərində də öz əksini tapmışdır. Məsələn, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 10/11-P (IS) saylı qətnamənin 22-ci bəndində qeyd olunur ki, İKT "Azərbaycanın məruz qaldığı zərərlərə görə müvafiq kompensasiya hüququ olduğunu hesab edir və bu zərərlərə görə adekvat kompensasiya ödənilməsi məsuliyyətini Ermənistanın üzərinə qoyur".

Beləliklə, aydındır ki, Azərbaycana vurulmuş maddi və mənəvi zərərin ödənilməsi problemi Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılmasının və bütövlükdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin vacib aspektlərindən biridir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

In the Azerbaijani language

1. Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü. Bakı-2001
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I, Bakı., 2005
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II, Bakı., 2005
4. İsmayılov F. "Məcburən ermənilərdirmə". Bakı, 2007
5. Vəliyev M.H. /Baharlı/. Azərbaycan. Bakı: Azərbaycan, 1993
6. Qarabağnamələr, 2. Book, Bakı, "Yazıçı", 1991
7. İsmayılov M. Azərbaycan tarixi. Bakı: Elm, 1992
8. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, p. 452.
9. "Kommunist" newspaper. Yerevan, 20 yanvar 1975
10. "Şuşi" journal, Yerevan. 08.02.2006
11. Arsen Melik-Şahnazarov. "Dağlıq Qarabağ: nifrətin xronikası". 2011, Minsk
12. İsmayılov F. "Tarix və mədəniyyət abidələrinin qorunması, istifadəsi və bərpası barədə təlimatlar". 2013
13. İsmayılov F. "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsi metodologiyası". 2014
14. Rüstəm Məmmədov, Humay Əfəndiyeva. "Azərbaycan Respublikasının tarix və mədəniyyət abidələrinin beynəlxalq-hüquqi qorunması". Bakı, "Səda", 2015, p. 328.

In the Russian Language

1. Гейбуллаев Г. Топонимы Азербайджана (Топонимс оф Азербайжан) . Баку: Элм, 1986
2. Дьяконов И.М. Предыстория армянского народа (Прецисторй оф оф тще Армениан пеопле). М., 1968

3. Шавров Н. Новая угроза русскому делу в Закавказье (Hew тщреат то Руссиан ъасе ин тще Соутщ Ъауъасус). Баку, Элм, 1990
4. Мыкыртчян Ш.М. Историко-архитектурные памятники Нагорного Карабаха (Щисториъал анд аръщитеътурал монументс оф Наэорно-Карабакщ). Ереван, Издательско-производственное объединение "Парберакан", 1989
5. Самвел Карапетян, Мосты Арцаха (Бридэес оф Артсакщ). Ереван - 2009
6. Заре Мелик-Шахназаров. Записки Карабахского солдата (Нотес оф тще солдиер фром Карабакщ). Москва, 1995
7. Кривопусков В.В. Мятежный Карабах (Ребеллиоус Карабакщ). Из дневника офицера МВД СССР. Издание второе, дополненное. М.: Голос-Пресс, 2007, п. 384
8. Аркадий Тер-Тадевосян. "Анализ боевых действий в Артсахе" (Аналйсис оф ъомбат операционс ин Артсакщ) (Жулй- 1991 - Жулй 1992)
9. Левон Мелик-Шахназарян. "Славная победа армянского оружия" (Тще элориоус виъторй оф тще Армениан weапон). Газета армян России Еркрамас. 09.01.2009
10. Г.И.Анохинин. "Малый Кафказ" (Тще Лессер Ъауъасус). Москва, 1981 г.."Физкультура и спорт"

Websites

1. www.novostink.ru the Armenian website, June 24, 2013
2. "168 HOURS Analytical information agency of the Republic of Armenia", June 24, 2013

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış **08.12.2016.**
Şərti çap vərəqi **11.** Sifariş **№ 485.**
Kağız formatı **70x100 1/16.** Tiraj **1000.**

Kitab ***«Elm və təhsil»*** nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

7@8567

A2 2016/2229